Əli Cabbarov




# Naxçıvan Muxtar Respublikasının turizm marşrutları



**Əli Xeybər oğlu Cabbarov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent

1970-ci ildə Şahbuz rayonunun Kükü kəndində müəllim ailəsində anadan olub. 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2000-ci ildən Naxçıvan Dövlət Universitetində, 2006-cı ildən "Naxçıvan" Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirir. 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetində çalışır. 2020-ci ildən www.mia.az xəbər portalının köşə yazarıdır.

Səkkiz kitabın, 90 elmi və "Azərbaycan", "Xalq qazeti", "Respublika", "Şərq qapısı" qəzetlərində və www.mia.az saytında dərc olunmuş, ümumilikdə, 1200-dən artıq publisistik məqalənin müəllifidir.

**ƏLİ CABBAROV**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TURİZM MARŞRUTLARI

**Naxçıvan - 2022**

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 dekabr 2020-ci il tarixli iclas qərarı ilə monoqrafiya kimi çapa tövsiyə olunmuşdur **(protokol № 05)**

Rəyçilər: ***Nazim Bababəyli***
Coğrafiya üzrə fəlsəfə doktoru

***Sevinc Abbasova***
Tarix üzrə elmlər doktoru

Bu mövzuda ilk dəfə yazılmış monoqrafiyada Naxçıvan Muxtar Respublikasının mövcud və perspektiv turizm maşrutları haqqında məlumat verilir. Kitab Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf problemləri üzrə tədqiqat aparan araşdırmaçılar, turizm ixtisası üzrə təhsil alan tələbələr, turizm-ekskursiya fəaliyyəti üzrə məşğul olan sahibkarlar, həvəskar turizmçilər və Naxçıvana səyahət edən turistlərin özləri üçün faydalı ola bilər.

Görkəmli alim
***Nazim Bababəylinin***
xatirəsinə

***Cabbarov Ə.X. Naxçıvan*** *Muxtar Respublikasının turizm marşrutları.* Monoqrafiya. 160 səh.

4700000000
053-2022

**© "Əcəmi" 2022**

# ÖN SÖZ

Müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının turizm marşrutları adlı ilk kitabın işlənilməsi ideyası müəllifin 2004-cü ildən başlayaraq turizmin inkişaf problemləri üzrə apardığı elmi-nəzəri araşdırmaların və 2017-ci ildən etibarən məşğul olduğu turizm-ekskursiya fəaliyyətinin məntiqi bir nəticəsi olaraq yaranıb. Şübhəsiz, dünyanın istənilən yerində olduğu kimi qədim Naxçıvanda da turizmin inkişafı üçün turistlərə təqdim olunan xidmətlərin zərf halında satıla bilinməsi üçün onların müəyyən bir turizm marşrutu üzrə komplektləşdirilməsi ən zəruri tələblərdəndir. Bu da öz növbəsində muxtar respublikanın coğrafi cəhətdən daha yaxşı tanınması, onun sahib olduğu rekreasya və tanışlıq obyektlərinin cəlbetmə gücünün, eləcə də funksional və estetik potensialının qiymətləndirilməsi ilə birbaşa bağlıdır.

Turizm mürəkkəb bir sahədir. Burada turistlərə təklif olunan xidmətlərin təşkili və idarəolunması regionun sahib olduğu turizm ehtiyatlarından rasional istifadə, ekoloji maraqların qorunması, modern infrasruktur və kadr potensialının yaradılması və eyni zamanda mövcud turizm marşrutları üzrə yaradılan turların dizaynı ilə sıx bağlıdır. Bütün bunların hamısı isə ölkəmizdə turizmin inkişafına göstərilən dövlət qayğısının nəticəsində mümkündür. Bu mənada, ölkəmizin və eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial-mədəni həyatda əldə etdiyi inkişaf nəticələri burada turizm marşrutlarının yaradılması üzrə də mühüm nəticələrə çatmağa imkan verir.

Muxtar respublikanın sahib olduğu təbii, tarixi-mədəni və antropogen mənşəli turizm ehtiyatları, onlardan səmərəli istifadə üzrə dövlət səviyyəsində qəbul olunmuş mühüm qərarlar mövcud və potensial turizm marşrutları istiqamətində dünya turistləri tərəfindən çox bəyənilən turların reallaşdırılması üçün şərait yaradır. Məhz bütün bunlara görə də turizm marşrutlarının yaradılması və onlardan istfiadə məsələləri kimi yaradıcılıq sahəsində uğurlu layihələrə imza ata bilmək üçün Naxçıvan Muxtar Respublikasının ideal məkanlardan biri olduğunu qətiyyətlə göstərmək mümkündür.

Turizm marşrutlarının yaradılması və eləcə də onlardan istifadə yaradıcı komanda işidir. Turizm marşrutları haqda danışarkən onların yaranması və inkişafı problemlərinə müasir mədəni insan tələbatlarının bir hissəsi kimi yanaşmaq, onların tərtibi və istifadəsi zamanı texniki-iqtisadi qiymətləndirmə məsələlərini nəzərə almaq, ekoloji tələbləri, təhlükəsizlik və milli maraqları ön planda tutmaq lazımdır. Bu da öz növbəsində turizm marşrutları üzrə hər hansı bir layihənin reallaşması yolunda elmi biliklər əldə olunması, gərgin iş və kifayət qədər çox informasiyanın işlənilməsi ilə mümkündür.

Naxçıvan Muxtar Respublikası istər turizm marşrutları yaradılması və istərsə də ümumən asudə vaxtın təşkili baxımından olduqca unikal bir məkandır. Qədim diyarın tarixi ədalətsizlik nəticəsində Azərbaycanın əsas hissəsindən ayrı düşməsinə baxmayaraq, onun yerləşdiyi coğrafi mövqe, buradakı landşaft müxtəlifliyi, zəngin tarixi-mədəni potensial və müasir sosial-iqtisadi inkişaf səviyyəsi haliyədə mövcud olan və yaradılacaq turizm marşrutlarının cazibədarılğına öz təsirini göstərir. Keçmiş sovet dönəmində Naxçıvan Muxtar Respublikasının sərhədyanı bir bölgə kimi xarici turistlərin üzünə bağlı tutulması, daha sonrakı dövrlərdə düşmən ölkə Ermənistan tərəfdən alınmış blokadanın ilk illərindəki ağır sosial-iqtisadi vəziyyət Naxçıvanda turizmin də inkişafına mənfi təsir göstərmişdi. Lakin bundan sonrakı dövrlərdə, yəni 1990-cı illərin sonundan başlayraq bütün sahələrdə yaranan sürətli inkişaf gəlmə turizmdə də özünü göstərməyə başladı və nəticədə Naxçıvan Muxtar Respublikası artıq hər il böyük bir hissəsi əcnəbi olan orta hesabla 400 min nəfərə yaxın turisti qəbul edir. Hazırda muxtar respublikada dini-ziyarət, müalicə, mədəni-tanışlıq, ekoturizm, etnik, kənd-yaşıl və tranzit turizm növləri üzrə bir çox istiqamətlərdə turizm marşrutları fəaliyyət göstərir və regiona turist marağı artdıqca bu marşrutların sayının da artacağı proqnoz edilir.

Müasir dünyada turizmin inkişafı turistlərin məzmunlu səyahəti üçün müəyyən istiqamətlərdə təşkil olunmuş turizm və ekskursya marşrutlarının imkanları ilə sıx bağlıdır. Təcrübə göstərir ki, bu iş turizmin təşkilinin ən əsas, yekun mərhələsidir.

Belə ki, əgər turizm üçün yol, mehmanxana və digər vacib infrastruktur məsələləri həll olunubsa, bundan sonra regionda kütləvi turizm üçün məhz cəlbedici turizm marşrutları yaradılması da gündəmdə durur. Bu həlledici mərhələdə isə Naxçıvanın kifayət qədər resursu vardır. Bu baxımdan, turizm marşrutları üzərində də işləyərkən Naxçıvanın nə qədər dəyərli sərvətləri olduğunu görmək olar. Ona görə də muxtar respublikadakı turizm ehtiyatlarının daha dərindən öyrənilməsi və onların əsasında xidmətlər zərfi yaradılması günün tələbidir.

Bu gün Naxçıvan Muxtar Respublikasında mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar kimi istiqamətlərdə turizm marşrutları vardır. Bununla yanaşı bu marşrutların sayının daha da artırılması və bu istiqamətlərdə satışa çıxarılan turların turistlərə təqdim olunması da mümkündür. Belə ki, gələcəkdə Naxçıvan-Kükü-Qanlıgöl, Naxçıvan-Nehrəm, Naxçıvan-Sədərək, Naxçıvan-Çənnəb, Naxçıvan-Keçili, Naxçıvan-Badamlı, Naxçıvan-Haçadağ, Naxçıvan-Dırnıs, Naxçıvan-Şahbulaq, Naxçıvan-Gəmiqaya, Naxçıvan-Ordubad-Göygöl kimi perspektiv marşrutlar da turistərin marağını cəlb etməkdədir. Ayrıca olaraq, tarixi torpaqlarımız olan Qərbi Zəngəzurdan keçməklə də turizm marşrutları gələcəkdə populyar olacaq.

Turizm marşrutları geniş mövzu olub, xüsusən Naxçıvan kimi turizm potensialı hələ ki, tam istifadə olunmayan bir diyarda həm araşdırma, həm də yeni startap layihələri kimi də maraq kəsb edir. Ona görə də turizm marşrutlarına qarşı qoyulan ümumi tələblər haqqında danışarkən bu sahədə əldə olunan biliklərlə bərabər, bu marşrutların hazrlanması zamanı çevik qiymətləndirmə, marketinq, marşrut üzərində yerləşən yaşayış məntəqələrində yaşayan yerli əhalinin maraqları, milli adət və ənənələr, əsasən xidmət sahələri olmaqla kiçik sahibkarlığın, fərdi ailə təsərrüfatlarının imkanları da nəzərə alınmalıdır. Marşrut boyunca turistlərin ala biləcəkləri informasiyanın etibarlı və inandırıcılığı isə bu sahənin peşəkarları olan turizm mütəxəssislərinin üzərinə düşür. Belə ki, yurdumuzun tarixini və

bu günkü inkişafını hamıdan yaxşı bilmək, onun hər bir qeyri-adi mənzərəsinə, əzəmətli qayasına və kiçik bir daşına, sıx meşəsinə və tənha bənövşəsinə, qarlı qışına və gül çiçəkli yazına peşəkar bir turist gözü ilə də baxmaq lazımdır. Naxçıvanın bir turizm destinasiyası kimi dünya turizm mərkəzləri arasında tanınması üçün daha çox və rəngarəng xidmətlər təşkil olunduqca diyarımız dünyanın hər yerindən gələ biləcək tələbkar turistlər üçün cazibədar olacaqdır.

Turizm marşrutları həm də maraqlı araşdırma mövzusudur. Dünyada, eləcə də ölkəmizdə mövcud olan turizm marşrutları bir çox hallarda bir brend kimi tanınmaqla turistlərin keçdiyi ərazinin tarixi keçmişi, yerli əhalisinin məşğuliyyəti və iqtisadi-mədəni inkişafı barədə real təsəvvür yaradır. Turizm marşrutları turizm məhsulunun bir hissəsi kimi də əhəmiyyət daşımaqla turistlərə təqdim olunan sosial-mədəni servislərin tərkibini müəyyənləşdirir. Buna görə də bölgədə turizm planlaşdırma strategiyası hazırlandığı zaman turizm marşrutlarının uzunömürlü həyat dövriyyəsi qazanmasına çalışılmalıdır. Bu isə turizm marşrutlarının dizayn olunması zamanı orijinal ideyaların ortaya qoyulmasını tələb edir.

Bu monoqrafiya Naxçıvan Muxtar Respublikasının turizm marşrutları üzrə yazılmış ilk kitabdır. Kitabın işlənməsi zamanı müəllif öz dəyərli fikirlərini onunla paylaşmış həmkarlarına, habelə Naxçıvan Muxtar Respublikasına səyahətə gəlmiş əcnəbi turistlərin təssüratlarına çox borcludur. Ayrıca olaraq, müəllif Naxçıvan-Ordubad-Gəmiqaya turizm marşrutu üzrə işləyərkən göstərdiyi köməyə görə sənətşünas alim Nizami Alıyevə, Naxçıvan-Ordubad-Göygöl turizm marşrutu üzrə işləyərkən bölüşdüyü fikirlərə görə isə turizmçi həmkarı Natiq Paşayevə minnətdardır.

Şübhəsiz, bu sahədə yeni bir kitab olduğu üçün müəyyən çatışmazlıqların olması da qaçınılmazdır. Odur ki, dəyərli oxucuların öz fikirlərini *alijabbarov1970* Facebook səhifəsinə, yaxud alijabbarov@gmail.com elektron ünvanına yazmağı xahiş olunur.

# I FƏSİL. TURİZM MARŞRUTU VƏ ONUN MAHİYYƏTİ

## *1. Turizm marşrutu anlayışı*

Turizm marşrutu coğrafi cəhətdən əvvəlcədən müəyyən olunmuş ərazi, xüsusi obyektlərlə bağlı olan və müxtəlif səviyyədə təsvir olunan yürüş, səyahət və hərəkət yoludur. Başqa sözlə, turizm marşrutu dedikdə, əvvəlcədən hazırlanmış istiqamət üzrə, müəyyən zaman müddətində və müəyyən məqsədlə hazırlanmış xidmətlər zərfi başa düşülür. Bu xidmətlər zərfi bir başqa anlayışla tur və ya turistin əldə etdiyi yollayış əsasında istifadə etdiyi turizm-ekskursiya xidmətləridir. Bu mənada, turizm marşrutlarının yaradılması turizm xidmətlərinin göstərilməsinin əsas texnologiyasını təşkil edir.

Turizmin inkişafı turizm ehtiyatları ilə zəngin olan ərazilərdə turizm məhsulunun yaradılması ilə mümkündür. Turizm məhsulunun əsas tərkib hissəsi isə müəyyən istiqamətlərdə təşkil olunmuş turizm marşrutlarına aid olunan tur, ekskursiya proqramları, yolüstü xidmətlərdə öz əksini tapır. Turistlər öz səyahətlərini müəyyən marşrutlar boyunca həyata keçirirlər. Bu marşrutlar boyunca hərəkət edən turistlər səyahətlərdən gözlədiyi təəssüratı almağa maraqlıdırlar. Turistlərin səyahətlərinin müəyyən marşrut üzrə təşkil olunması məhz təşkilati turizmin əsas şərtlərindən biridir. Təşkilati turizm isə öz növbəsində müasir dövr turizmin əsas tələblərindən biridir. Bunun üçün müəyyən istiqamətlərdə turizm destinasiyalarının yaradılması vacib şərtdir.

Turizm destinasiyası daxilində yaradılacaq turizm marşrutları, onların cazibədarlığı, iqtisadi cəhətdən əsaslandırılması və təhlükəsizliyi turizm marşrutları və ekskursiya işinin təşkili üzrə əsas problemlərdən biridir. Bununla əlaqədar olaraq turizm marşrutlarının hazırlanması, onların təsnif olunması müvafiq layihələndirmə

mərhələlərindən keçməsi və turistlərə təklifi problemləri həll olunmalıdır. Turizm marşrutları turistlərin səyahət motivlərinə, turların müddətinə, istifadə olunan nəqliyyat vasitələrinin növlərinə görə təsnif olunur. Burada turistlərin səyahət motivlərinə əsasən tarixi-mədəni yerlərlə tanış olmaq, istirahət, sağlamlıq, təbiətlə ünsiyyət, balıq tutmaq, ov etmək, həyəcanlı turlarda iştirak etmək, safari, raftinq, macəra, sərvət axtarışı, fotoovçuluq, təbii və texnogen fəlakət yerlərinə olan marşrutlar, çətin keçilən yerlərdən təşkil olunan marşrutlar, habelə artıq istifadədə olmayan hərbi obyekt və döyüş poliqonlarına və təhlükə törətməyən qəza yerlərinə səyahətlər ola bilər.

Turizm marşrutları üzərində dövlətin ali maraqları ilə bərabər həm də yerli əhalinin maraqları, milli adət və ənənələr, əsasən xidmət sahələri olmaqla kiçik sahibkarlığın, fərdi təsərrüfatların imkanları nəzərə alınmalıdır. Marşrut boyunca turistlərin ala biləcəkləri informasiyanın etibarlı və inandırıcı olması isə bu sahənin peşəkarları olan ekskursiya bələdçilərinin üzərinə düşür. Onlar öz regionunu hamıdan yaxşı tanıyaraq, onun hər bir qeyri-adi mənzərəsinə bir qonaq gözü ilə də baxmağı bacarmalıdır.

Hər bir ərazinin coğrafi mövqeyi, bölgənin sosial-iqtisadi inkişaf səviyyəsi, sosial infrastrukturun vəziyyəti və eyni zamanda malik oduğu turizm ehtiyatlarının səviyyəsi ilə turizm marşrutları da dəyişilə bilər. Bu baxımdan, bir turizm marşrutuna tələbatın olması və ya əksinə, olmaması tamamilə təbii bir haldır. Ona görə də turizm marşrutları, xüsusən tarixi-mədəni turizm marşrutları haqqında danışarkən orijinal ideyalara əsaslanmaq lazımdır. Dünyada ön sıralarda gedən turizm sənayesinin uğurunu da bu yolla əsaslandırmaq mümkündür.

Turizm marşrutlarının tərtib olunması, onların əsasında turların təşkili turizmin inkişafının əsas şərtlərindəndir. Dünyanı gəzib dolaşan turistlər uzaq səfərlərə çıxdıqda

müəyyən turizm marşrutu üzrə hərəkət edərək həm onlar üçün rahat olan xidmətlərdən istifadə edir, həm də marşrutun keçdiyi regionun iqtisadiyyatına gəlirlər qazandırırlar. Məhz belə olduqda turizm ondan gözlənilən bütün effektləri verə bilir.

Cəlbedici turizm marşrutları mövcud turizm ehtiyatları əsasında yaradılır. Turizm ehtiyatları isə rekreasiya cazibədarlığı baxımında praktiki olaraq tükənməzdir. Ona görə də turizm marşrutları geniş mövzudur. Belə ki, turizm marşrutları, onlara qarşı qoyulan ümumi tələblər haqqında danışarkən bu sahədə əldə olunan biliklərlə bərabər, elmi mənbələrə də ehtiyac vardır. Turun məzmunu, onun istifadə vaxtı, bundan istifadə edən turistlərin sosial mənsubiyyəti, yaşı, cinsi, ölkə mənşəyi və digər əlamətlərinə görə seçilməsi, bundan əlavə yay, qış turizm mövsümünün və əlamətdar günlərin nəzərə alınması marşrutları rəngarəng və maraqlı edər. Məhz əvvəlcədən diqqətlə tərtib olunmuş, bütün parametrlərlə özünü doğruldan, iqtisadi cəhətdən səmərəli, təhlükəsizliyi zəmanət altına alınmış və turistlərin bu istiqamətdəki xidmət obyektlərində həvəslə pul xərcləyə biləcəyi bir turizm marşurutuna onların dəvət olunması lazımdır. Belə olduqda turizmdən gözlədiymiz iki ən böyük nəticə — turizm gəlirlərinin və bölgənin tanıdılması hədəfi bərabər səviyyədə özünü doğrulda bilər.

Turizm marşrutlarının hazrlanması çevik qiymətləndirmə və marketinq işləri tələb edir. Turizm marşrutu üzərində yerli əhalinin maraqları, milli adət və ənənələr, əsasən xidməd sahələri olmaqla kiçik sahibkarlığın, fərdi təsərrüfatların imkanları nəzərə alınmalıdır. Marşrut boyunca turistlərin ala biləcəkləri informasiyanın etibarlı və inandırıcı olması isə bu sahənin peşəkarlarının — turizm bələdçilərinin üzərinə düşür.

Yerli turizm marşrutlarından fərqli olaraq beynəlxalq marşrutlar iki və daha çox ölkəni əhatə edir və turizm sahəsində əməkdaşlığa zəmin yaradır. Bu xüsusda, "Böyük

İpək Yolu” turizm marşrutunu misal göstərmək olar. Ölkəmiz üçün isə cəlbediciliyi yüksək olan “Aleksandr Düma Qafqazda”, “Babaların tarixi zəfər və şəhadət yolu”, Fizuli-Şuşa istiqaməti üzrə “Zəfər Yolu” və Naxçıvanda “Nuhun gəmisi” kimi tarixi-simvolik turizm marşrutlarını da qeyd etmək olar.

Şübhəsiz, 2020-ci ildə Azərbaycanın ən böyük uğuru kimi yadda qalacaq 44 günlük şanlı Vətən müharibəsi nəticəsində Qarabağın 30 illik erməni işğalından azad olunması və bununla da ölkəmizin turizm incilərindən olmuş torpaqlarımıza yenidən qovuşmağımız yeni turizm marşrutlarının hazırlanmasına da mühüm töhfə verəcək. Bu mənada, işlənib hazırlanacaq Bakı-Xankəndi-Şuşa, Bakı-Fizuli-Qubadlı-Şuşa-Laçın, Bakı-Ağdam-Xankəndi-Şuşa, habelə Naxçıvan-Zəngilan-Şuşa və Bakı-Zəngəzur-Naxçıvan turizm marşrutları da gələcəkdə öz səyahətçilərinin yolunu gözləyir.

Əlamətlərinə görə turizm marşrutları tematik, yürüş, fiziki-sağlamlıq və qarışıq marşrutlar kimi təsnif olunur:

- tematik marşrutlar daha çox tanışlıq və ekskursiya məqsədli bir səyahət formasıdır.
- yürüş marşrutları daha çox aktiv hərəkət vasitəsi ilə həyata keçirilən səyahətdir.
- fiziki-sağlamlıq turları isə əsasən idman məzmunlu, sağlamlığın möhkəmləndirilməsi məqsədi ilə həyata keçirilir.
- qarışıq marşrutlar yuxarıda qeyd olunan marşrutların kombinasiyası əsasında hazırlanır.

Məzmununa görə turizm marşrutları bunlardır:

- təbiətlə ünsiyyət və istirahət;
- dənizdə istirahət;
- dağlarda gəzinti və istirahət;
- ovetmə və mənalı istirahət;
- tarixi yerlərə baxış;
- təhsil və maariflənmə.

Beləliklə, turizm marşrutları istənilən məqsədli turun həyata keçirilmə obyekti olub müəyyən coğrafi məkanda və müəyyən dövrdə yaranıb inkişaf edən və öz həyat dövriyyəsini tamamlayan bir turizm anlayışıdır.

## *2. Turizm marşrutlarına qarşı qoyulan müasir tələblər*

Marşrutların hazırlanması zamanı aşağıdakı qaydalara əməl olunması tələb olunur:

- turizm marşrutu boyu keçilən yürüşlər bütün turistlərin fiziki imkanları çərçivəsində olmalıdır;
- yerli sərnişin nəqliyyatı və turist daşıyan xətlər arasında turistlərin hərəkəti zamanı piyada və digər aktiv vasitələrə üstünlük verilməlidir;
- uzunmüddətli düşərgə və yataq yerləri mümkün ola biləcək səviyyədə komfortlu, yanacaq, ərzaq və rabitə təminatlı olmalıdır;
- marşrutun planlaşdırılması zamanı yolda yubanmalar əvvəlcədən nəzərə alınmalıdır.

Marşrutların hazırlanması zamanı ən müxtəlif sorğu materiallarından — sorğu kitabçalarından, bələdçi kitablarından, ölkəşünaslıq üzrə kitablardan və xəritələrdən istifadə oluna bilər.

Yürüşlər turizm marşrutu boyunca təşkil olunan, əsasən turistləri tanışlıq və sağlamlıq tələbatlarının ödənilməsi məqsədilə həyata keçirilən hərəkət formasıdır. Yürüşlər məqsədinə görə sağlamlıq, ekzotik-macəra, idman, tədris-məşq, elmi-tanıtım və digər ola bilər. Uzunmüddətli ekskursiyalar da yürüşlər kimi təsnif olunurlar. Yürüşlər piyada formadan tutmuş, digər aktiv hərəkət növləri olan velosiped, xizək, qayıq, motosikl, avtomobil və hava şarına qədər müxtəlif vasitələrlə təşkil oluna bilər.

Yürüşlər mürəkkəblik dərəcəsindən başqa marşrutun uzunluğundan, davametmə müddətindən və turizmin növlərindən də asılı olaraq dəyişilir.

Turizm marşrutları müəyyən olunmuş metodologiya vasitəsilə hazırlanıb, planlı şəkildə başa çatdırılır. Bu zaman tətbiq olunan metodologiya turların həyata keçirilməsi ardıcıllığı və bu proses zamanı tələb olunan qayda, qanun və üsulların sırasıdır.

Turizm marşrutları kifayət qədər mürəkkəb, yüksək ixtisaslı servislər tələb edən çoxpilləli proseduralar toplusu olduğundan onların vahid metodologiya ilə işlənməsinə ehtiyac yaranır. Əgər bu marşrut sifarişlə, yəni birdəfəlik olaraq hazırlanırsa onda marşrutların hazırlanması metodologiyası çox sadə olur. Əgər bu, davamlı xarakter daşıyırsa, onda ətraflı və çoxcəhətli metodoloji qaydalardan istifadə olunur.

Müasir dövrdə turizm marşrutlarının hazırlanması üçün aşağıdakılar nəzərə alınmalıdır:

- Nəzərdə tutulan yol boyu mövcud olan turizm ehtiyatlarının öyrənilməsi;
- Həmin resurslardan istifadəyə məhdudiyyət yaradan səbəblərin öyrənilməsi;
- Verilmiş marşrut üzrə təklif olunan xidmətlərin marketinq araşdırmasının aparılması;
- Marşrutun tipinin seçilməsi;
- Marşrutun eskiz modelinin qurulması;
- Marşrut üzrə konkret yolların müəyyən olunması;
- Turmarşrutda hərəkət qrafiki və təqvimə görə səyahətlərin tətbiq olunması;
- Marşruta vacib həyati ehtiyacların qarşılanması üçün lazım olan məntəqələrin daxil edilməsi;
- Marşrutun təhlükəsizlik sxeminin qurulması;
- Marşrutun pasportunun hazırlanması;
- Bu paspotun müvafiq qurumlarla razılaşdırılması;
- Marşrut üzrə test yürüşlərin aparılması;

- Marşrutun sxeminə lazım olan dəyişikliklərin edilməsi;
- Marşruta yenidən baxılıb təsdiq olunması.

Turoperator fəaliyyətinin məhsulu olan tur dövlət tərəfindən qəbul edilmiş ciddi standartlara uyğun olaraq layihələndirilməlidir. Bu layihələr turistlərin həyat və sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, risklərin azaldılması və istehlakçı hüquqlarının qorunması kimi tələblərə ciddi şəkildə cavab verməlidir. Bütün bunlar turların layihələndirilməsi zamanı tərtib olunan sənədləşmədə öz əksini tapır. Belə ki, bu sənədlərdə:

- Turistlərə xidmətin forma, metod və prosesləri təsvir olunur;
- Turlar üçün tələb olunan maşın və avadanlıqların tipi, miqdarı və buraxılış qabiliyyəti göstərilir;
- Bu proseslərin xarakteristikası verilir;
- Tur üçün tələb olunan zəruri işçi heyəti və onların peşəkarlıq səviyyəsi müəyyən olunur;
- Turistlərə xidmətin zəmanəti verilir;
- Rekreasiya resurslarının sahibləri, sanitar-epidemioloji orqanların rəhbərləri, yanğınsöndürmə orqanlarının rəhbərləri ilə əldə edilən razılaşmalar göstərilir.

Bütün bu göstərilənlər normativ sənəd kimi turistlərə xidmət zamanı əsas göstərilməli və bundan aşağı səviyyədə olmamalıdır.

Bunlardan əlavə turların layihələndirilməsi zamanı turizm müəssisəsinin imkanları nəzərə alınmalı, turun keçiriləcəyi rayon və turistlərin tələbatı öyrənilməlidir.

Turların işlənməsi zamanı marşrut boyunca göstərilən xidmətlərin icraçılarının siyahısı, xidmətlərin göstərilmə dövrü, ekskursiya obyektlərinin tərkibi, turistlərin yürüşlərinin, gəzintilərinin siyahısı, hər məntəqədə dayanma müddəti, səyahətlərdə iştirak edənlərin sayı, nəqliyyat üçün istifadə olunan vasitələrin növü, bələdçiyə, təlimatçıya, tərcüməçiyə,

xarici təmsilçiyə olan tələbat, səyahətin informasiya təminatı və reklam üzrə vəziyyət əks olunmalıdır.

Turların düzgün layihələndirilməsi praktikada öz müsbət nəticəsini verir. Bu nəticələr:

1) turizm marşrutlarının hazır texnoloji xəritəsi;

2) turizm müəssisəsinin işlə yüklənmə qrafiki;

3) turizm yollayışının informasiya vərəqi;

4) turistlərə xidmətin proqramı kimi hazır nəticələr ola bilər.

Turların layihələndirilməsi zamanı təklif olunacaq turizm xidmətlərinə olan tələblər iki yerə bölünürlər.

Bunlar:

- İcbari tələblər;
- Tövsiyə olunan tələblərdirlər.

İcbari tələblər turistlərin həyat və sağlamlığının, əmlakının və ətraf mühitin qorunması kimi çox mühüm tələblərdir.

Tövsiyə olunan tələblər isə turların təyinatına uyğunluğu, dəqiqliyi, kompleksliyi, etik tələblərə uyğunluğu, zəruri servis heyətinin mövcudluğu, komfortluğu, estetikliyi və erqonomikliyidir. Burada erqonomiklik dedikdə, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün nəzəriyyənin, praktiki prinsiplərin və məlumatların sistematik şəkildə öyrənilməsi ilə onların insan həyatının rahatlığı naminə istifadəsi üçün elmi yanaşmalar başa düşülür.

Turların layihələndirilməsi zamanı tətbiq olunan erqonomik yanaşma isə bu turlarda təklif olunan marşrut, avadanlıq, əşya və digər şərtlərin turistlərin fiziki və psixoloji vəziyyəti ilə üst-üstə düşməsidir.

Turizm marşrutları və tur istehlakçı tələbini ödəyən bir məhsul kimi turistlərə təklif olunarkən müəyyən hazırlıq mərhələsi keçir. Bundan sonra qurulmuş turizm biznesinin uğurlu işi üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Seçilmiş seqmentə uyğun tələbin tam ödənilməsi;

- Turistlərə yüksək xidmət və peşəkar mədəniyyət nümunəsi təqdim etmək;
- Turu həyata keçirən turizm firmasının iqtisadi cəhətdən məqsədəuyğun işini təmin etmək;
- Müəssisə fəaliyyətinin mənfəətlə yekunlaşması və onun səmərəli istifadəsini təmin etmək;
- Təsərrüfat risklərini minimumlaşdırmaq, müxtəlif təbii və texnogen qəzalara yol verməmək;
- Turfirmanın imicini və bazar dəyərini daim artırmaq.

Beləliklə, yuxarıda göstərilənləri qarşısına məqsəd qoymuş turizm firması turmarşrutları hazırlayarkən aşağıdakı mərhələlərdən keçir:

- Bazarın öyrənilməsi — buraya mövcud tələbin səviyyəsi, rəqiblərlə mövcud olan rəqabətin səviyyəsi, mülkiyyət mövqeyi və təklif ediləcək məhsulun rəqabətədavamlılığı daxildir;
- Resurslara olan tələbin müəyyənləşdrilməsi - bunlar təbii, əmək, maliyyə və informasiya resurslarıdır.

Əgər turizm firması yeni yaradılıbsa:

- Onun təşkilati - hüquqi formasının seçilməsi;
- Təşkilati strukturunun formalaşdırılması;
- Müəssisənin idarəetmə sisteminin müəyyənləşdirilməsi;
- Firmanın istehsal - təsərrüfat funksiyalarının müəyyən olunması;
- Rəsmi qeydiyyatdan keçirilməsi.

İşə başlayan turfirmanı isə aşağıdakı mərhələlər gözləyir:

- Turun formalaşdırılması üçün proqramın tutulması;
- Turun qiymətnin hesablanması;
- Xidmət təchizatçıları ilə kommersiya müqavilələrinin bağlanılması;
- Turun dövriyyəsi və hərəkət etdirilməsi (marketinqi);
- Turistlərə xidmətin idarə edilməsi;
- Turfirmanın innovasiya siyasətinin aparılması.

## *3. Turizm marşrutlarının yaradılmasına təsir edən amillər*

Mürəkkəb sosial-iqtisadi hadisə kimi turizm bir çox amillərdən asılıdır. Bunlar səyahətlərə olan motiv, yaradılmış turizm infrastrukturu, turistlərin informasiya təminatı, nəqliyyat vasitələrinin inkişafı, turistlərin istehlak davranışları, moda və zövqlərdəki dəyişiklik, asudə vaxtın təşkili imkanları kimi sıralanır. Bunlardan əlavə, ərazidə aparılmış planlaşdırma, yeni yaşayış məskənlərinin və urbanizasiya proseslərinin sürətlənməsi turizm marşrutlarının layihələndirilməsinə öz təsirini göstərir. Yerli əhalinin turistlərə qarşı münasibəti və ümumi qonaqpərvərlik də burada öz sözünü deyir.

Motiv insanı səyahət etməyə cəlb edən əsas səbəbdir. Turizm marşrutları da bu motivlər üzərində qurulmalıdır. Əgər müasir dövrdə səyahətlərin 300-dən çox növü və yarımnövü varsa turistlərin motivləri də bu qədər müxtəlif olmalıdır.

Turizm infrastrukturu kimi turizm sənayesinin də fəaliyyət göstərə bilməsi və turizm resurslarından səmərəli istifadə olunması üçün zəruri olan məcmu şərtlər vardır. Buraya kompleks şəkildə mühəndis-kommunikasiya şəbəkəsi, o cümlədən telekommunikasiya (müasir səviyyəli elektron rabitə və İnternet) şəbəkəsi, müxtəlif təyinatlı rahat yollar, hava və dəniz limanları, otel, motel, hostel, turist bazaları kimi turistlərin müvəqqəti qalma yerləri, nəqliyyat vasitələri, əyləncə mərkəzləri, müxtəlif mətbəx nümunələrini təklif edən restoranlar, parklar, istirahət guşələri, rabitə-informasiya şəbəkələri, hədiyyəlik əşya mağazaları daxildir. İnfrastruktur şəraiti həm turizm müəssisələrinin işinin, həm də turistlərin özününü turizm məhsulundan istifadə etməsi baxımından mühüm rol oynayır və turizmin təşkilinin ayrılmaz tərkib hissəsidir. Turizm infrastrukturu, xüsusən, yerləşmə və nəqliyyat vasitələri turizm marşrutu boyunca mühüm şərtlərdəndir. Belə ki, rekreasiya məqsədli turlar zamanı

marşrut boyunca zəruri olan dayanacaqlar, onlar arasındakı məsafəyə görə nəqliyyat imkanları turizm marşrutlarının cazibədarlığını artırır, daha da imkanlı edir.

İnformasiya təminatı amili turistlərin marşrut boyu keçəcəyi məntəqələr, onların sosial-iqtisadi inkişaf səviyyəsi, marşrut boyunca keçirilən ekskursiya müddətində onları gözləyən hava şəraiti, yol-naviqasiya şəraiti, hədiyyəlik əşyalar satılan yerlər, çay-kofe fasiləsi yerləri, turizm informasiya mərkəzləri, avtomobil kirayə məntəqələri, motellər, yanacaq doldurma məntəqələri barədə məlumatlar hesab olunur.

Nəqliyyat amili ekskursiyalar zamanı marşrutun daha rahat, bəzi hallarda isə daha ekzotik ola bilməsi üçün böyük əhəmiyyət daşıyır. Nəqliyyat vasitələrinin kütləvi turizm üçün istifadə imkanları və komfortu əsas ekskursiya şərtlərindəndir.

İstehlakçı davranışları amili turizm marşrutu boyunca turistlərin zəruri servis xidmətlərinə, komfort ehtiyaclarına olan tələbkarlığı, dil bilmə, piktoqramları başa düşmə, ailə tərkibinə, ailədəki uşaqların sayına və turistlərin xərcləməyə olan meylinə görə müəyyən olunmalıdır.

Moda və zövqlərdəki dəyişiklik insanın mədəni səviyyəsini müəyyən etməklə turizm sənayesinin, eləcə də turizm marşrutlarının layihələndirilməsinə də təsir edir. Turistlərin ölkə mənşəyi, onların modaya münasibəti nəzərə alındığında seçilmiş turizm marşrutları üzrə xidmətlər daha səmərəli olur.

Turizmin inkişafına təsir edən sosial amillərdən biri olan asudə vaxt imkanları da turizm marşrutlarının yaradılmasına təsir edən mühüm amillərdəndir. Asudə vaxtın əldə olunması vasitəsi kimi iş vaxtının qısaldılması və haqqı ödənilən məzuniyyətlərin verilməsini qeyd etmək olar. Məhz asudə vaxtın əldə olunması ilə insanların ən mühüm ehtiyaclarından biri olan istirahət və rekreasiya tələbatının ödənilməsi imkanları yaranır.

Asudə vaxtdan səmərəli istifadə qaydaları turizmin inkişafında mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə isə asudə vaxtın kiçik hissələrə bölünməsi və səyahətlərin qısamüddətli dövr üçün təşkili daha geniş yayılmışdır. Belə təşkil olunmuş turizm səyahətləri həm turistlərin özləri üçün həm də turizm fəaliyyətini təşkil edən firmaların işi üçün faydalıdır.

İnsanlara asudə vaxt imkanı yaradan amillərdən ilk olaraq elmi-texniki tərəqqini göstərmək olar. Bunun nəticəsində fiziki iş qüvvəsinin əhəmiyyəti azalır, əvəzində isə zehni əmək daha da artıq əhəmiyyət kəsb etməyə başlayır. Zehni əməyin artması ilə işdə və məişətdə yaranan stressli vəziyyət fiziki və psixoloji enerjinin itirilməsi ilə nəticələnir ki, burada turizm ən yaxşı bərpaedici rekreasiya vasitəsi kimi özünü göstərir.

Müasir turistlərin təqdimatına verilən turizm məhsulu bir çox xidmətlərdən ibarətdir. Yerləşdirmə, nəqliyyat, qida, əyləncə, animasiya kimi əsas və əlavə xidmətləri özündə birləşdirən turizm məhsulu onları istehsal edən ayrı-ayrı firmaların müəyyən təşkilati işləri yekunlaşdırmasından sonra son istehlakçılar olan turistlərin tələbatlarını ödəyə bilir. Bütün bu işləri isə yuxarıda qeyd etdiyimiz və bir-birlərindən asılı olmayaraq və yalnız bir-birləri ilə rəqabət halında olan firmaların işini əlaqələndirən turoperatorlar həyata keçirir. Başqa sözlə turoperatorlar bu sahədə ciddi funksiyaya malikdirlər.

Turizm sənayesinə daxil olan çox sayda iştirakçının bir-biri ilə inteqrasiya əlaqəsinə çox ehtiyacı vardır. Lakin bu əlaqə dövlət tənzimlənməsi yolu ilə çox da mümkün olmadığından təşkilati turizmə keçid üçün turoperatorlar kimi vasitəçiyə həmişə ehtiyac duyulur. Tarixdə ilk təşkilati turlar olan Tomas Kukun səfərlərindən başlayaraq bu günə qədər məhz turoperator fəaliyyəti ilə təşkilati turizm məsələləri həll olunur. Turoperatorluq turizmin təşkilini, turizm məhsulunun satışını,

turizm məhsulunun marketinqini həyata keçirən xüsusi sahibkarlıq növüdür. Bu fəaliyyət elə bir məqamda yaranır ki, xidmət istehsalçıları olan sahibkarlar turizm bazarına təkliflər etdikdə, bu xidmətləri alıb istifadə edə biləcək turistlər mövcud olduqda və həmin xidmətlərin istehsalçıdan alınıb turistlərə sata bilmək üçün bazar imkanları və qanunvericilik bazası mövcud olduqda turoperatorluq üçün də əlverişli şərait yaranır.

Turizm xidmətlərinin tarixi inkişaf yoluna və onların xüsusiyyətlərinə baxdıqda görürük ki, bir-birindən asılı olmayaraq yaranan servislər məhz turoperatorun təşəbbüsü ilə turistlər üçün əlverişli olur və onların səyahətləri zamanı təhlükə və risklər daha az, gözlənilən müsbət təəssürat isə daha çoxdur.

Öz təbiəti etibarı ilə turizm kifayət qədər böyük risk sahəsidir. Bu risklər həm səyahətlərin məzmunu, səyahətlər zamanı göstərilən servislərin çeşidi və həm də servis göstərən firmaların təsərrüfat əlaqələrinin kövrək olması ilə bağlıdır. İqtisadiyyatın başqa sahələri ilə müqayisədə turizm elə bir sahədir ki, burada həmin risk yaradan amillər daha çoxdur. Buna görə də turizm məhsulunun bitkin ola bilməsi üçün həmin saydığımız servis subyektləri ayrılıqda bütün risklərə hazır ola bilmirlər.

Turizmin təşkilati problemləri kimi tanıdığımız bu məsələlər xüsusi bir sahibkara həvalə olunduqda bu, turizmin kütləvi hala gəlməsinə, turizm məhsulunun çeşidlənməsinə, turist göndərən tərəflə qəbul edən tərəf arasında etibarlılığın təmin edilməsinə və beləliklə, turizm sektorunun daha çox şaxələnib iqtisadiyyatın əksər sahələrini əhatə etməsinə imkan yaradır.

Turizm marşrutlarının hazırlanmasında turizm fəaliyyətinin təşkilatçılarının qarşısında ilkin şərtlər kimi mühüm vəzifələr dayanır. Bu şərtlər aşağıdakılardır:

1. Hüquqi;
2. Təşkilati;

3. Texniki;

4. Kadr;

5. İnfrastruktur təminatı.

Belə ön şərtlərin yerinə yetirilməsi, habelə regionun milli qonaqpərvərlik səviyyəsinin mövcudluğu turizm marşrutlarının hazırlanması üçün də çox vacibdir.

Bunlara geniş şəkildə baxaq.

Hüquqi şərtlər. Hüquqi şərtlərin təmin olunması turizm marşrutu üzrə göstəriləcək xidmətlərin, habelə turizm marşrutunun özünün ölkənin milli maraqlarına uyğun gəlməsi, qanunvericiliyə zidd olmaması və beynəlxalq hüquqda mübahisə və münaqişə doğurmayacaq səviyyədə bitkin olması deməkdir.

Təşkilati şərtlər. Təşkilati şərtlər hər bir işin, o cümlədən turizm marşrutlarının hazırlanmasının ən mühüm hazırlıq mərhələlərindəndir. Bu, marşrut üzrə ideya müəllifinin fikrini dəstəkləyən ekspertlərin tapılması, zəruri informasiya verəcək mənbələrin əldə olunması, bu informa-siyaları işləyəcək mərkəzin yaradılması, bu mərkəz üzərində funksional vəzifələri bölüşdürmək kimi məsələləri əhatə edir.

Texniki şərtlər. Turizm marşrutlarının hazırlanması heç də asan olmayıb kifayət qədər çox sayda informasiyanın alınması, saxlanılması, habelə marşrut üzrə resursların yerində öyrənilməsi və marşrutu hazırlayan şəxsin və yaradıcı komandanın normal fəaliyyəti üçün ofisin olmasını tələb edir. Belə texniki şərtlər kompüter və ofis texnikası, nəqliyyat vasitələri, foto və video avadanlıqlar və s. ola bilər. Bundan başqa hazırlıq mərhələsində istifadə olunan xüsusi geyimlər, texnikalar, vasitələr və sair də texniki şərtlərə aid edilə bilər.

Kadr şərtləri. Kadrlar bütün fəaliyyət sahəsində, o cümlədən turizm marşrutlarının hazırlanmasında ən vacib şərtlərdəndir. Belə ki, mükəmməl hazırlanmış turizm marşrutları tamamən düşüncə məhsuludurlar. Başqa sözlə, turizm marşrutları yüksəkixtisaslı kadrların əməyi nəticəsində

zərf halına salınmış və turistlərin rahatlıqla və maraqla istifadə edəcəyi bir məhsuldur. Kadrlar kimi turizm mütəxəssisləri, texniki işçilər, asistentlər, bələdçilər ola bilər.

İnfrastruktur təminatı. İnfrastruktur hər cür funksional fəaliyyəti dəstəkləyən köməkçi sistemdir. Turizm marşrutlarının hazırlanmasında buna ərazi təminatı, istehsal və ticarət imkanları, bazar infrastrukturu, habelə sosial-mədəni xidmətlərin səviyyəsini müəyyən edən sosial infrastruktur daxildir.

Bütün bu sayılanların hamısı ilkin şərt kimi təmin olunduqda turizm marşrutlarının hazırlanması, onların layihələndirilməsi mərhələsinə keçmək mümkündür.

### *4. Naxçıvan Muxtar Respublikasının turizm marşrutları və yaranması amilləri*

Naxçıvan Muxtar Respublikasında turizm marşrutlarının yaradılması bu qədim Azərbaycan torpağının tarixi inkişaf mərhələsində, xüsusən ölkəmizin müstəqillik dövründə keçdiyi hərtərəfli inkişafın məntiqi nəticəsidir. Diyarımıza olan turist marağının sürətlə artması və regiona səyahət edən turistlərin müsbət təəssüratları burada çox sayda turizm marşrutlarının yaradılması üçün ilkin zəmin yaradırsa, əslində, turizm marşrutlarının formalaşması üçün baş verən tarixi proseslər, sosial-iqtisadi inkişaf, yerli əhalinin məşğuliyyəti və turizmin bir fəaliyyət növü olaraq bütün dünyada olduğu kimi ölkəmizdə və eləcə də Naxçıvan Muxtar Respublikasında yayılması bu sahədə obyektiv zərurəti ortaya qoymaqdadır. Başqa sözlə, Naxçıvan Muxtar Respublikasının turizm marşrutları təkcə hər hansı istiqamət üzrə insanların sadəcə səyahəti deyil, ölkəmizdə və eləcə də bütün dünyada adı ilə tanınan, özünün cazibədarlığı və təhlükəsizliyi ilə seçilən istiqamətlər halına gəlib. Bu marşrutlar üzrə Naxçıvana səyahət edən turistlərin ölkə mənşəyinə nəzər saldıqda Yeni Zelandiyadan Kanadaya, Kolumbiyadan İsveçrəyə qədər geniş

coğrafiyanı görmək olar. Bu qədər turistin Naxçıvana səyahətinin motivləri ilə maraqlandıqda isə olduqca rəngarəng mənzərə ilə rastlaşmaq mümkündür.

Dünya turistləri hazırda Naxçıvana əsasən iki istiqamətdə — ölkəmizin paytaxtı Bakı şəhəri və qardaş Türkiyə Respublikası vasitəsilə gəlirlər. Qonşu İran İslam Respublikası və Rusiya Federasiyasının paytaxtı Moskvadan da birbaşa olaraq Naxçıvana gələn əcnəbi turistlərin sayı artmaqdadır. Azərbaycanla qonşu olan ölkələrdə getmə turizm potensialının artması və gəlmə turizm üzrə viza sadələşdirmələri də gələn turistlərin sayının çoxalmasına öz təsirini göstərir. Muxtar respublikada turizmin inkişafı ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər, dünya standartlarına uyğun turizm infrastrukturunun yaradılması, sosial-mədəni sahələrdə komfort şəraitinin yüksəlməsi və əhali tələbatlarında turizm-rekreasiya xidmətlərinin xüsusi yer tutması turizmin bir sistem kimi iqtisadi və sosial həyatda özünə yer tutmasına gətirib çıxarıb. Bir vaxtlar, yəni sovet hakimyyəti dövründə keçmiş ittifaqın kapitalist ölkələri ilə sərhədyanı bölgəsi kimi xarici turistlərin üzünə bağlı qalmış Naxçıvana xarici turistlərin səyahəti ilə yanaşı yerli əhalinin də asudə vaxtını daha mənalı keçirməsi istəyinin artması regionda turizm marşrutlarının yaradılmasına yeni yanaşmaları şərtləndirir.

Turizm marşrutları yaradıcı bir fəaliyyətin bəhrəsidir. Bununla yanaşı turizm marşrutlarının mövcud turizm ehtiyatlarının regionun sosial-iqtisadi inkişafı və mövcud infrastruktur şəraiti ilə birlikdə qiymətləndirilməsi nəticəsində yaranmasını da qeyd etmək lazımdır. Naxçıvan Muxtar Respublikasının mövcud turizm ehtiyatlarının turizm marşrutları məqsədiə istifadəsi üçün tələb olunan şərtlərin buradakı bütün turizm potensialının intellektual beyin gücü tərəfindən istifadə olunması ilə birbaşa bağlı olduğunu da göstərmək olar. Muxtar respublikada turizmə marağın artması, 2004-cü ildən başlayaraq Naxçıvan Dövlət Universitetində və

2014-cü ildən "Naxçıvan" Universitetində turizm üzrə ali təhsilli mütəxəssislərin hazırlanması, turizmin inkişafı üçün ali səviyyədə muhum dövlət qərarlarının qəbul olunması yeni turizm marşrutlarının yaranmasına və mövcud marşrutlara olan tələbin artmasına səbəb olmuşdur. Nəticədə son illərdə muxtar respublikada yaranan turizm şirkətləri naxçıvanlıların asudə vaxtının mənalı keçirilməsi üçün getmə turizmlə yanaşı həm də ölkəmizin paytaxtından və xarici xarici ölkələrdən də turist gətirilməsi sahəsində də yüksək fəallıq göstərməyə başladılar.

Turizm marşrutları turistlərə təklif olunan turların daha məzmunlu keçməsi üçün əsas şərtlərdən biridir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında turistlərə təklif olunan turlar zamanı turistlərin asudə vaxtının səmərəli təşkili və iqtisadi cəhətdən sərəfli olması üçün əsas diqqətin səfərə gələn turistlərin səyahət motivlərinə yönəldilməsi, bu zaman ölkə mənşəyi və turistlərin regionda qalma müddətlərinin də nəzərə alınması tələb olunur. Muxtar respublikada turizm ehtiyatları rəngarəng olduğundan bu motivlərin də müxtəlif olması gözlənilləndir.

Turizm xidmətləri zamanı müasir turistlərin rasional davranışlarını, onların ödədikləri pul vəsaitinə görə daha çox rekreasiya, tanışlıq və əyləncə servisləri almaq istədiklərini həmişə nəzərə almaq lazımdır. Xüsusən, konkret turizm marşrutları üzrə turların təşkili zamanı turistlərin keçirdikləri asudə vaxtın düzgün tənzimlənməsi və təklif olunan servislərin, yaxud asudə vaxt tədbirlərinin bir-birini məntiqə və tələbata uyğun şəkildə izləməsinə ciddi yanaşmaq tələb olunur. Bu, Naxçıvan Muxtar Respublikasındakı turizm marşrutları boyunca turistlərin keçirdiyi asudə vaxtın daha bənzərsiz şəkildə təşkilinə imkan yaradır. Naxçıvan şəhərindən başlayraq istənilən istiqamətlər üzrə səyahətlərin bir gün ərzində başa çatdırılması, yol, nəqliyyat, mobil rabitə infrastrukturunun yüksək səviyyədə olması, yerli əhalinin də istfadə etdiyi sosial infrastruktur sahələrinin inkişaf səviyyəsinin turistlərin də

istifadəsi üçün çox əlverişli olması bu baxımdan müsbət faktorlardandır. Ayrıca olaraq, təhlükəsizlik faktoruna baxdıqda müasir dünyada turistlərin, ümumiyyətlə, səyahətə çıxan hər bir şəxsin öz evinə sağ-salamat qayıtmasının onun ən gözəl arzusu olduğunu yada saldıqda, bu faktorun nə qədər əhəmiyyətli olduğunu görərik. Naxçıvan səyahət edən turistlərin bu barədə bəxtinin gətirdiyini, indiyə qədər regiona səfər edən turistlərin heç bir ciddi xoşagəlməz hal, yaxud qəfil bədbəxt hadisə ilə rastlaşmamasını həm regionun turizm imici, həm də turistlərin rahat səyahəti baxımından olduqca üstünlük vəd etdiyini deyə bilərik.

Naxçıvanın qədim tarixi qədər onun bu günü də özünəməxsus turizm cazibəsinə malikdir. Xüsusən turistlərin səfər təəssüratlarının öyrənilməsi onu göstərir ki, Azərbaycanın bu sakit guşəsində zamanın necə surətlə keçdiyini duymaq çətindir. Naxçıvanın təbii ahəngi ilə tanış olan turistlər burada rast gəldiyi hər bir insanın həyata baxışları, yurd sevgisi və qonaqpərvərliyini gördükdə ümumilikdə Şərq dünyası haqqında yeni təsəvvürlər əldə edirlər. Buraya səyahət edən turistlərin diqqəti ilk olaraq yerli əhalinin həyat tərzi, onların bir-birindən çox fərqlənməyən yumşaq davranşları və insanların bir-birinə qarşlıqılı hörməti cəlb edir. Yol hərəkəti zamanı, ictimai yerlərdə, alış-verişdə və yaxud məclislərdə naxçıvanlıların göstərdiyi tolerant və humanitar davranışlar buraya səyahət edən bütün insanlarda pozitiv təəssüratlar formalaşdırır. Bundan əlavə, yerli sakinlərin ictimai məkanların, yolların və bütün ərazinin təmizliynə göstərdiyi həssas münasibət, istehlak zamanı qənaətcillik kimi yüksək mədəni keyfiyyətlər də buraya səyahət edən turistlərin diqqətindən qaçmır. Müxtəlif servis xidmətlərinin göstərilməsində, alış-verişdə turistlərin rastlaşdığı bütün insanların nümayiş etdirdiyi dürüslük bu mənada naxçıvanlıların illər ərzində formalaşdırdığı ən yüksək mədəni dəyər kimi turistlərin də rəğbətini qazanır. Nəzərə almaq

lazımdır ki, turistlər istənilən halda onlar üçün yad olan bir məkandadırlar və buna görə də satın aldıqları hər bir xidmət və yaxud mal üçün dəqiqlik və dürüstlük görmək istəmələri onlar üçün adi tələbatlardandır.

Naxçıvan təbiəti rəngarəng və özünəməxsus xüsusiyyətləri ilə zəngindir. Burada Baltikyanı dövlətlər kimi okean sahilləri boyunca yerləşən ölkə sakinlərinin çox görmək istədiyi unikal vulkanik dağ landşaftı mənzərələri, İsveçrə kimi yaşıllıq və göllər ölkəsi vətəndaşlarının maraqla tamaşa etdiyi Duzdağ və onun ətrafının boz çöllükləri, Moskva, İstanbul yaxud Bakı kimi havası çox ağır olan şəhərlərdən gəlmiş turistlərin ciyər dolusu nəfəs aldığı quru, təmiz hava, dünyanın hər yerindən gəlmiş turistlərin böyük marağına səbəb olan mineral su qaynaqları, düzənlik relyefə malik ölkələrin vətəndaşlarının həmişə maraqla izlədiyi panoramik dağlıq mənzərələr kifayət qədərdir. Naxçıvanın kəskin kontinental havasının yaratdığı qızmar yay və soyuq qış bəzən turistlərin səyahəti baxımından mənfi faktor kimi qiymətləndirilsə də nəzərə almaq lazımdır ki, Skandinaviya ölkələrin vətəndaşlarının əsas turizm motivindən biri olan parlaq Günəş məhz Naxçıvandadır. Odur ki, Naxçıvanın ilin az qala 6 ayı qızmar Günəşli günlərinin də şimallı turistlər üçün turizm resursu kimi istifadə olunması unikal məzmunlu turların təşkili baxımından uğurlu biznes ideyalarındandır.

Naxçıvan torpağı çox təmiz və şəfalıdır. Bu torpaqda müxtəlif xəstəliklərin dərmanı olan və dünyada analoquna çox az rast gəlinə bilən olduqca zəngin mineral ehtiyatlar, təbii zənginliklər vardır. Naxçıvana səyahət edən turistlər burada milyon il əvvəlki kimi təmiz vəziyyətdə qalmış daş duz ehtiytaları, unikal kimyəvi tərkibli mineral su mənbələri və dünyanın çox az yerində Naxçıvandakı kimi bir arada rast gəlinə bilən dərman bitkiləri görürlər. Eyni zamanda Naxçıvan torpağı, buradakı insanların xoş qonaqpərvər xüsusiyyətləri,

səyahət edən turistlər üçün fiziki sağlamlıqla yanaşı heç zaman unuda bilməyəcəkləri mənəvi saflıq bəxş edir.

Naxçıvan bəşəriyyətin ikinci atası olan Nuh Peygəmbərin vətəni, müqəddəslər torpağıdır. Burada yaşayan insanların sahib olduğu inanclar, milli-mənəvi dəyərlərə sadiqlik kimi yüksək mənəviyyat bu torpağın sakinlərində həmişə yüksək əhvali-ruhiyyə formalaşdırır. Qədim Naxçıvana gələn turistlər burada yaşayan uzunömürlü insanların keçirdiyi həyat tərzi, orqanik qida məhəsullarına olan meyli, onların su yaddaşından qaynaqlanan yerli məhsullara olan bağlılığını öz gözləri ilə görürlər. Başqa sözlə, Naxçıvanda turistlərə təklif olunan xidmətlərdən istifadə edən turistlər onların zehnində toplanmış hər cür neqativ enerjidən azad olur, onlarda həyata yeni baxış formalaşır. Odur ki, Naxçıvanda formalaşan turizm marşrutlarına maraq göstərən turistlərə ilk olaraq onların dünyanın başqa yerlərində rast gələ biləməyəcəyi belə məqamları təqdim etməyi hökmən nəzərdə saxlamaq lazımdır.

Müasir turizmin tipologiyası ötən əsrin 70-80-ci illərinin turizmindən çox fərqlənir. Bu mənada, Naxçıvana səyahət edən turistlər burada ənənəvi aktiv turizm tədbirlərinin yerinə daha çox qeyri-adi və yaxud turistlərin başqa yerlərdə az görə biləcəyi turist marağı obyektlərinə rast gələ bilirlər. Bu mənada, Naxçıvanın mövcud turizm marşrutları üzrə səyahətlər zamanı LLL (Land, Lore, Leisure), yaxud EEE (Earth, Extreme, Enjoyment) formulu üzrə turların təşkili daha böyük maraq doğurur ki, bu da bütövlükdə regionun turizm cazibədarlığını ortaya qoyan mühüm amillərləndir. Nəzərə almaq lazımdır ki, rəsmi statistikaya görə hazırda dünyada sayı 1 milyard 200 milyon nəfərə çatan müasir turistlər öz dünyagörüşünü artırmaq üçün vəsait xərcləməyə xəsislik etməyən və buna görə də daha çox tələbkar olan mədəni insanlardırlar. Buna görə də onların planetin istənilən nöqtəsində tapa bildiyi qeyri-adi maraq obyekti onlar üçün əslində yeni dünyaların kəşfi dəyərindədir.

Naxçıvan Muxtar Respublikasında turizm marşrutlarının fomalaşması, heç şübhəsiz turizmin inkişafına göstərilən dövlət qayğısı olmadan mümkün deyildir. Turizmin dünyada və ölkəmizdə yeni bir biznes sahəsi olmasını nəzərə alsaq, regionumuzda turizmin inkişafı üçün həyata keçirilən tədbirləri bu vacib sahədən arzuedilən nəticələri əldə etmək baxımından çox əhəmiyyətli olduğunu görmək olar. Belə ki, 2016-cı ilin mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirədə turizmin inkişafı üçün sahib olduğumuz potensialdan daha səmərəli istifadə olunması və güclü təşviqat mexanizminin qurulması, Naxçıvana səfər edən hər bir turistin bölgədə rahat səyahət etməsi, sərbəst əylənib alış-veriş etməsi, təbii və tarixi-mədəni maraq obyektləri ilə yaxından tanış ola bilməsi üçün lazımi şəraitin və xidmətlər zərfinin yaradılması tapşırığı verilmişdir. Muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsi, yaradılmış elektron resursların populyar sosial şəbəkələr vasitəsilə paylaşılması, gənclərin sosial şəbəkələrdə muxtar respublikanın turizm potensialının təbliğində fəallığının artırılması, muxtar respublikada turizm sahibkarlığının inkişaf etdirilməsi, özəl sektor tərəfindən real təkliflər ortaya qoyulması, ölkəmizdə və xaricdə təşkil olunan müxtəlif sərgilərdə Naxçıvanın turizm potensialının nümayiş etdirilməsi və digər mühüm tapşırıqların icrası nəticəsində bu gün gəlmə turizm sahəsində əldə olunmuş nəticələr ildən-ilə artmaqadır. Bütün bunlar isə, şübhəsiz turizm marşrutlarının daha da təkmilləşməsinə və burada turistlərə təklif olunan xidmət zərfinin keyfiyyətinin artmasına təkan verən amillərdəndir.

## II FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏSAS TURİZM MARŞRUTLARI

### *1. Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu*

İnanc və dərketmə tələbatı baxımından uzaq səfərlərə yollanmaq tarixən ən qədim səyahət növlərindən biridir. Belə ki, insanlar min illərdən bəri müqəddəs ziyarətgahlara etdikləri səfərlərlə dünyadakı ən savab işlərdən onlara da pay düşdüyünə inanmışlar. Bu mənada, Naxçıvanın dünyada tanınmış müqəddəs Əshabi-Kəhf ziyarətgahı marşrutu üzrə səyahət edən zəvvarların əsl motivi ülvi hisslərlə yaşayıb, mənəvi zənginləşməkdir. Duaların Allaha çatdığı yerdə, peyğəmbər ayağının toxunduğu torpaqda inanclarına qovuşub Uca Yaradana xitab etmək istəyənlər üçün, Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu Naxçıvana səyahət edən bütün turistlərin həvəslə seçdiyi marşrutdur.



Naxçıvanın turizm ehtiyatları arasında müqəddəs Əshabi-Kəhf ziyarətgahının xüsusi yeri vardır. Bu xüsusiyyətlər turizm marşrutları qarşısında qoyulan ümumi tələblər və onların elmi-nəzəri və metodoloji cəhətdən əsaslandırılması baxımından Naxçıvan-Əshabi-Kəhf turizm marşrutuna da öz təsirini göstərir. Çünki, bu müqəddəs məkan

dünyanın elə bir nöqtəsində yerləşir ki, o sanki bütün inanc sahiblərini həyatın əbədi olaraq var oluşuna bir daha inandıra biləcək gücdədir. Daş mağarada Uca Haqqın ədalətinə sığınıb, ondan mərhəmət gözləyənlər, sonsuzluq qavramını hardasa Kainatın dərinliklərində deyil, evimiz Yerdəki təbiət möcüzəsində axtaranlar üçün Nuh tufanı qədər qədim Naxçıvanın müqəddəs Əshabi-Kəhf ziyarətgahı hamının axtardığı bir yerdir.



Əshabi-Kəhf ziyarətgahı haqqında dini-tarixi mənbələr, elmi araşdırmalar kifayət qədərdir. Ziyarətgahın turizmi resursu kimi tanıtımına da xüsusi ehtiyac yoxdur. Bu müqəddəs məkan Naxçıvanın Batabatı və Ordubadı ilə birgə hələ çox onillər öncəsindən məşhurlaşaraq Naxçıvanı dünyada tanıdan simvollardan birinə çevrilmişdir. Keçmişdəki sovet rejiminin qadağalarına da baxmayraq Əshabi-Kəhfə edilən ziyarətlər heç kəsilməmiş, insanlar ürəyinin hökmü ilə paklığına inandığı hansı əməl varsa onu yerinə yetirmək inadından dönməmişdir. Müstəqil ölkəmizdə isə müqəddəs Əshabi-Kəhf ziyarətgahı da azad ölkənin azad inanc sahibi olan insanları ilə bərabər bütün dünyanın zəvvarlarının və muxtar respublikamıza səfər edən qonaqların ziyarətinə tam açıqdır.

Naxçıvan-Əshabi-Kəhf turizm marşrutunu işləyib onu turist qruplarına təklif etmək bir tərəfdən çox asan olsa da

məsələnin bütün tərəfləri nəzərə alındıqda çox mürəkkəb və məsuliyyətli işdir. Söhbət heç də Naxçıvan şəhərindən təxminən 21 kilometr məsafədəki bir məkana klassik turizm formulu ilə desək “yemək, yataq, nəqliyyat və ekskursiya” formulu əsasında turistlərin səfərlərinin təşkilindən getmir. Dünyada mövcud olan təcrübəni nəzərə alsaq, bugün ziyarətgah istiqamətində hərəkət edən turistlərin motivlərini, xarici turistlərin ölkə mənşəyini, onların ziyarətdən başqa əlavə xidmətlərə olan tələbatlarını düzgün qiymətləndirmək, Naxçıvanda olduqları müddətdə onların asudə vaxtlarını mənalı təşkil etməkdir. Çünki Əshabi-Kəhf ziyarətgahı Naxçıvan şəhərinə çox yaxın və oraya gediş-gəliş şəraiti çox rahat



olduğundan buraya təşkil olunacaq ziyarəti bir neçə saatda da tamamlamaq mümkündür. Ancaq Naxçıvana yüzlərlə və hətta minlərlə kilometr yol qət edərək gəlmiş zəvvarların bu diyarda heç olmasa 2-3 günlüyə qalmaq niyyətləri vardır.

Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu üzrə hərəkət edən turistlərin ilk qarşılancağı yer muxtar respublikamızın giriş qapılarıdır. Bu istər Naxçıvan Beynəlxalq Hava Limanı, istərsə də muxtar respublikanın Sədərək və ya Culfa gömrük-

keçid məntəqələrindən biri ola bilər. Ümumiyyətlə, əgər təkcə hava yolu seçilərsə, ölkəmizin Bakı və Gəncə şəhərlərindən başqa, İstanbul və Moskva şəhərlərindən də turistlər gətirilə bilər. Belə ki, Naxçıvana bir saatlıq uçuşla 4-5 ölkədən, iki saatlıq üçüşla isə 20-dən artıq ölkədən turistlər cəlb etmək mümkündür. Zəvvarların qarşılanması və onların əvvəlcədən rezervasiya olunmuş otelə transfer edilməsi turun ilk gününün proqramında əsas yeri tutur. Transferdən sonra oteldə yerləşdirilmiş turistlərə təqdim olunan qısa şəhər turunun ardından əsas destinasiyaya, yəni Əshabi-Kəhfə səfər vardır. Qeyd edək ki, bu, turistlərin seçiminə görə bir, yaxud iki günlük bir vaxt apara bilər. Əgər qrupda ahıllar və uşaqlar da varsa onda ilin fəslinə görə səfər günortaya qədər, yaxud günortadan sonra yarımgün müddətinə planlaşdırılmalıdır. Bu məqamda Əshabi-Kəhfə özü müstəqil səfər edən insanları və yerli əhalinin də axınını hökmən nəzərə almaq lazımdır. Bu ziyarətgahda insanlara lazım olan tələbatlar normal səviyyədə odənilsə də hər halda adamların ziyarət əsnasında çox sıxlıqdan əziyyət çəkdiyi də nəzərə alınmalıdır. Orta yaşlı insanlara isə bütün gün ərzində ziyarətgahda qalıb istəklərinə görə ziyarət əməllərini də yerinə yetirmələri təklif oluna bilər.

Naxçıvanda ən müqəddəs yerlərdən sayılan Əshabi-Kəhfə inam olduqca güclüdür. Hər il buraya on minlərlə zəvvar və tanışlıq məqsədli turist səfər edir. Ziyarətgah Naxçıvan şəhərinə yaxın məsafədə, təbii mağarada yerləşir. Girişi cənubdan başlanan mağara şimal istiqamətdə, dağin içərisinə doğru uzanıb gedir. Mağaraya yaxınlaşan zəvvarlara buradakı yerli əhali arasında yayılmış və bir sira qaynaqlarda əksini tapmış rəvayət haqqında məlumat verilir. “Allahdan üz çevirib bütlərə tapınan Dağ Yunis adlı hökmdarın zülmünə dözə bilməyən vəzir Təmirxan tək Allahlıq inancında olan bir neçə dostu ilə zülmdən qurtulmaq üçün dağlara sığınmaq və başlarına çarə qılmaq istəyi ilə şəhərdən qaçırlar. Yolda hökmdarın çobanına rast gəlirlər. Vəziyyəti öyrənən çoban da

zülmdən cana gəldiyini və ümidini tək Allaha bağladığını bildirərək, onlara qoşulur. Bu vaxt çobanın iti də ardınca gəlir. İtin səs salıb onların yerini bildirəcəyindən qorxuya düşürlər. Çoban iti heç bir vasitə ilə qova bilmir, vurub ayağının birini sındırır. Bir azdan baxırlar ki, it yenə gəlir. Çoban onun ikinci ayağını sındırdıqda it insan kimi dil açıb zülmdən qaçdığını bildirir və ölür. Çoban onu mağaranın girəcəyindən bir az aralı, hazırda "Qitmir" adlanan yerdə basdırır və çomağını taxır üstünə. Bundan sonra qaçıb, yaxınlıqdakı mağaraya sığınırlar. Onları dərin yuxu aparır. Oyandıqdan sonra acdıqlarını hiss edərək vəziyyəti öyrənmək və çörək almaq məqsədilə vəziri şəhərə göndərirlər. O, pul verib çörək almaq istəyərkən yaxalanır. Ondan soruşurlar ki, bu pullar hardandır? Xəzinə tapmısan? O, isə inandırmağa çalışır ki, pullar kimsənin deyil, onları dünən şəhərdən çıxarkən özü ilə götürmüşdür. Onu başa salırlar ki, bu pullar üç yüz il bundan əvvəl hökmdarlıq etmiş Dağ Yunisə aiddir.

Burada bir möcüzə olduğunu bilən vəzir başına gələnləri danışdıqdan sonra maraqlanan insanlar mağaraya doğru axışırlar. Vəzir yoldaşlarının bundan qorxuya düşəcəklərini bilərək onları xəbərdar etmək üçün qaçaraq mağaraya gəlir. Baş vermiş möcüzəni bildirir. Hər biri əl qaldırıb Allahdan qeyb olmalarını diləyirlər. Allah onların səsini eşidir, hər biri qayaya söykəndikləri kimi də yox olur. Mağaraya daxil olanlar burada onların izlərini tapırlar və o zamandan mağara ziyarətgaha çevrilir".

Əshabi-Kəhfə ziyarətə gələn zəvvarlar bilməlidrlər ki, xalq arasında yayılan bu rəvayət müəyyən dəyişikliklərlə müxtəlif qaynaqlarda da öz əksini tapmışdır. Belə ki, bir rəvayətə görə, Əhli-Beytin atası, həzrəti Əli Əshabi-Kəhfi ziyarət etmiş, namaz qılmış və onun atı Düldülün ayaq izi qayada qalmışdır.

Burada turistlərə Əshabi-Kəhf rəvayəti ilə bağlı ilk və əsas mənbə olan müqəddəs "Qurani-Kərim"in on səkkizinci

“Kəhf” surəsi xatırladılır. Burada zülmdən qaçma, Allahın onları hidayət və xilas etməsi verilmişdir. Ayədə mağaranın quruluşu ilə bağlı xəbər diqqəti xüsusi olaraq cəlb edir. Çünki dünyanın bir sıra bölgələrində “Əshabi-Kəhf” adı ilə tanınan mağaralar vardır ki, adı “Qurani-Kərim”də keçən mağara olduğu iddia edilməkdədir. Bu məsələ “Qurani-Kərim”in 18-ci surə, 17-ci ayəsində belə açıqlanır: ***“Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyl etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin…”.*** “Qurani-Kərim”dəki bu fikirlər mağaranın Naxçıvanda olmasını sübut edir. Belə ki, Naxçıvandakı Əshabi-Kəhfdə göstərilən cəhətlər “Qurani-Kərim”də qeyd olunanlara üst-üstə düşür. Ziyarətgahın girişində turistlər “Qurani-Kərim”in 18-ci surəsindən ayələr yazılmış lövhə ilə tanış olurlar. Bundan sonra turistlərə bildirilməlidir ki, burada başlıca arqument rəvayətin İslamdan əvvəl baş verməsi, burada qeyb olmuş insanlarda hələ o zamanlar tək Allahlıq inanclarının olmasıdır. Bütün bunlar isə 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı olmuş Naxçıvanda yaşamış insanların minillik dərin inanclarından xəbər verir.

Turistlərə verilən bu məlumatlardan sonra ziyarətgahla tanışlığa başlayır. Burada ilk olaraq turistlər bilməlidirlər ki, ziyarətgah eyni anda yüzlərlə zəvvarın rahat hərəkəti üçün hər cür şəraitə malikdir. Bu ziyarətgahda hələ 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin himayəsi ilə əsaslı bərpa və abadlıq işləri aparılmış, ziyarətçilər üçün lazımı şərait yaradılmışdır. Mağara boyunca səbirlə irəliləyən turist qrupuna ətrafdakı maraqlı yerlər barədə bir-bir məlumat verilir. Təcrübə göstərir ki, ziyarətçilər buraya gələn insanların dəfələrlə səfər etdiyi, qurban kəsib ibadət etdiyi barədə məlumatlara maraqla qulaq asırlar. Turistlərə çatdırılmalı digər bir məqam buradakı ziyarətlərin mövsümdən asılı olmayaraq ilboyu davam etdiyi və Naxçıvana gələn turistlər üçün səyahət proqramının da ilk olaraq adətən buradan

başlamasıdır. Daha sonra zəvvarlar burada saxlanılan meteorit mənşəli qara daşla tanış olub, məsciddə namaz qıla bilərlər. Mağaranın son nöqtəsi olan Damcıxanada zəvvarlar niyyət tutub arzularının çın çıxması üçün dua edirlər. Mağaranın sağ tərəfində Damcıxana ilə paralel şəkildə yerləşən Cənnət bağı adlı digər bir yerə dəmir pilləkələrlə qalxan zəvvarlar burada dörd bir yanı daş olan uca bir məkanda da dua edə bilirər.

Ziyarətin sonunda turistlər Naxçıvanın yerli istehsalı olan qida məhsullarından satın ala bilər, yaxınlarına hədiyyəlik əşyalar seçə bilərlər. Burada zəvvarlara dərman bitkilərindən dəmlənmiş çay da təklif olunur.

Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu üzrə son gün sərbəst gündür. Bu qayda bir çox yerdə də belədir. Sərbəst gün çərçivəsində zəvvar turistlər Naxçıvanın muzeylərinə, hədiyyəlik əşya mağazalarına, bazar və dükanlarına baş çəkmək, Araz çayı mənzərəsini seyr etmək, müxtəlif sosial-mədəni xidmətlərdən istifadə etmək imkanı qazanırlar. Qeyd edək ki, ziyarət turları da daxil olmaqla istənilən turlarda əlavə xidmətlərin göstərildiyi sərbəst gün və saatlar turizmin bölgə iqtisadiyyatına gəlir qazandırması üçün ən yaxşı yoldur.



## *2. Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu*

Naxçıvanda məzuniyyət və istirahət günlərinin ən gözəl vaxtında təbiətin dilbər guşələrindən biri olan Batabat ekoturizm, sağlamlıq və fotoovçuluq turizmi həvəskarları üçün ideal yerlərdən biridir. Odur ki, turizm təşkilatçıları üçün Şahbuzun Batabat yaylağı istiqaməti üzrə Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu boyunca ilin istənilən fəslində turların keçirilməsi çox əlverişlidir.

Naxçıvan şəhərindən şimal istiqamətində, uzunluğu təqribən 65 kilometr olan Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu boyu yola çıxarkən təqdimat əslində ilk dəqiqələrdən başlaya bilər. Belə ki, açıq və şəffaf havalarda Şahbuz yolu üzərində Naxçıvanın simvollarından biri olan Haçadağın, eləcə də onun arxa fonunda Zəngəzur dağlarının ecazkar görüntüsünü görməyə dəyər. Turizm təşkilatçıları bilməlidirlər ki, bu səyahətin əsas motivi Batabat yaylağını görmək olsa da



marşrut boyu Naxçıvanın digər görməli yerlərinin də tanıdılması bu baxımdan əla fürsətdir. Odur ki, hamar yolla irəliləyən turist mikroavtobusunun pəncərəsindən Xalxal meşəsini, Cənubi Qafqazdakı ən böyük Günəş Elektrik

Stansiyasını, Heydər Əliyev Su Anbarını və Şahbuz rayonunun buradan açılan panoramik mənzərəsini görmək üçün turistlərin istəyinə görə yolda qısa fasilələr də vermək mümkündür. Naxçıvanın dünyaca məşhur "Badamlı" mineral süfrə suyunun mənbəyi olan Badamlı kəndinə aparan yol üzərindən keçib Şahbuz şəhərinə daxil olan turistlər burada təbii yüksəklik üzərində ucalan möhtəşəm üçrəngli Azərbaycan bayrağı fonunda da çəkdikləri selfi şəkilləri ilə Naxçıvana səfər təəssüratlarını əbədiləşdirə bilərlər. Daha sonra Batabat yaylağına qədər turistlər Şahbuzun digər bir turizm mərkəzlərindən olan Ağbulaq kəndinə aparan yol ətrafındakı baxımlı təbiət mənzərələrinə də tamaşa etmək fürsəti qazanırlar.

Naxçıvandan Batabat aşırımınadək olan yolla normal sürətlə irəliləyən avtomobillə 60-70 dəqiqəyə mənzil başına çatmaq olar. Ancaq turistləri daşıyan avtomobil, yaxud mikroavtobusun yolüstü təqdimat məqsədilə bu yolu 1,5-2 saat arasında gedəcəyi əvvəlcədən proqnozlaşdırılıb, turistlərə də bu barədə məlumat verilməldir.

Şahbuza gəlmiş turistlər Batabata yaxınlaşdıqca bu rayon haqqında ümumi məlumat verməyin vaxtıdır. Şahbuz Naxçıvan Muxtar Respublikasının şimalında, dağlıq və dağətəyi ərazidə yerləşir. Rayonun demək olar ki, bütün ərazisi bol sulu olub, iti axan dağ çayları və füsunkar təbii yaşıllıqlarla əhatələnmişdir. Havası çox təmiz və yayda sərin, qışda mülayimdir. Rayonda bir şəhər, bir qəsəbə və 22 kənd vardır. Şahbuz şəhəri və Badamlı qəsəbəsi ilə yanaşı Keçili, Kolanı, Kükü, Biçənək, Badamlı, Külüs kəndləri rayonun iri yaşayış məntəqələrindəndir. Bütün kəndlər müasir yol və digər zəruri sosial infrastruktur şəraiti ilə təmin olunmuşdur. Şahbuzu üzük qaşı kimi dövrəyə alan sıra dağların Salvartı, Küküdağ, Keçəldağ kimi hündürlüyü 3 min metrdən yüksək olan zirvələri vardır. Yaşıl libaslı məhşur Batabat meşəsi və gözəl mənzərəli Biçənək dağ aşırımı da Şahbuzdadır. Bu rayon özünün mineral

bulaqları və müalicəvi dərman bitkiləri ilə təkcə ölkəmizdə deyil, bütün Cənubi-Qafqaz regionunda yaxşı tanınır. Dərələyz silsiləsinin cənub yamacları, Küküdağ, Qanlıgöl və Batabatda rast gəlinən çox sayda nadir bitki, kol və ağac nümunələri özünün müalicəvi xüsusiyyətləri ilə hələ onillər öncəsindən ölkəmizdə və xaricdə yaxşı tanınıb. Şahbuzda geniş panoramalı dağlıq relyef, atmosferin təmizliyi və diqqətlə qorunan



biomüxtəliflik burada fotoovçuluğun, elmi-müşahidə turizminin və ekoturizmin müxtəlif növləri üçün geniş imkanlar açır.

Batabat yaylağı Şahbuz Dövlət Təbiət qoruğu ərazisində, Naxçıvandan şimala gedən tarixi karvan yolunun üstündə yerləşir. Batabat yaylağını dəniz səviyyəsindən təqribən 3100-3200 metr hündürlüyü olan Qonaqgörməz, Səbətkeçməz və Bədəldağı adı ilə adlanan dağlar əhatə edir. Əsasən, dağ-çöl və dağ-çəmən landşaftı inkişaf edib. Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı gül-çiçəkli çəmənlikləri, bəlkə də bütün dünyada unikal olan üzən adalı gölləri, saf və təmiz dağ havası, təbii meşələri, Zorbulaq, Durnalıbulaq, Uzunbulaq kimi şirin suları və “Narzan” tipli Batabat mineral suyu ilə məşhurdur. Batabatın iqlimi ağciyər,

ürək, əsəb və digər xəstəliklərin müalicəsi üçün çox münasibdir.

Batabata haqda məlumatları dinləyərək buraya çatmış turistlər füsunkar bir təbiət abidəsi ilə baş-başa qalırlar. Buranın bitki və canlılarla zəngin biomüxtəlifliyi, bir-biri ilə



növbələşən landşaft mənzərələri, Naxçıvanın qədim mədəniyyətlərin kəsişmə nöqtəsi olduğunu sübut edən və bəlkə də dünyanın ən qədim karvansarası kimi bir dəyərə malik Fərhad evi bambaqşa bir kimliyə sahibdir. Onun bu xüsusiyyətlərinin, burada insana şəfa verən otların, çiçəklərin, ağac və kolların hər birinin turistlər üçün ayrıca bir dəyəri vardır. Odur ki, turistləri Batabata gətirmiş tur təşkilatçısı burada yürüş və əyləncə xarakterili tədbirlərlə turistlərin asudə vaxtının mənalı keçməsi üçün müxtəlif ideyalar düşünə bilər. Bu mənada Batabat ekoloqların, təbiət dostlarının, velosiped yürüşü həvəskarlarının, məktəblilərin, fotoovçuların, herbari həvəskarlarının və ya sadəcə turistlərin sevimli məkanı kimi də təqdim oluna bilər. Xüsusən yaz və yay aylarında həftəsonları burada yerli əhalinin ailəliklə çadır qurub istirahət etməsi populyarlıq qazanıb.

Batabata elmi araşdırma məqsədilə səfər edənlər üçün də maraqlı proqramlar düşünmək mümkündür. Belə ki, buranın coğrafi mövqeyi və havanın son dərəcə təmizliyi Batabat



Astorfizika Rəsədxanasında aparılan astrofizik araşdırmalar üçün çox əlverişli imkanlar yaradır.

Batabat mənalı istirahət məkanı olmaqdan əlavə, həm də ekoloji tərbiyə baxımından çox əlverişli yerdir. Burada şəhər əhalisinin təbiətlə ünsiyyətdə olması, uşaq və gənclərdə təbiətin qorunmasına yönəlmiş vərdişlərin aşılanması mümkündür. Batabata gələn məktəblilər üçün burada vəhşi təbiətin mühafizəsi, biomüxtəliflik və digər mühüm mövzularda açıq dərslərin də keçilməsi ola bilər.

Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu üzrə hərəkət edən turistlərin rahat və mənalı istirahəti üçün hər cür sosial-mədəni şərait vardır. Belə ki, yol boyu turistlər Şahbuz şəhərində və İşgəsu restoranında dincələ bilər, Batabatdakı restoranda hər cür yemək sifarişləri edə bilər, dərman bitkilərindən dəmlənmiş ətirli çaylar içə bilərdər. Naxçıvan Muxtar Respublikasının hər yerində olduğu kimi burada da turistlər 4G mobil rabitəsindən və yaxınlıqdakı Biçənək kəndindəki xidmət müəssisələrindən faydalana bilərlər

## *3. Naxçıvan-Əlincə turizm marşrutu*

İstər təbii-rekreasiya, istərsə də tarixi-mədəni turizm ehtiyatları baxımından son dərəcə zəngin olan qədim Naxçıvanda turistlərə təkrarolunmaz təəssürat vəd edən tanışlıq



turları hazırlamaq imkanı vardır. Naxçıvanın qədim Əlincə qalası istiqamətində turistlərə təklif olunan səyahətlər də bu baxımdan öz məzmunu ilə diqqəti cəlb edir.

Naxçıvan şəhərindən şimal-şərq istiqamətində 30 kilometr məsafədə yerləşən Əlincəqala turistlərin birgünlük ekskursiyası üçün çox əlverişlidir. Hazırda fəaliyyət göstərən və il ərzində yüzlərlə xarici turisti və əsasən də gənclərdən ibarət olan minlərlə yerli turisti özünə çəkən Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahətin əsas motivləri turistlərin Naxçıvana gəlişindən xeyli əvvəl formalaşır. Başqa sözlə, indiki informasiya bolluğu şəraitində Əlincə qalası haqqında kifayət qədər virtual məlumat alan turistlərin bu yerlərə gəlməsiylə bu təsəvvürlərin real olması mümkün olur. Bu baxımdan, Naxçıvandan Əlincə qalasının zirvəsinə qədər edilən yürüşlər bir qəhrəmanlıq hekayəsi məzmunu da daşıyır. Odur ki, turistlərə Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahətlər təklif olunduğunda sirlərlə dolu bu qalanın min illərindən süzülüb gələn qədim tarixi, bu tarixi hifz edib saxlamaq, onu gələcək nəsillərə çatdırmaq üçün bu torpaqların

əzəli sahibləri olan azərbaycanlıların yurd sevgisi və qətiyyəti haqqında danışmaq lazımdır.

Əlincə istiqamətində yola çıxarkən ümumilkdə Naxçıvanın tarixi haqqında qısa da olsa ümumi bir icmal verilməsi tələb olunur. Çox tez-tez rast gəldiymiz bir hal vardır ki, bəzi əcnəbi turistlər Naxçıvanın niyə ərazi cəhətdən Azərbaycandan ayrı düşdüyünü, hətta buradakı yerli əhalinin hansı dildə danışdığı kimi bizə primitiv görünən, ancaq onlar üçün maraqlı olan suallar verirlər. Bu da təbiidir. Məsələn, biz özümüz də Aralıq dənizində, yaxud Hind-Çindəki adalardan birinə səyahət edəndə buranın yerli əhalisinin hansı dildə danışdığını maraqlana bilərik. Odur ki, tariximizə dair hətta çox sadə məlumatların turistlərdə qeyri-adi reaksiya doğurmasına təəccüblənməməli, tam əksinə, bunun Azərbaycan haqqında düzgün məlumatların dünyaya çatdırılması üçün bir fürsət kimi dəyərləndirilməsi lazımdır.

Turizm mədəniyyətlərarası dialoqun mühüm vasitələrindən biridir. Təkcə müasir dövrdə deyil, tarix boyunca səyyahların əsas missiyaları dünya xalqlarının mədəniyyəti ilə tanış olmaq, insanların həyatının bütün maraqlı elementlərini öyrənib öz ölkələrinə qayıtmaq olub. Başqa sözlə, səyahətdən nəsə bir şey qazanmaq əsas motiv sayılıb. Bu mənada, tarixi İpək Yolu üzərindəki Naxçıvan öz coğrafi mövqeyi, 5 min illik qədim şəhər mədəniyyəti və yadelli basqınlardan müdafiə olunmaq bacarığı ilə ad çıxarmışdır. Ona görə də Əlincə yolu ilə səyahət edən turistlər də bilməlidirlər ki, Naxçıvanın qədim tarixi Azərbaycan tarixinin mühüm bir hissəsidir. Naxçıvan cəmisi yüz il əvvəl tarixi ədalətsizlik nəticəsində Azərbaycandan aralı düşsə də bu diyar Atabəylər dövlətinin paytaxtı kimi dünyada tanınırdı. Bəzən tarix haqqında danışarkən müharibələr haqqındakı epizodlar maraqla dinlənilir. Ancaq, fikrimizcə Əlincəyə doğru hərəkət edən turistlərə Naxçıvanın alınmazlığının sirrini bu torpaqda formalaşmmış mədəniyyətlə bağlı olduğunun çatdırmaq ən

doğru giriş olardı. İlkin olaraq turistlərə izah olunmalıdır ki, min illər ərzində Naxçıvanda formalaşmış bir mədəniyyət vardır ki, o, bu torpağın əyilməzliyinin əsl ruhudur. Turistlər bilməlidirlər ki, bu torpaqda heç kimi heç zaman satın almaq, çətinliklərlə qorxudub yurd-yuvasından çıxarmaq mümkün olmayıb. Göydə Allah, yerdə Əlincə qalası kimi sərt qayalar naxçıvanlıların həmişə dadına çatıb. Ona görə də davam etdirilən tur təqdimatı zamanı Əlincə qalasına çatan turistlər bir daha inananacaqlar ki, necə olub ki, Səmərqənddən Bağdada qədər dünyanın az qala yarısını tutmuş Əmir Teymur 14 il ərzində Əlincə qalasını tuta bilməyib.

Əlincəqala təkcə müdafiə məqsədli bir istehkam olmayıb. Bu qala, xüsusən, orta əsrlərin feodal dövlətləri dövründə bir xalqın yaratdığı mədəniyyət incisi, dövlətçiliyin, iqtisadiyyatın güc simvoludur. Buraya gələn turistlər bilməlidir ki, təkcə dünyada deyil, Azərbaycanın, eləcə də Naxçıvanın müxtəlif yerlərində Əlincədən daha yüksəkdə yerləşən sərt sıldırımlı qayalıqlar vardır. Amma tarixi zaman ərzində bunların bir qala kimi istifadə olunaraq starteji əhəmiyyət kəsb



etməsi və çətin dövrlərdə dövlətin alınmaz qalası olması üçün müəyyən şərtlər tələb olunurdu. Odur ki, turistlərə Əlincəqalanın tarixi haqqında danışarkən onun müdafiə

məqsədli xüsusiyyətləri ilə yanaşı strateji mövqeyi və orta əsrlərdə təkcə Naxçıvanda mövcud olmuş feodal dövlətləri üçün deyil, həm də o dövrdə Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq ölkələri üçün nə dərəcədə əhəmiyyətli olduğu vurğulanmalıdır. Misal üçün, tarixi mənbələrə görə, paytaxtı Naxçıvan şəhəri olmuş Atabəylər dövlətində, Eldəniz



hökmdarları zamanında İraq və Azərbaycandan yığılan bütün gəlirlərin məhz Əlincəqaladakı xəzinədə toplanması, o dövrlərdə məhz buradakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizələrin getməsi, bir çox Eldəniz hökmdarlarının ən çətin vaxtlarda məhz Naxçıvana sığınması tarix həvəskarları olan turistlər üçün çox qiymətli məlumatlardır. Yaxud, sonuncu Atabəy hökmdarı Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından qorunmaq üçün onun Naxçıvanda məskunlaşması Əlincəqala kimi möhkəm müdafiə oluna bilən bir qalaya olan inamdan doğur.

Əlincəqala haqqında turistlərə məlumatlar verirkən müasir alman, ingilis, yaxıd pribaltikalı kimi yaşadıqları ölkələrdə sərt qayalıqlı yerlərin çox az olduğu əcnəbi turistlərin

Perudakı qədim İnk mədəniyyətinin çox nadir nümunəsi olan "Machu Picchu" haqqındakı fikirləri və təsəvvürlərinə istinad maraq doğurur. Əslində isə Azərbaycanın "Machu Picchu"su, yəni Əlincəqala daha qədim tarixə malikdir. Əgər Perudakı "Machu Picchu" qala şəhərinin tarixi yalnız XV əsrədək gedib çatırsa, Əlincəqalanın sübut olunmuş tarixi eramızın V-VI əsrlərinədək uzanır. Qalanın adı çəkildiyi ən qədim mənbələrdən biri məşhur "Kitabi Dədə-Qorqud" dastanıdır. XII əsrdən başlayan tarixi mənbələrdə isə Əlincəqalanın adı daha tez-tez çəkilir. Əldə edilmiş materiallar sübut edir ki, o dövrdə Azərbaycan Atabəyləri — Eldənizlərin hökmranlığı dövründə Əlincəqala hərbi-strateji, iqtisadi və siyasi mövqeyi cəhətdən əhəmiyyətli olub.

Naxçıvan-Əlincəqala turizm marşrutu üzrə səyahət edən turistlərə müasir Naxçıvan özünün sosial-iqtisadi və mədəni həyatdakı uğurları, müstəqil Azərbaycan dövlətçiliyinin qurulması və möhkəmləndirilməsində xüsusi yeri olan bir diyar kimi təqdim olunmalıdır. Belə ki, Əlincə marşurutu üzrə irəliləyərkən, indi Naxçıvanın 200-dən artıq kəndinə bu cür rahat və təhlükəsiz yollar çəkildiyi, bütün kəndlərdəki müasir idarəetmə tələblərinə uyğun infrastruktur şəraiti yaradıldığı vurğulamalıdır. Məhz bu məqamda, Naxçıvanın keçmişi ilə müasir dövrü arasında bir etibarlı körpü dayağı kimi təqdim olunan Əlincə qalasının bərpa olunaraq yenidən dünya mədəniyyəti mirasına qazandırılmasının əhəmiyyəti bütöv bir fəsil kimi geniş izah olunmalı, qalaya qalxdıqca pilə-pillə görülən işlərin möhtəşəmliyi turistlərin diqqətinə çatdırılmalıdır. Bu gün muxtar respublikanın etbarlı müdafiəsindən tutmuş kiçik bir emal müəssisəsi yaradılmasınadək görülən bütün işlər arasında Əlincəqalanın bərpa olunmasına və muzey yaradılmasına ayrılan xüsusi diqqət ayrıca olaraq vurğulanmalıdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən "Əlincəqala" tarixi abidəsi bərpa

olunub. Turistlər hiss etməlidirlər ki, məhz Naxçıvandakı yüksək mədəniyyət, səbir və inamın nəticəsidr ki, indi Əlincə qalası hər il minlərlə yerli və xarici turisti özünə çağırır.

Qalaya doğru gedən hər pillənin hekayəsinə qulaq asaraq zirvəyə çatan turistlər yüzlərlə il əvvəlki kimi burada hər şeyin təbii olduğunu görür, tarixin dərin qatlarındakı cəngavər döyüşlərinə şahidlik etmiş qayalarla baş-başa qalıb seyrə dalırlar. Zirvəyə qədər dırmanışdan sonra qrup üzvlərinin hamısının burada ucalmış möhtəşəm Azərbaycan bayrağının altında toplanaraq beş dəqiqəlik nəfəs dərməsilə qalanın təqdimatına başlamaq mümkündür.

İlk olaraq qeyd edək ki, Əlincəqala kimi yerlərə dırmanan turistlərdə fərqli davranışlar müşahidə olunur. Belə ki, insanların təbii instinkt olaraq yüksəkliyə meyli, yaxud səmaya daha yaxın olmaqla özünü Uca Yaradana daha yaxın hiss etməsi və ya sadəcə zirvəyə dırmanması istəyi bu zaman açıq görünən motivasiyaedici amillərdəndirr. Xüsusən, yaşadığı yerdə ən qısa yolu belə avtomobillərlə getməyə alışmış şəhərli turistlərin qalaya dırmanması zamanı müşahidə



olunan davranış formaları daha maraqlıdır. Onu da qeyd edək ki, qalaya gedən yolun mürəkkəb olması onun Əmir Teymur ordularının hücumu zamanı müdafiəçilərinin işini asanlaşdıran

fakt olubsa, bu daha sonra buraya qalxmaq istəyən ekskursantlar üçün də əngəl törədib. Qalanın bərpa olunması və buraya gedən yolun qaydaya salınması Əlincəqalaya qalxmaq istəyənlərin işini asanlaşıdırıb. Başqa sözlə, əgər təxminən 700 il əvvəl Orta Asiyadan Bağdada qədər böyük bir ərazini işğal etmiş Əmir Teymurun ordularının 14 il ərzində qalxa bilmədiyi 500 metr məsafəni 35-40 dəqiqəyə qalxan turistlərin bundan zövq alması qalaya səyahət edənlərin sayının artmasına səbəb olan amillərdəndir.

Əlincənin zirvəsinə qədər gəlib çatmış turistlərdə qeyri-adi təsəvvürlər formalaşır. Bir çox hallarda əcnəbilərlə,



ümumiyyətlə Naxçıvana ilk dəfə gələn turistlərlə ünsiyyət zamanı belə hal müşahidə olunur. Şübhəsiz, Əlincənin əzəməti, nəhəng sal qayalar üzərində şahların səltənətinə meydan oxumuş qəhrəman müdafiəçilərinin ayaq izləri buraya gələn hər bir kəs üçün dərin maraq obyektidir. Burada turistlər bilməlidir ki, tarixi mənbələrə görə bu müdafiəçilərin sayı 600-dən artıq olub. Əgər qala ilə tanışlıq zamanı qanadlarını gərərək Əlincə səmalarında süzülən dağ qartalları peyda olarsa, bu, həmin ekskursiyada iştirak edən turistlər üçün bir də əla fotoovçuluq fürsəti olacaqdır.

Əlincəqalanın qədim hekayəsini danışan bələdçi ilk olaraq qalanın təkcə bir müdafiə istehkamı deyil, həm də Naxçıvanın qiymətli mədəniyyət xəzinəsi olduğunu qeyd etməlidir. Belə ki, 2014-2015-ci illərdə Əlincəqala bərpa olunarkən onun ərazisindən tapılmış maddi-mədəniyyət nümunələri, məişət əşyaları burada uzun müddət ərzində formalaşmış insan məskənlərindən xəbər verir. Əlincəqaladan tapılmış bütün bu nümunələr, VII əsrə aid mis və gümüş sikkələr Əlincə qalanın ətəyində yaradılmış muzeydə maddi sübutlar kimi təqdim olunmalıdır.

Qalanın quruluşu ilə tanışlıq turistlərin buraya daxil olduğu qərb girişindən başlayır. Tarixi mənbələrə görə, qalanın iki, bəzən isə üç giriş qapısı olması barədə fikirlər vardır. Tarixi mənbələrə görə Xanəgah kəndi tərəfdə yerləşən şərq girişi qalanın əsas giriş yollarından biri olsa da qərb yamacı boyunca çəkilmiş müdafiə divarları, onların bərpadan sonrakı görünüşü turistlərdə böyük maraq oyadır. Qalanın mərkəz hissəsinə daxil olan turistlər bir anda özlərini qədim bir şərq şəhərindəymiş kimi hiss edirlər. Xüsusən, qalanın gecə işıqlandırması zamanı bu daha möhtəşəm görünür. Qalanın ən böyük sahəsini tutan bu hissədə qədim qala sakinlərinin istifadə etdikləri yaşayış binaları və ictimai binaların quruluşu və əhəmiyyəti təqdimat zamanı xüsusilə, diqqətə çatdırılmalıdır. Belə ki, çox geniş olmasa da qalanın mərkəzi hissəsində insanların yaşaya bilməsi üçün mövcud ərazidən maksimum dərəcədə səmərəli istifadəyə çalışılıb. Xüsusən, ekskursiya zamanı turisitlərə yaşayış sahəsi kimi istifadə olunmuş yerlər, burada üzə çıxarılmış təndirlər, həvənglər, əl dəyirmanları maddi-mədəniyyət nümunələri kimi təqdim olunmalıdır. Belə ki, yaşayış sahəsi kimi istifadə olunmuş birotaqlı mənzillər əcnəbi turistlərə xalqımızın min il öncəsindəki həyat tərzini, yuksək mədəniyyətini göstərən mühüm maraq obyektidir. Turistlər bilməlidirlər ki, burada müdafiə olunmuş insanlar nə qədər ağır və ekstremal bir şəraitdə yaşasalar da ümumi insani

mədəniyyətdən kənara çıxmamış, sosial məsafə kimi mühüm mədəni tələbatı həmişə yaşatmışlar.

Əlincəqalanın turistlərdə maraq doğuran digər mühüm hissəsi yerli əhali arasında "Şahtaxtı" da adlandırılan iç qalasıdır. Bura dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir və çətin keçilə bilən sıldırım qayadan keçilir. Odur ki, buraya qalxmaq ekstremal idman növü olan dırmanış həvəskarları üçün əsl fürsətdir. Şahtaxtına qalxmaq istəyən turistlər bilməlidirlər ki, bir zamanlar qalaya hökmranlıq etmiş şahların iqamətgahları məhz burada yerləşib. Şahtaxtında turistlərin görmək istədiyi çox maraqlı yerlər arasında bir-biri ilə dar keçidlə əlaqələndirilmiş kiçik otaqlar və hövuzlar vardır. Bu hovuzlardan da biri həcminə görə Əlincəqalada mövcud olan ən böyük hovuzdur.

Əlincəqalada uzun illər müdafiə olunaraq ad-san çıxarmış insanların qəhrəmanlığı və onların bu sərt qayalıq şəraitində ərzaq və su təminatı istənilən səyahətçidə böyük maraq yaradır. Bacarıqlı turizm mütəxəssisi məhz bu motivlər üzərində təqdimat quraraq Əlincəqalaya səfər edən turistləri dərin təəssüratla yola sala bilər. Doğurdan da, çətin şərtlər altında yaşayan insanların sözün əsl mənasında necə daşdan çörək və su çıxara bildiyini göstərmək üçün Əlincəqaladan daha əyani numunə ola bilməz. Ona görə də qaladakı tarixi hidrotexniki qurğularla tanış olan turistlərin nəzərində "mübarizə" anlayışı haqqında tamamilə başaqa bir təsəvvürlər yaranır. Əlincəqalada, habelə, qalanın yuxarı hissəsindəki Şahtaxtında inşa olunmuş su hovuzları və bunları doldurmaq üçün qayada çəkilmiş kanallar turistlərdə böyük maraq doğurur. Şübhəsiz, Əlincəqalanın sərt qayalarında primitiv balta və çapacaqlarla böyük səbir və zəhmətlə yaradılmış su hovuzlarına, bunlara su gətirən və bəzilərinin uzunluğu 200 metrə çatan kanallara tamaşa etdikdə bunun arxasında nə qədər böyük yurd sevgisi gücünün dayandığını görməmək mümkün deyil. Bu qurğuların tikilməsi zamanı sərf olunmuş fiziki və

yaradıcı əmək naxçıvanlıların ta qədimdən heç bir blokada ilə qorxudulmasının mümkün olmadığını göstərən ən böyük sübutdur. Belə hidrotexniki qurğulara baxan turistlərə bildirilməlidir ki, bunlar Naxçıvanın digər yerlərinə səyahətləri zamanı onlara təqdim olunacaq müasir derivasiya tipli iri su elektrik stansiyalarının əslində qədim əcdadıdırlar. Beləliklə, Əlincəqalaya səyahət zamanı buradakı hovuzlar və kəhrizlərlə tanış olan turistlər tarixin müəyyən dövrlərində qalanın uzun müddət ərzində necə müdafiə olunduğunun sirləri ilə canlı tanış ola bilərlər.

Turizmin təşkili zamanı turistlərin motivlərinə görə onların səyahət marşrutlarının seçilməsi əsas məqamlardandır. Odur ki, Əlincəyə səyahət edən turistlərin əsas marağı tarix və mədəniyyət olduğundan buraya səfər edən hər bir kəs qalanın Azərbaycan xalqının, onun milli dövlətçilik tarixindəki əhəmiyyəti haqqında məlumatları böyük maraqla dinləyəcək. Belə ki, Əlincəqala ilə bağlı XIV əsir sonları, XV əsrin əvvəllərinə aid dövrləri əhatə edən tarixi hadisələr yaxşı məlum olsa da, daha qədim mənbələrdə qalanın yaranması tarixinin eramızın ilk yüzilliklərinə qədər olduğu sübut edilib. Bu baxımdan, qala ərazisində tapılmış və hazırda buradakı muzeydə nümayiş etdirilən VII əsrdə Özbəkistanda zərb olunmuş gümüş sikkə böyük maraq obyektidir. Şübəhsiz, Əlincənin Azərbaycan Atabəyləri - Eldənizlərin hakimiyyəti dövründəki hərbi-strateji və iqtisadi-siyasi əhəmiyyəti ilə yanaşı, Cəlalilər, Qaraqoyunlular, Səfəvilər və hətta Osmanlı dövründə də mühüm əhəmiyyəti qeyd olunmalıdır. Məhz bu yolla, orta əsrlərdə Səmərqənddən Bağdada, İstanbuldan Təbrizə qədər geniş bir ərazidə baş vermiş hərbi-siyasi və iqtisadi proseslərdə Əlincənin rolu izah olunduqca turistlərin Naxçıvan haqqındakı təsəvvürləri də birə-beş artacaq, dünyagörüşləri dərinləşəcək.

Əlincə qalası və bütövlükdə qalanını ətraf Əlincəçay vadisi müxtəlif tarixi yer, hadisə və şəxsiyyətlərin həyatı ilə

bağlı çox maraqlı faktlarla zəngindir. Turizm cazibədarlığı baxımından bunlara bir ehtiyat kimi yanaşılması və hər birinin ayrıca bir ekskursiya proqramı şəklində tanıdılması mümkündür. Odur ki, Əlincəyə gəlmiş turistləri qalanın və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin təqdimatından sonra ümumi proqramın son bölümü kimi həmin ehtiyatlarla da tanış etmək mümkündür.

Əlincəqala ilə tanışlıqdan sonra turistlərin təəssüratlarını daha da dərinləşdirəcək mühüm obyektlərdən biri Əlincəqalanın şərq tərəfində yerləşən, hazırda Xanəgah kəndinin əhalisi tərəfindən məscid kimi istifadə olunan türbədə saxlanan kitabə mühüm əhəmiyyət kəsb edir. Belə ki, qala və onun ətrafı haqqında mühüm yazılı mənbə kimi bu kitabə turistlədə böyük maraq doğuracaq. Bu kitabədə əks olunan faktlar heyrət doğurucudur. Kitabə üzərində ərəb dilindəki yazılara əsasən bu türbə XV əsrdə "Həqiqi" təxəllüsü ilə şeirlər yazmış Qaraqoyunlu hökmdarı Bahadır xan Cahanşahın dövründə Əlincəqalanın yadelli işğalçılardan müdafiəçilərinin xatirəsinə tikilib. Şübhəsiz, əsrlərin sınağından keçib gələn bu mədəniyyət abidəsi ilə tanışlıq hər kəsdə olduğu kimi tarix həvəskarları olan turistlər üçün də maraqlıdır.

Naxçıvan Şərqin mühüm düşüncə mərkəzlərindən biridir. Qədim dövrlərdən burada yaşamış insanların haqq-ədalət mübarizəsi və dini-fəlsəfi cərəyanların təsiri ilə dünyaya baxışları əsasında formalaşmış Naxçıvan məktəbi keçmişdə olduğu kimi bu gün də bəşəriyyətə və Uca Yaradana sevgi, insanlara qarşı tolerantlıq hissləri ilə bütün dünyaya nümunə olmaqdadır. Bu baxımdan Əlincəqalanın ətrafındakı yaşayış məntəqələrində, xüsusən Xanəgah və Saltaq kəndləri ərazisində mövcud olmuş sufizmin izlərini özündə yaşadan kitabələr, habelə Xanəgah kəndindən bir kilometr şərqdə yerləşən kompleksdəki yazılı mənbələr mühüm epiqrafik abidələr kimi turistlərdə də böyük maraq doğurur.

Əlincəçay vadisi orta əsrlərdə mühüm ticarət yollarının keçdiyi məkan olub. Əlincəyə gələn turistlər qədim tarixi mənbələrlə üzbəüz tanış olduqca Əlincəqala və ətrafındakı zənginliklərin mədəniyyətlərarası dialoq üçün nə qədər zəngin əhəmiyyət daşıdığına şahid olacaqdır. Şübhəsiz, burada minillik yaşı olan insan izləri, bizə miras qalmış maddi-mədəniyyət nümunələri, daş kitabələr, hidrotexniki qurğular və məişət əşyaları bugünkü nailiyyətlərmizin tarixi kökü və qədim əcdadı kimi hər birimiz üçün qiymətidir. Bu baxımdan, Əlincə Xanəgahı ilə tanış olan turistlər görəcəklər ki, Xanəgah kompleksindəki türbə-məscid o dövrlərdə hansısa bir



hökmdarın şöhrəti üçün tikilmiş sadə bir abidə deyildir. Qədim Şərqin təfəkkür mərkəzi kimi Naxçıvanda yaşamış fəzilət sahibi insanlara verilən qiymət hələ o vaxtlar cəmiyyətdəki sosial münasibətlərin əsas vektoru olub və dünya əhəmiyyətli bu abidənin də mühüm tarixi şəxsiyyətlərin adı ilə bağlı olması təsadüfi deyildir. O dövrə görə dərin dini-fəlsəfi fikirlərə əsaslanan hürufiik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi olmuş Fəzlullah Nəiminin burada dəfn olunması, sonradan buranın onun ardıcılları

tərəfindən bir ziyarətgaha çevrilməsi turistlər üçün olduqca maraqlı faktlardır. Yaxud, Xanəgahdakı təqdimat zamanı bu gün hər saat onlarla, yüzlərlə insanın öldürüldüyü modern dünyadan fərqli olaraq orta əsrlərdə bu torpaqlarda meydana gəlmiş hürufiliyə insanın Yaradana məxsus ən ali, ən kamil bir məxluq olduğunu və dolayısı ilə insan qanı tökən hər bir kəsin də Allaha qarşı günah işlətdiyini təbliğ edən bir təlim kimi yanaşılması turistlər üçün çox düşündürücü olacaq.

Azərbaycan hələ qədim dövrlərdən dünaya Günəş kimi işıq saçan elm adamları ilə tanınıb. Elmə və elm adamlarına olan dərin hörmət isə hələ orta əsrlərdə də xalqımızın mədəni həyatında mühüm münasibətlərdən biri olub. Xanəgahdakı abidələrlə, xüsusilə burada dəfn olunmuş Şeyx Hacı Lələ Məliyin qəbirüstü xatirə abidəsi ilə tanışlıq zamanı bu xüsusa diqqətləri cəlb olunan turistlər biləcəklər ki, hələ XV əsrdə Avropa cəmiyyətində qadının ən sadə insan hüquqları olmadığı bir vaxtda, həmin dövrdə burada yaşamış qadınlar cəmiyyətin tamhüquqlu üzvü olublar. Yuxarıda adı çəkilən sufi şeyxinin xanımı olmuş və ərinin xatirəsinə möhtəşəm türbə-məscid inşa etdirmiş Həvva Bədr Bikə xanım haqqında əcnəbi turistlərə danışdıqa, şübhəsiz, onların əksəriyyəti dərin təəssürat alacaqlar.

Əlincəqala eyni zamanda xalqımızın dövlətçilik tarixində mühüm yer tutan, onun qəhrəmanlıq mübarizəsini, bütün çətinliklərə qarşı elbirliyi ilə necə sinə gərməyin və keçmişə sahib çıxmağın canlı örnəyini göstərən dünya əhəmiyyətli bir abidədir. Bu baxımdan Əlincəqala haqqında qonaqlara məlumat verərkən onun müasir dövrdəki bərpasının Azərbaycan xalqının dövlətçilik tarixindəki müsbət ənənələrin uğurlu davamı olduğu diqqətçəkici bir məqamdır. Belə ki, XVI əsrin əvvələrində yaranıb və 235 il davam etmiş Səfəvilər dövlətinin ilk illərində də Əlincəqalada bərpa və abadlıq işləri aparılmış, bir sıra memarlıq abidələri — bürc, darvaza, müdafiə istehkamları inşa edilmişdir. Əlincəqalanın cənub

tərəfindəki Saltaq kənd məscidində bu mühüm tarixi faktı sübut edən və xalqımızın tarixində mühüm yer tutan I Şah İsmayılın da adının çəkildiyi kitabə ilə tanışlıq bir daha sübut edir ki, Naxçıvan ərazisi tarix, mədəniyyət və tanışlıq-dərektmə məqsədilə səyahət edən hər bir turist üçün nə qədər cazibədar və əlverişli bir məkandır.

Əlincəqala xalqımızın milli sərvəti, dünya mədəni mirasının mühüm xəzinəsidir. Yüzillər boyu bu möhtəşəm təbiət və insan əli möcüzəsi müxtəlif məqsədli maraq obyekti olub. Kimi burada dünyanı qorxuya salmış işğalçılara qarşı meydan oxuyub, kimi topladığı sərvəti qoruyub, kimi də son sığınacaq kimi Əlincəyə üz tutub. Ancaq bunlar hamısı tarixdə qalıb. Bu gün isə Əlincənin tarixində yeni bir mərhələ, onun dünya mədəniyyətinə qazandırılması mərhələsi başlayıb. Bu dəfə Əlicənin zirvəsinə qalxanlar min kilometlərlə uzaqlardan gəlmiş əcnəbi turistlər, ölkəmizin, muxtar respublikamızın ziyalıları, jurnalislər, tələbələr, məktəblilərdir. Buraya səfərdən gözlənilən isə tarixi nostalji hisslərlə dolu təəssürat alıb mənəvi zənginliyə qovuşmaqdır.



### *4. Naxçıvan-Şahbuz-Ağbulaq turizm marşrutu*

Şahbuz rayonunda fəal istirahəti təşkil edə bilmək üçün Şahbuz-Ağbulaq istiqamətində müxtəlif kateqoriyadan olan turistlərə bir-birindən maraqlı istirahət turları təklif etmək olar. Ağbulaq kəndi Naxçıvan şəhərindən təqribən 60, Şahbuz



şəhərindən isə 20 kilometr bir məsafədə, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. Burada Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb. Bu turizm məkanına aparan yeni salınmış asfalt yolla turistlər rahatlıqla çata bilirlər. 65 yaşayış evi və təxminən 500 nəfərə yaxın əhalisi olan Ağbulaq kəndinin 1500 hektara yaxın ərazisi vardır. Belə bir nisbətdə olan ərazi və əhali sıxlığı buraya gəlmiş turistlər üçün müxtəlif aktiv istirahət turlarının təşkili üçün əlverişlidir. Kəndin təmiz havası, saf suyu, ekoloji təmiz məhsulları da buranın turizm cazibədarlığını artıran amillərdəndir. Burada yaşayan yerli əhalinin rahatlığı üçün elektrik enerjisi, içməli su təminatı, rabitə və kommunikasiya sistemlərinin mövcuduğu, yerli əhalinin turizm xidmətlərinə maraqlı olması da Ağbulağın rekreasiya dəyərini artırır. Hələ 2013-cü ildə burada yaradılmış Ağbulaq İstirahət Mərkəzi hər il çox sayda yerli və əcnəbi

turistlərin istirahət etdiyi məkana çevrilib. Mərkəzdə ümumi tutumu 76 nəfər olan, 38 otaq vardır. Otaqlar peyk yayımlı televiziya, daxili xəttli telefon, mini bar, kassa, vanna otağı ilə təchiz olunub. İstirahət Mərkəzində Ağbulaq restoranı, kafe-bar, restoran-bar fəaliyyət göstərir. Bundan başqa mini futbol-voleybol meydanı, uşaqlar üçün əyləncə parkı, market, valyuta



dəyişmə məntəqəsi, poçt xidməti və başqa xidmətlər də mövcuddur. Kənddə hər bir kənd sakininin evində yenidənqurma işləri aparılıb, həyətlər abadlaşdırılıb. Kənddaxili avtomobil yollarına qum-çınqıl qatı verilib, su keçidləri salınıb, yeni yollar çəkilib, elektrik təchizatı sistemi yenilənib.

Ağbulaq kəndi özünün təbii-iqlim şəraiti, relyef quruluşu və onlardan istifadə şəraitinə görə rekreasiya fəaliyyəti üçün əlverişli sayılır. Burada rekreasiya qiymətləndirməsinə baxdıqda landşaft, iqlim, illik yağıntı, habelə estetik panoramik mənzərə, su və torpaq ehtiyatları, bitki örtüyü və ilkin görüntüsü pozulmamış təbii ekosistem, ərazinin təsərrüfat və sənaye məqsədli istifadəsi, hər 1000 kvadrat metrə düşən insan sayı, əhalinin məşğulluğu, sağlamlığı və uzunömürlülük səviyyəsi, habelə infrastruktur,

ümumi ekoloji vəziyyət kimi faktorların ön plana çıxdığını qeyd edə bilərik. Yayın nisbətən sərin, qışın qarlı və mülayim keçdiyi bu ərazilər təkcə muxtar respublikada deyil, eləcə də yaxın bölgədə turizmin inkişafı baxımından unikal ərazilərdən biri hesab olunur.

Şahbuz-Ağbulaq turizm marşrutu üzrə hərəkət edən turistlər Şahbuz şəhərindən çox da uzaqda olmayan, cəmi 20-



25 dəqiqəlik rahat bir yolun ardından rayonun geniş panoramasını canlandıran bir təbiət mənzərəsi ilə üzbəüz qalırlar. Xüsusən belə bir səyahət yay fəslinin tam ortasına təsadüf edərsə, şəhərdən gəlmiş qonaqları təəccübləndirərək, onlarda dərin təəssürat yaratmaq çox da çətin deyildir. Şahbuz-Batabat yol ayrımından Ağbulağa gedən yolun mənzərəsi foto-video həvəskarlarını dəqiqələrcə məşğul edər. Belə mənzərə pillə-pillə dolanan Ağbulaq yolunda hərəkət edərkən daha da gözəlləşir və buna görə qonaqlarımıza istirahət məkanına çatmamış yolüstü bulaq komplekslərinin birində fasilə verməyə dəyər. Hər keçən dəqiqədə onlara metr yüksəkliyə qalxan turistlərin bu yuksəkliyə uyğunlaşması və gəldikləri yola doyunca tamaşa etmələri üçün onlara belə vaxt verilməlidir.

Ağbulaq İstirahət Kompleksinə gəlmiş qonaqlar ümumi qəbul olunmuş qaydalara əsasən səhər yeməyi, yaxud çay süfrəsinə dəvət oluna bilər. Turistlərə ödədikləri tək nəfərlik, yaxud iki nəfərlik qalma xərcinə görə geniş çeşiddə səhər yeməyi verlir. Digər yeməklərə gəldikdə, burada günorta və axşam yeməyi üçün menyuda daha çox kənd üsulu milli mətbəx yeməklərinə üstünlük verilir. Odur ki, buraya gəlmiş turistlərə Şahbuzun məşhur yarpızlı dovğası və yaxud daş küftəsi təklif oluna bilər. Burada turistlərə kəndin ailə təsərrüfatlarının məhsulları olan müxtəlif ağartı məhsulları, ətirli dağ balı, turşular, Naxçıvan qovurması, təndir lavaşı da təklif olunur.

Ağbulaq İstirahət Mərkəzi uşaq və gənclərin də sevimli kamp yeridir. Burada turizmin sosial formasında populyar istirahət turları təşkil olunur. Gənclərin və digər yaş kateqoriyasından olan insanların yay tətili və həftəsonu günlərində asudə vaxtlarının səmərəli keçirilməsi, onların müxtəlif intellektual oyunlar, idman yarışları və təbiətlə ünsiyyətdə olmaq şərtilə keçirdikləri günlər daha yaddaqalan olur. Turistlər bilməlidir ki, Ağbulaq İstirahət Mərkəzində pulsuz istirahət üçün muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş məktəblilərə burada qaldıqları müddət ərzində hər gün onlara yaddaqalan tədbirlər, oyunlar, yarışlar təşkil olunur. Şübhəsiz, dəniz səviyyəsindən təqribən 2 min metr yüksəklikdə, yaşıl təbiətin qucağında keçirilən hər gün məktəblilərin yaddaşında uzun müddət qalır. Bu isə gənclərin sağlam və gümrah böyüməsində olduğu kimi onların tərbiyəsində də mühüm əhəmiyyətə malikdir. Çünki, ənənəvi olaraq proqramsız təşkil olunan birgünlük gəzintilərdən fərqli olaraq belə istirahət mərkəzlərində mütəşəkkil formada keçirilən asudə vaxt öz məqsədyönlüyü və qiymətdə sərfəliliyi ilə də çox fərqlənir. Belə ki, burada müxtəlif yaşdan olan məktəbli gənclərin bir-biri ilə dostluq qurması, onların təbiətlə birbaşa ünsiyyət yaradaraq müxtəlif ekskursiya marşrutlarına

yollanması üçün əlverişli şərait vardır. Burada tərbiyəçilər tərəfindən təşkil olunan kollektiv yarış və oyunlar, Naxçıvanın görməli yerləri ilə tanışlıq, Şahbuz Dövlət Təbiət Qoruğuna, Batabat Astrofizika Rəsədxanasına edilən ekskursiyalar zamanı uşaq və gənclərə verilən informasiya onların gələcəkdə hərtərəfli şəkildə formalaşması, dünyagörüşünün artması üçün çox əhəmiyyətlidir.

Ağbulaq həm də qış turizm məkanıdır. Kəndin yerləşdiyi coğrafi en kəsiyi, onun dəniz səviyyəsindən hündürülyü və relyef quruluşu burada isti yay günləri ilə yanaşı, ilin bütün fəsillərində, o cümlədən qarlı qışda da mənalı istirahət və rekreasiya turları keçirməyə imkan verir. 1590 metr



uzunluğunda Ağbulaq Xizək Mərkəzinin yaradılması bu mənada ərazinin rekreasiya dəyərini daha da artıran mühüm tədbirlərdəndir. Burada xizək həvəskarlarına onlara lazım olan bütün avadanlıqlar təklif olunur.

## *5. Naxçıvan-Qarabağlar turizm marşrutu*

Naxçıvana səyahət edən hər bir turist qrupu üçün Naxçıvan-Qarabağlar turizm marşrutu da özünün bütün cazibədarlığı ilə diqqəti cəlb edir.

Naxçıvan-Qarabağlar turizm marşrutu yerləşdiyi bölgənin coğrafi mövqeyi, təbii-iqlim xüsusiyyətləri və sahib olduğu resurslara görə ilboyu istifadə oluna bilən marşrutlardandır. Marşrutdan istfadə edən turistlər Naxçıvan şəhərindən başlayaraq istər Qıvraq qəsəbəsi, Yurdçu, Qarabağlar, Çalxanqala və Təzəkənd kəndlərindən keçməklə dairəvi istiqamətdə, istərsə də xətti marşrut kimi Naxçıvandan Qarabağlara və geriyə hərəkət edə bilərlər. Marşrut üzrə səyahət müddəti ondan istifadə edən turistlərin sayına və səfər motivinə görə bir neçə saatdan tutmuş bir gün ərzində davam edə bilər. Hazırda Naxçıvan şəhərindən Qarabağlar kəndinə qədər təqribən 40 kilometr olan yolu turistlərin bir saat müddətində rahat avtomobillər və ya mikroavtobuslarla keçib getmək imkanları vardır. Yol şəraiti, ümumiyyətlə, Naxçıvanın bütün ərazisinə xas olan yüksək komfortluğu, təhlükəsizliyi ilə fərqlənməkdədir ki, bu da müasir turistləri maraqlandıran ən mühüm şərtlərdən biridir. Bundan əlavə, marşrut üzrə hərəkət edən turistlər yolboyu kəndlərdəki müasir ticarət və iaşə obyektlərinin xidmətlərindən və 4G mobil internetdən istifadə



imkanlarına malikdirlər. Bölgədəki yaşayış məntəqələrinə xas olan müasirlik, əhalinin yüksələn həyat səviyyəsinə şərait yaradan sosial-mədəni infrastruktur şəraiti də marşrut boyunca turistlərin gözündən qaçmayacaq məziyyətlərdəndir.

Naxçıvan-Qarabağlar turizm marşrutu Naxçıvanın nisbətən yeni, ancaq böyük potensial vəd edən destinasiyalarındandır. Marşrut əsasən tarix, mədəniyyət, müasirlik və eyni zamanda nostalgiya duyğularını bir arada yaşamaq istəyən turistlər üçün çox cazibədardır. Bu marşrut üzərində qədim Azərbaycan memarlıq məktəbinin görkəmli nümunəsi olan Qarabağlar Türbə Kompleksini görmək, şübhəsiz, Naxçıvana gəlmiş turistlərin əsas motivlərindən sayılır. XII-XIV əsrlərə aid olan bu türbə kompleksi əsrlər boyu Şərq ölkələrinə səfərə çıxan səyyahların görüb, bu torpaqların əzəməti ilə yaxından taniş olmaq istədiyi möhtəşəm abidələrdən biridir.

Naxçıvan qədim abidələr diyarıdır. Naxçıvan şəhərindən başlayarq Qarabağlar istiqamətində hərəkət edən turistlərə belə abidələr haqqında məlumat verilərkən onların Azərbaycanın dövlətçilik tarixi ilə birbaşa bağlı olması faktı həmişə maraq doğurur. Belə maraq dairəsinə malik olan turistlər Naxçıvan ərazsində mövcud olan abidələrlə tanış olduqda, buradakı şəhər mədəniyyətinin izləri ilə yaxından tanış olur, qədim dövrdə mövcud olmuş Azərbaycan dövlətlərinin iqtisadi və hərbi gücü, buradakı mədəniyyətin inkişafı barədə təsəvvürlər əldə edirlər. Bu mənada, Qarabağlar Türbə Kompleksi inşa olunduğu dövrdəki mövcud olmuş Azərbaycan dövlətlərinin günümüzə qədər yaşayıb gəlmiş bir pasportu kimi də təqdim oluna bilər. Bu kimliyin yaşadılması, onun gələcək nəsillərə qədər çatdırılması baxımından Qarabağlar Türbə Kompleksinin bərpası zamanı görülmüş işlər turistlərə təqdim olunur. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il

4 iyul tarixli Sərəncamına uyğun olaraq Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilmişdir.

Qarabağlara gəlmiş turistlərə kənd haqqında məlumatlar verilərkən, şübhəsiz, bu kənddə mövcud olmuş qədim şəhər mədəniyyəti diqqəti cəlb edir. Belə ki, turistlər ilk olaraq bilməlidirlər ki, XVII əsrdə yaşamış türk səyyahı Evliya Çələbinin "Səyahətnamə" əsərində qeyd olunduğu kimi Qarabağlar kəndi o dövrdə 50 min nəfər əhalisi, 10 min evi, 70 məscidi, 40 minarə, karvansarası, hamamı, bazarı olan, tipik orta əsrlərə xas bir şəhər olub. Yəni turistlər buranın, əslində, bir kənd deyil bir zamanlar şəhər olduğunu öyrənəcəklər. Turistlər hazırda Qarabağlar Türbə Kompleksində sərgilənən və ərazinin o dövrlərdə qədim Roma və Bizans imperiyaları ilə mövcud olmuş iqtisadi-mədəni əlaqələrini sübut edən tapıntıları görüb, onun bu ərazidəki tarixi əhəmiyyətini, orta əsrlərdə Təbriz, Səmərqənd, Bağdad kimi elm, mədəniyyət, təhsil mərkəzləri ilə əlaqələrinin olmasını öyrənə bilərlər.

Elmi və tarixi əsaslarla bərpa edilmiş Türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi kimi dövlətçilik irsimiz və mədəni sərvətimiz kimi turistlərə təqdim olunur. Belə ki, Elxani hökmdarı Hülakü xanın xanımı Qudi xatının əmri ilə inşa edilmiş Qarabağlar Türbə Kompleksi orta əsr Azərbaycan dövlətlərinin iqtisadi gücü, mədəni həyatı, burada qadına, onun nüfuzuna verilən hörmət baxımından əcnəbi turistlərə, xüsusən Avropalı və Amerikalı turistlərə müfəssəl məlumat verə bilmək üçün qiymətli xəzinədir. Bu xəzinə kompleksə aid olan türbə və minarələrlə yanaşı burada sərgilənən qiymətli ekspozisiya materialları ilə daha da zənginləşdirilb.

Tarix həvəskarları olan turistlər həmçinin qədim Qarabağların ərazisinin o dövrlərdə Damlama, Dübək, Qalacıq kimi tarixi yerlərdə olduğunu və indiki Şərur rayonunun

Tənənəm kəndinə qədər yayıldığını da bu marşrut üzrə səyahət etdikləri zaman öyrənə bilərlər. Bunlar hamısı Qarabağların tarixidir. Turistlər onu da biləcəklər ki, tipik inkişaf etmiş orta əsr Azərbaycan şəhərlərində olduğu kimi Qarabağlar mədrəsələrində da o zamanlar uşaqlara riyaziyyat, astronomiya elmləri öyrədilib, burada mürəkkəb riyazi hesablamalara və astronomik bilgilərə əsaslanan memarlıq nümunələri yaradılıb. Kəndin müasirliyə qovuşmüş yeni növrağı görən turistlər onun tarixini yaşadan Süleymanlı, Bəydili, Ağahəsənli, Cığallı, Turabxanlı, Hacı Baxşəlilər kimi məhəllə adlarını da öyrəndikdə burada torpağına bağlı insanların həyat tərzi ilə də tanış ola bilərlər.

Qarabaglar müasir kənddir. Hazırda geniş əraziyə, 1200-dən artıq evə malik, 7 mindən artıq sakinin yaşadığı Qarabaglar kəndi haqqında belə ümumi təsəvvür əldə edən



turistlər marşrutun final nöqtəsi olan Qarabağlar Türbə Kompleksi ilə yaxından tanış olduqdan sonra bütün bu yuxarıda deyilənlərin heç də bir təsadüf olmadığına, bütün bunların min illər ərzində tarixi inkişafın bir nəticəsi oluğuna inanacaqlar.

# 6. *Naxçıvan-Ordubad turizm marşrutu*

Naxçıvan-Ordubad turizm marşrutu özünün unkal bənzərsizliyi ilə seçilən istiqamətlərdəndir. Burada həm təbiət, həm də tarix-mədəniyyət baxımından zəngin turizm ehtiyatları vardır.

Ordubad tarixi Azərbaycan şəhəri olub, Şərqin qədim



mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Naxçıvan şəhərindən təqribən 70 kiolmetr məsafədə yerləşən bu şəhərə və ətafındakı kəndlərə Azərbaycanın təbiətinə, tarixinə, mədəniyyətinə və milli qonaqpərvərliyinə maraq göstərən xarici turistlər üçün maraqlı tur və ekskursiyalar təşkil etmək mümkündür. Qeyd etmək lazımdır ki, Ordubada da turist cəlb olunması əvvəlcədən xüsusi xərc tələb edən reklam tədbirləri də tələb etmir. Belə ki, Ordubad Naxçıvanın Batabatı və müqəddəs Əshabi-Kəhf ziyarətgahı kimi hələ yaxın keçmişdən insanların yaddaşında bir turizm destinasiyası kimi özünə möhkəm yer tutmuşdur. Ordubadın yerləşmə mövqeyi, hava, su, iqlim ehtiyatları, flora və fauna aləmi, yerli əhalinin həyat tərzi, adət-ənənələri, məşğuliyyəti, milli mətbəx nümunələri bu rayonun iqtisadi imkanları, sahibkarlığın inkişaf səviyyəsi və sosial həyatı ilə birgə sintez olunaraq çoxlu sayda maraqlı

turlar üçün mövzu ola bilər. Belə turların hazırlanıb, həyata keçirilməsi, onların tanıdılması və ümumiyyətlə turizmdən gözlənilən gəlirlərin əldə olunması isə bu istiqamətdəki marşrutların uzun müddətliyindən və onların kommersiya uğurundan asılıdır.

Naxçıvan-Ordubad turizm marşrutunun başlanğıc nöqtəsi Naxçıvan şəhəridir. Şəhərdəki otellərdə yerləşmiş turistləri əvvəlcədən hazırlanmış plan əsasında lüks avtobus və ya mikroavtobuslarda Ordubada səyahətə apararkən ilk olaraq onlarda muxtar respublika haqqında ilk təəssüratları yaradan



məlumatlar verilə, informasiya vərəqələri paylanıla bilər. Bu arada turistlərə bildirilməlidir ki, Ordubada avtomobil və ya mikroavtobusla normal sürətlə təqribən bir saata çatmaq mümkün olsa da yolboyu Naxçıvanın görməli yerləri, landşaft gözəllikləri ilə tanış olmaq onların iki saatdan artıq vaxtını ala bilər. Yolboyu onların istifadə edə biləcəkləri dayanacaqlar və çay fasiləsi imkanları haqqında da məlumat vermək də bu turmarşrut üzrə ixtisaslaşmış bələdçinin əsas vəzifələrindən biridir.

Naxçıvan-Ordubad turizm marşrutu üzrə təxminən bir günlük ekskursiya üçün planlaşdırılan səyahətlər zamanı ilk tanışlıq elə Naxçıvan şəhərinin çıxışından başlanır. Rahat

Naxçıvan-Culfa magistral yolundan və Naxçıvan Beynəlxalq Hava Limanına gedən yoldan başlayaraq Naxçıvan şəhərindən şərqə doğru getdikcə Zəngəzur silsiləsinin fonunda turistlərin çoxdan bəri görmək istədikləri məğrur Haçadağın əzəməti turistlərdə dərin təəssürat yaradacaq ilk elementlərdəndir. Buna görə də tur zamanı bələdçi diqqətli olmalı, turistlərin daha çox foto və video təsvirlər ala bilmələri üçün imkanlar yaradılmalıdır.



Naxçıvandan müqəddəs Əshabi-Kəhf istiqamətinə gedən yolu keçərək irəlilədikcə turistlər bu məşhur ziyarətgah və Haçadağ haqqında maraqlı məlumatlar ala bilər, habelə Culfa şəhərinə yaxınlaşdıqca Araz çayı mənzərəsini seyr edə bilərlər. Darıdağ arsenli mineral su mənbəyinə yaxınlaşdıqca turistlərə Naxçıvanın mineral su mənbələri haqqında maraqlı məlumatların çatdırılması məqsədəuyğundur. Beləliklə, Araz çayının sol sahili boyunca ekzotik landşaft görüntüsünü seyr edərək turistlərə Ordubad şəhərini şimal və şimal-şərq tərəfdən əhatə edən sərt sıldırımlı dağların mənzərəsi açılır. Bura Naxçıvan-Ordubad turizm marşrutundakı əsas təyinat nöqtəsi olan Ordubad şəhəridir.

Ordubada daxil olarakən turistlərin marağını cəlb edən ilk gözəllik Bəlkə dağının və Bərəkə qayasının panoramasıdır. Şəhərin mərkəzinə doğru irəlilədikcə burada müasirliyin və tarixi gözəlliyin sehrinə qapılmamaq mümkün deyil. Doğrudan da, Ordubad qeyri-adi bir şəhərdir. Şəhərin yerləşdiyi ərazinin landşaft quruluşu elədir ki, burada istənilən nöqtədə dayandıqda hökmən hansısa bir mənzərəni seyr etmək mümkündür. Tarixi binalar, muzeylər, məşhur adamların adı ilə bağlı yerlər, nəhəng Ordubad çinarları, qədim meydanlar şəhərlə tanışlıq üçün geniş mövzu verən turizm ehtiyatlarımızdır. Qeysəriyyə muzeyi və digər mədəniyyət ocaqları ilə tanışlıq turislərdə dərin təəssürat yaradan



obyektlərdəndir. Şəhərlə ümumi tanışlıq proqramından sonra ekskursiyaya şəhərdəki çayxanaların birində fasilə vermək mümkündür. Qeyd edək ki, belə bir fasilə saatını da məzmunlu edə bilmək üçün əlimizdə kifayət qədər resurs vardır. Turistlərin məşhur Ordubad limonu ilə dəbdəbəli çay, yerli istehsal mürəbbələrin geniş çeşidi ilə tanış ola bilməsi üçün bundan yaxşı fürsət ola bilməz. Turistlər Ordubada içdiyi samovar çayının və Ordubad qutabının ləzzətini unutmayacaqlar.

Ordubad öz iqliminə görə ilin bütün fəsillərində gözəldir. Ancaq şəhərin yaşıllıq içindəki mənzərəsi xüsusilə

cəlbedicidir. Ona görə də Ordubada gətirdiyimiz qrupdakı turistlərə şəhərin digər görməli yerlərini gəzib-dolaşmaq, tarixi meydanlara baş çəkmək üçün sərbəst saatlar da verilə bilər.



Daha sonra şəhərin Qoşa çinar, Şoraçeşmə, Limon və ya Mənzərə kafelərinin birində turistlərə günorta yeməyi üçün ləziz Azərbaycan mətbəxindən nahar sifariş vermək olar.

Nahardan sonra Ordubada gəlmiş turistlərin adı dillərdə olan Ordubad quru meyvələri satılan bazara və digər ticarət obyektlərinə baş çəkməsi təklif oluna bilər. Əgər turistlər bunu istəsələr onda rayon iqtisadiyyatına da yaxşı töhfə verəcəklər. Bunun üçün də günortadan sonra, yəni ətraf kəndlərdən şəhərə gəlmiş yerli əhali seyrəldikdən sonra turistlər bazara və şəhərdəki hədiyyəlik əl işləri satılan mağazalara baş çəkib bol-bol alış-veriş edə bilərlər.

Ordubad rayonu çox güclü turizm potensialına malikdir. Ordubad şəhəri üzrə təqdim olunan bu proqramı daha da zənginləşdirib, başlanğıc nöqtəsi bu rayonun mərkəzi, son təyinat nöqtəsi Gənzə, Pəzməri, Gəmiqaya, Nürgüt, Məzrə

istiqamətləri üzrə əlavə marşrutlar da işləyib hazırlamaq mümükündür.

Ordubaddan geri dönüşdə turistlərə yolüstü Darıdağ Arsenli Su Müalicəxanası və Gülüstan türbəsi ilə də tanışlıq imkanları yaradıla bilər. Bu, Naxçıvan-Ordubad turizm marşrutunun rekreasiya dəyərini daha da artırar, turistlərdə zəngin təəssürat yaradar.



## *7. Naxçıvan-Duzdağ ekskursiya marşrutu*

Naxçıvanın təbii möcüzələrindən biri olan Duzdağın duş duz mağaraları buraya səfər edən bütün turistlərdə dərin tanışlıq və rekreasiya təəssüratı doğurur.

Duzdağa gəlmiş turistlərə təqdimat aparılarkən



məlumat verilməlidir ki, duzun müalicəvi gücü haqqında çox faktlar vardır. Belə ki, dünyada bir sıra ölkələrdə — Meksika, Rumıniya, Polşa, Ukrayna, Özbəkistan və digər yerlərdə duz mağarası üsulu ilə müalicə yerləri məlumdur. Lakin bu yerlərlə müqayisədə Duzdağın imkanları hesabına müalicənin təşkili fərqli xüsusiyyətlər daşıyır. Belə ki, buradakı təbii şərait pasiyentlərin mağaradan istifadə etməsi və müalicənin təşkili üçün çox əlverişlidir. Turistlərə məlumat verilməlidir ki, burada müalicə olunmaq istəyən pasiyentlərin əksəriyyəti dənizsahili və iqlimi rütubətli olan yerlərdən gələn insanlardır. Eləcə də Azərbaycanda da belə dənizsahili və nəmliyi yüksək olan yerlərdə yaşayan və astma xəstəliyindənə əziyyət çəkən insanlar vardır. Turistlər Duzdağ mağarasının yaxınlığındakı eyniadlı 5 ulduzlu müasir oteldə yer sifariş edə, mağarada VİP müştərilər üçün nəzərdə tutulmuş otaqlarda gecələyə bilərlər.

Mağarada olan turistlər bilməlidirlər ki, Naxçıvan duzu adi dəniz duzundan fərqlənir. Əsl Naxçıvan duzu ekoloji cəhətdən təmizdir, tərkibində ağır minerallar yoxdur və bir çox xəstəliklərin dərmanıdır. Naxçıvan duzunun tərkibindəki maqnezium ürək-damar xəstəlikləri olan insanların ondan istifadə etməsi üçün faydalıdır. Turistlərə bu yerin tarixi haqqında danışarkən bildirilməlidir ki, Duzdağdakı duz yataqları hələ çox qədim dövrlərdən insanlara məlum olub. Ehtimallara görə burada 3 min il bundan əvvəl duz çıxarlmışdır. İlk əvvəllər primitiv üsullarla daş duz çıxarılıb. Şərq və Qərb ölkələrinə gedən Böyük İpək Yolu Naxçıvan ərazisindən keçdiyindən buradan xam ipəklə yanaşı, daş duz da qiymətli sərvət kimi çox-çox uzaqlara ixrac olunmuşdur. Duzdağda əmək alətlərinin, daş baltaların hazırlanması bəşəriyyətin həyatında şəhərtipli inkişaf tərzinin də əsasını qoymuşdur. Bu mənada, duz dağı, duz mağarası, duz mədəni, duz bazarı anlayışları ilkin şəhərtipli yaşayış düşüncəsinin təməl ifadələrindəndir. Naxçıvanda da ilkin şəhərsalmanın yaranmasında və inkişafında Duzdağ mühüm rol oynamışdır. XIX əsrin 70-ci illərində Duzdağda aşkar olunan əmək alətləri, daş baltalar və çəkiclər, çapacaqlar, sonrakı dövrdə tapılan ocaq qalıqları Eneolit, Erkən Tunc və Dəmir dövrünə aid keramika məmulatları, qədim yaşayış yerləri Naxçıvanda Duzdağ mədəniyyəti haqqında ciddi elmi fikirlər yaradır. Buna görə də Duzdağ və onun ətrafı tanışlıq məqsədilə gələn turistlər üçün də böyük maraq doğurur. Belə ki, şaxtalarda qədim insan mədəniyyəti izlərinə də rast gəlmək mümkündür. Buradan tapılmış daş baltalar və digər primitiv alətlər indi Naxçıvan Dövlət Tarix Muzeyində, habelə Tbilisi və Sankt-Peterburq muzeylərində saxlanılır. Duzun okean altında formalaşması və Naxçıvan ərazisinin bir çox dəfə okean altında olması bu qədim yurdun Dünya tufanı və Nuh Peyğəmbərlə əlaqəli olduğunu sübut edən ən mühüm dəlildir.

Duzdağ Azərbaycan dilində iki sözün “duz” və “dağ” birləşməsidir. Bu yer əhalisi təqribən 100 min nəfər olan Naxçıvan şəhərindən 11 kilometr şimal-qərbdə yerləşir. XX əsrdə, 1950-ci illərdən başlayaraq burada duzun sənaye üsulu ilə geniş həcmdə çıxarılmasına başlanılmış, beləliklə, yer səthindən yüzlərlə metr aşağıda eyni anda çoxlu sayda insanın sığa biləcəyi nəhəng duz mağaraları yaranmışdır. Dünyada duz mağaralarında astma xəstəliyindən əziyyət çəkən insanların müalicə olunması üsulu — Speleoterapiya kəşf olunandan sonra Duzdağ həm də müalicə məkanı kimi tanınmışdır.

Duzdağa gəlmiş ekskursantlara bildirilir ki, burada 1979-cu ildə 50 çarpayısı olan xəstəxana fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-dək artırılıb 1980-ci illərin axırlarında SSRİ-nin süqut etməsi və Naxçıvanın blokadaya alınması ilə yaranan ağır sosial-iqtisadi vəziyyət Duzdağ xəstəxanasının işinə də mənfi təsir göstərib. Lakin tikintisi 2008-ci ildə başa çatdırılan Duzdağ Fizioterapiya Mərkəzi hazırda 450-yə yaxın yataq sayı, pasiyentlər və burada çalışan tibbi personal, eləcə də Duzdağa tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl şəraitə malikdir.



Təbii ehtiyatları təxminən 90 milyon ton təşkil edən Duzdağdan istifadə bir çox xüsusiyyətlərinə görə diqqəti cəlb

edir. “Duzdağ” Fizioterapiya Mərkəzi dəniz səviyyəsindən təqribən 1000 metr hündürlükdə yerləşir. Mərkəz duz mədənində, girişdən 300 metr məsafədə, 110 metr yerin altındadır. Duzdağda müalicə məqsədilə istifadə olunan işlənmiş şaxtaların ümumi uzunluğu 1,5 kilometrdir. Şaxtanın giriş qapısından əsas palatalara olan yol təxminən 300-350 metrdir. Üfüqi istiqamətdə uzanan bu yoldan ayrılan kiçik şaxtalar da vardır. Həmin mağaraların uzunluqları isə 40-50 metrdir. Həkimlərin fikrincə, hər gün yeraltı şöbəyə bu qədər yolu piyada getməyin özü də xəstələr üçün xeyirlidir. Bu halda xəstələr şaxtalarda iqlim şəraitinə də tədricən uyğunlaşırlar. Şaxtaların üfüqi olması onu digər bu tipli mualicə ocaqlarından fərqləndirir.



Naxçıvanda iqlimin quru və kontinental, günəşli günlərin sayının çox olması da müalicənin effektli aparılmasına öz təsirini göstərir. Duzdağ şaxtalarını allergiyasız mühit adlandırırlar. Buradakı temperatur, qışda 18C°, yayda 20C° dərəcə arasında dəyişir. Buna görə də müalicə ilin istənilən vaxtında aparıla bilər. Duzdağ şaxtalarında mövcud olan oksigen havanın 20 faizini təşkil edir. Mütəxəssislərin fikrincə ağciyər xəstəliklərindən əziyyət çəkənlərə şəfa verən də elə bu təmiz oksigendir. Antibakterial xassəyə malik duzun

tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəliklərinin müalicəsini sürətləndirir. Üfüqi istiqamətdə uzanan yeraltı mağarada atmosfer təzyiqi sabit olduğundan yaşlılar üçün bu, problem yaratmır. Burada ventilyasiya təbii olub, mikrorqanizmlər çox azdır. Şaxtalarda bakteriyaların miqdarı yerüstü səthin havasındakı mikrobların miqdarından 8-10 dəfə azdır. Palataların yerləşdiyi şaxtalar ekoloji cəhətdən yüksək təmizliyə malik olub, metan qazı kimi zəhərli qazlar ümumiyyətlə yoxdur.

"Duzdağ" Oteli Fizioterapiya Mərkəzində hər cür tibbi xidmətlər vardır. Xəstələr daim tibbi personalın nəzarətində olurlar. Gundüz saatlarında onlar yaxınlıqdakı beş ulduzlu Duzdağ otelinin komfortlu otaqlarında istirahət edə, buradakı sağlamlıq və əyləncə mərkəzlərində asudə vaxt keçirə bilərlər. Duzdağ həm də mühüm tədqiqat obyekti kimi dövlətin diqqət mərkəzindədir. Onun turizm dövriyyəsinə cəlb olunmasında 2012-ci ilin iyul ayında keçirilmiş "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda elmi konfransın mühüm əhəmiyyəti olmuşdur. 12 sentyabr 2017-ci il tarixdə isə Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdırılməsini, elmi araşdırmalar zamanı əldə olunmuş maddı-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Duz Muzeyi yaradılması haqqında qərar qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 16 may 2019-cu il tarixli Sərəncamı ilə Duzdağ Fizioterapiya Mərkəzinin tibbi əhəmiyyəti və muxtar respublikada turizmin inkişafındakı rolu nəzərə alınaraq Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin geniş qeyd edilməsi isə buranın turizm-tanıtım və müalicə potensialından xəbər verir.

Naxçıvana səyahət edən hər bir turist, hər bir fəxri qonaq Duzdağla tanış olur. Xüsusən, 2009-cu ildə Naxçıvanda ölkəmizə rəsmi səfər etmiş dövlət başçılarının zirvə toplantılarının keçirilməsi, ölkə Prezidenit cənab İlham Əliyevin və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın Duzdağ şaxtalarında olması Duzdağın şöhrətini bütün dünyaya yayan mühüm faktorlardandır.



## *8. Naxçıvan şəhəri üzrə ekskursiyalar*

Ekskursiyalar zamanı təqdim olunan məlumatlar turistlərin yaddaşında əsas təəssüratları formalaşdırır. Bu baxımdan, Naxçıvan şəhərinə ekskursiyaların təşkili zamanı




turistlərə təqdim olunması zəruri hesab olunan obyektlər haqqında yaxşı bilik və peşəkarlıq tələb olunur.

Müasir Naxçıvanın turizm cazibədarlığı xeyli yüksəkdir. Qədim diyarın tarixiliyinin qorunub saxlanılması ilə yanaşı, onun müasirliyə qovuşması ilə muxtar respublikaya səyahət edən əcnəbi turistlərin də sayı artmaqdadır. Naxçıvana gəlmiş bu turistlər maraqlı yerlər görmək, naxçıvanlıların həyat tərzi, məşğuliyyəti, mədəniyyəti ilə tanış olmaq istəyi ilə gəzintiyə çıxır və ya onlar üçün xüsusi şəhər ekskursiyaları təşkil olunur. Buna görə də əsas səyahət məqsədi tanışlıq və rekreasiya olan turistlərə təqdim olunan bütün əlavə xidmət və informasiya bu təəssüratları daha da dərinləşdirən amillərdəndir.

Naxçıvan Muxtar Respublikasına gəlmiş turistlər Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu dərhal görürlər. Sirr deyil ki, əcnəbi turistlər ölkəmizin neftlə zəngin

olduğunu yaxşı bilirlər. Amma bu da bir həqiqətdir ki, dünyada Azərbaycan kimi neftlə zəngin olan digər ölkələr də vardır ki,



burada neft gəlirlərinin əhalinin ümumi rifahına, abadlığa və müasir infrastruktur yaradılmasına sərf olunması çox cüzi səviyyədədəir. Bu baxımdan, ölkəmiz haqqında yalnız neftlə bağlı olan təsəvvürləri qırmaq üçün turistlərin Naxçıvan Muxtar Respublikasına səfərləri əla fürsətdir. Belə ki, turistlərin Naxçıvanda gördükləri regional inkişafın təqdimatı baxımından çox gözəl nümunədir.

Turistlərin Naxçıvan şəhəri ilə ilk tanışlığı zamanı qaydalara uyğun olaraq onlara şəhərin tarixi barədə qısa məlumat verirlir. Belə ki, turistlər bilməlidirlər ki, Araz çayı üzərində yerləşən Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Qədimdə Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə yaxın əlaqələrinin olması buradakı əhalinin həyatına çox böyük təsir göstərmiş, ərazidə erkən şəhər mədəniyyəti əlamətləri daha tez meydana çıxmışdır. Naxçıvan şəhəri haqqında yazılı mənbələrdəki ilk məlumatı eramızdan əvvəl tarixçi İosif Flaviy və yunan coğrafiyaçısı Klavdi Ptolemey özünün "Coğrafiya" əsərində

vermişdir. Turistlərə o da vurğulanmalıdır ki, qədim dövrdə Yaxın və Orta Şərqdə mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzinə çevrilən Naxçıvanın Kiçik Asiya ölkələri ilə, İranın, Gürcüstanın şəhərləri ilə və Qara dəniz limanları ilə ticarət əlaqələri olub.



Daha sonrakı dövrlərdə Atabəylər dövlətinin əsas ticarət və sənətkarlıq mərkəzinə çevrilən Naxçıvan şəhərinin XII əsrin 30-cu illərinin sonundan 1175-ciilədək bu dövlətin paytaxtı olması faktı turistlərin diqqətinə çatdırılmalıdır. Bundan sonra şəhərin 1747-ci ildə Naxçıvan xanlığının paytaxtına çevrilməsi 1827-ci idə Çar Rusiyasının qoşunları tərəfindən işğal edilməsi və Rusiya-İran müharibələrinin nəticəsi olaraq 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Rusiya imperiyasının tərkibinə qatılması turistlərə çatdırılır.

1905-1906 və 1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində Naxçıvanda da kütləvi qətllər törədilməsi faktı əcnəbi turistlərin diqqətinə çatdırılmalıdır. Daha sonra 1918-ci ildə Naxçıvanda Araz Türk Respublikası yaradılması, 1919-cu ilin əvvəllərində ingilislərin Naxçıvanı tutması ilə Araz Türk

Respublikasının süqut etməsi də turistlər tərəfindən maraqla qarşılanan faktlardandır. 1920-ci ildə Naxçıvanda Sovet hakimiyyətinin elan edilməsi, 1921-ci ilin yanvarında keçirilən referendumda əhalinin 90 faizinin muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmağa səs verməsi də yaxın keçmişdəki maraqlı hadisələr kimi Naxçıvanın Azərbaycanın əsas hissəsindən necə aralı düşməsini göstərən faktlar olaraq turistlərə çatdırılır. 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars müqavilələri ilə Naxçıvan Muxtar Respublikasının statusunun əsasının qoyulduğu, 1924-cü il fevralın 9-da Naxçıvan MSSR-in təşkil edildiyi və Naxçıvanın paytaxt şəhəri olduğu da təqdimatda turistlərin diqqətinə çatdırılır. Bildirilir ki, hazırda Naxçıvan Muxtar Respublikasının paytaxtı kimi şəhərə 1 qəsəbə və 5 kənd tabedir. Şəhərin ərazisi təxminən 190 kvadrat kilometrdir. Əhalisi 100 min nəfərə qədərdir. Həmçinin Naxçıvan şəhərinin ərazisindən mühüm avtomobil və dəmir yollarının keçdiyi, burada Beynəlxalq Hava Limanının olduğu, Naxçıvan şəhərinin 2018-ci ildə "İslam mədəniyyətinin paytaxtı" elan olunduğu, şəhərdə 3 ali məktəb, çox sayda orta təhsil, musiqi və idman məktəblərinin, muzeylərin, mədəniyyət ocaqlarının, parkların, Olimpyia idman kompleksinin, səhiyyə ocaqlarının, mehmanxana, əyləncə və sənaye müəssisələrinin olduğu da turistlərin diqqətinə çatdırılır. Naxçıvan şəhəri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, Memar Əcəmi, Hüseyn Cavid, Bəhruz Kəngərli, Cəlil Məmmədquluzadə, Cəmşid Naxçıvanski kimi tarixi şəxsiyyətlərin vətənidir. Şəhərə gəlmiş turistlər onların adları ilə bağlı məkanları, ev muzeylərini də ziyarət edə bilərlər.

Ekskursiyalar turistlərin real tanışlıq tələbatları üzərində yaranıb inkişaf edən və buna görə də turistlərlə iş zamanı reallıqların nəzərə alınmasını tələb edən bir fəaliyyət növüdür. Məsələn, Naxçıvana Orta Asiyadan gəlmiş turistlərə Möminə Xatın türbəsini təqdim edərkən onlar öz şəhərlərində

belə türbələrin bir deyil, onlarla olduğunu deyə bilərlər. Amma qonaqlara həmin abidələrin ən qədiminin yalnız XIV əsrə, yəni Əmir Teymur dövrünə aid oluğunu, Naxçıvandakı bu abidənin isə onlardan iki yüz əvvəl ucaldıldığını çatdırsaq, bu bütün turistlər üçün çox təəccübləndirici olar. Yəni, ekskursantlar Naxçıvanın Şərq memarlığının məktəbi olduğunu hökmən bilməlidirlər. Naxçıvana gəlmiş turistlər şəhərlə tanışlıq zamanı küçələrdə rəssam əli ilə işlənilmiş kimi səliqəli gülkarlıqlarla tanış olub Naxçıvanın dünyanın ən təmiz şəhərlərindən biri olduğunu biləcəklər. Servislərdəki keyfiyyətə gəldikdə, Naxçıvana gələn turistlər burada servis sektorunda fəaliyyət göstərən personaldan istənilən bir nəfərə bütün məsələlərdə etibar edə bilərlər. Çünki, bu diyarın sakinlərində olan dürüstülk əsas insani keyfiyyətlərdəndir.

Naxçıvana gəlmiş qonaqları çox maraqlı tanışlıqlar gözləyir. Hazırda şəhəri yaxından görmək istəyən turistlərin tələbatlarına uyğun olaraq müxtəlif məzmunlu qısa və ya bir



neçə saatlıq tur gəzintiləri təşkil etmək olar. Belə ki, Naxçıvan şəhərinin görməli yerləri ilə tanışlıq məqsədilə adətən gündə iki

dəfə olmaqla turistlər üçün şəhər turları təklif olunur. Turistlərin maraq dairəsi və boş vaxtlarını nəzərə alaraq onlara təklif olunan belə turların planlaşdırılması zamanı buradakı elm, mədəniyyət, təhsil, istehsal, xidmət və əyləncə müəssisələrinin sırasını müvafiq qaydada tərtib elmək olar. Söz yox ki, mədəni səviyyəsi yüksək olan istənilən qonaq Naxçıvanın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ana Vətəni olması faktına böyük maraq göstərir. Müxtəlif məqamlarda şəhərimizə gəlmiş əcnəbi turistlərlə iş zamanı Naxçıvanın Azərbaycan tarixində, xalqımızın mədəniyyətindəki yeri ilə bərabər həm də milli müstəqilliyimizin əldə olunmasındakı rolunun da çox maraqla



dinlənildiyni görmüşük. Odur ki, Naxçıvan şəhəri ilə tanış olmaq istəyən turistlərin ekskursiya proqramında Heydər Əliyev Muzeyi ilə tanışlıq çox maraq kəsb edir.

Naxçıvan şəhəri üzrə tanışlıq turunun birinci günündə Heydər Əliyev Muzeyinə ziyarətdən sonra ekskursiya şəhərin cənub-şərq hissəsində yerləşən “Koroğlu” heykəlinə baxış və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi üzrə davam etdirilir. Şübhəsiz “Naxçıvan” toponominin Nuh

Peygəmbərin adı ilə bağlı olması və buranın qədim şəhər mədəniyyəti haqqında danışmaq üçün bu kompleksdə kifayət qədər çox maddi-mədəniyyət nümunəsi vardır. Naxçıvanqala cənub-şərq istiqamətdən şəhərin mərkəzinə girəcəkdə yerləşir. Qalaya daxil oduqda buradakı tarix izləri turistlərə özü hər şeyi deyir.

Naxçıvanqalada və ona yaxın Nuh Peyğəmbərin məzarüstü türbəsində yaxşı təşkil olunmuş ekskursiya və peşəkar təqdimat turistlərin zamanının səmərəli keçməsinə imkan yaradır. Əgər nahar fasiləsi də yaxınlıqdakı Nuh yurdu restoranında sifariş olunmuşsa, bu ekskursiya təşkili baxımından uğurlu kompozisiya olacaqdır. Bundan sonra,



"Buzxana" tarix-memarlıq abidəsində turistlərə təklif olunan çay süfrəsi, buranın abı-havası qonaqların yaddaşında uzun müddət yaşayacaqdır.

Nahardan sonra turun ilk gününün ikinci yarısı turistlərin Naxçıvan Duzdağı ilə tanış olması üçün əla vaxtdır. Təqribən saat 6-ya qədər, yəni burada müalicə olunan pasiyentlərin gəlişinə qədər tur qrupuna Duzdağın tarixi, onun müalicəvi əhəmiyyəti və imkanları haqda geniş informasiya vermək mümkündür. Bu zaman fasiləsində Duzdağın sərin və oksigenlə zəngin havasında yaxşıca dincəlmiş turistlərə axşama

yaxın şəhərdəki restoranların birində ləziz Naxçıvan mətbəxindən axşam yeməyi təklif oluna bilər.

Naxçıvan şəhəri üzrə turun ikinci günü daha mənalıdır. İlk olaraq, şəhərin cənub hissəsində ucaldılmış xalq qəhrəmanı Babəkin atlı heykəli ilə tanışlıq yerinə düşər. Ümumiyyətlə, Naxçıvan şəhərinin meydanları öz atlı heykəlləri ilə diqqəti cəlb edir. Şəhərə doğru dönüşdə "Naxçıvan" Universitetinin müasir kampusu, daha sonra müasir üslubda inşa olunmuş Şərq hamamı ilə tanışlıq qonaqların təəssüratlarında tarix və müasirlik anlayışının necə sintez olunduğunu möhkəmləndirəcək. Nahara qədər Xan Sarayı, Möminə xatın türbəsi və Açıq Səma Altında Muzey Kompleksində keçirilən bir neçə saat vaxt ərzində turistlər Naxçıvanın qədim tarixinə bir daha şahidlik etmək imkanı qazanacaqlar. Açıq Səma Altında Muzey və XII əsr Azərbaycan memarlıq məktəbinin görkəmli nümayəndəsi Memar Əcəminin yaratdığı Möminə xatın türbəsi bu bölgədə analoqu olmayan bir tarixi zənginlikdən xəbər verir. Yeni istifadəyə veilmiş Milli yeməklər restoranındakı nahar yeməyindən sonra turistlərin Dövlət Bayrağı Meydanı və Muzeyi və eləcə də Naxçıvan Dövlət Universiteti  ilə tanışlığı şəhərin ümumi panoramasını görmək üçün əla imkandır. Bundan sonra axşamüstü saat 5-dən şam yeməyinə qədər turistlərə ənənəvi olaraq sərbəst vaxt vermək mümkündür.

Günün sonunda, Təbriz mehmanxanasının 13-cü mərtəbəsindəki Panorama restoranında verilən vida yeməyindən sonra öz ölkələrinə yola düşən turistlərin bu qədim Azərbaycan torpağının gəzməli-görməli yerləri ilə tanışlıqdan dərin təəssürat aldığını deyə bilərik.

## III FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ PERSPEKTİV TURİZM MARŞRUTLARI

### *1. Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu*

Hər il turizm mövsümündə, xüsusən qızmar yay günlərində Şahbuz dağlarına istirahət üçün gələnlərin sayında artım olur. Rayonun kəndlərində turistlərin yerləşdirilməsi üçün hosteltipli evlərin yaradılması, kənd infrastrukturunun



buna çox əlverişli olması və şübhəsiz buradakı bənzərsiz landşaft gözəllikləri ilə təbii-iqlim ehtiyatları buna təsir edən əsas amillərdəndir. Şahbuzun iri yaşayış məntəqələrindən olan Kükü kəndinə də üz tutan qonaqların da əsas motivləri məhz bunlardır. Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu da bir sıra cazibədar xüsusiyyətlərinə görə belə turizm marşrutlarındandır.

Naxçıvan şəhərindən təximinən 50, rayon mərkəzi Şahbuz şəhərindən 12 kilometr məsafədəki Kükü kəndi dəniz səviyyəsindən 1900-2100 metr yüksəklikdə, Naxçıvançayın ən böyük qollarından biri olan Küküçayı yatağında yerləşir. Gursulu bumbuz bulaqlar, sərt qayalar, yaşıl çəmənlərlə yanaşı, qışın mülayim, yayın da sərin olduğu Kükünün iqlim resursları

da turistləri bu kəndə cəlb edən əsas faktorlardandır. Yayın orta ayından başlayaraq demək olar ki, hər gün Qanlıgöldən əsən sərin dağ küləkləri də buranın havasının saflığına çox təsir edir. Münbit qara torpaq örtüyü bu kənd ərazisində alma və digər meyvə-tərəvəzin, hətta yabanı pencərlərin də minerallarla zəngin və özünəməxsus dad-tamlı olmasına imkan verir. Təmiz hava və kristal kimi şirin su ehtiyatları da yabanı dağ pencərlərindən tutmuş nəfis Kükü balınadək hər bir orqanik nemətin yüksək kefiyyətində, onların ləzizliyində mühüm şərtdir ki, bu da bilavasitə insanların sağlamlığı deməkdir. Xüsüsən, yay fəslində Küküyə gəlmiş qonaqlar təbiətin bu torpaqdan heç nəyi əsirgəmədiyinə bir daha inanırlar.

Kükünün təbiəti çox rəngarəng və bənzərsizdir. Bir



çoxlarının nəzərində Kükü kəndi dağ boyda qayaların üzük qaşı kimi səf çəkdiyi zirvələrə yadda qalsa da burada digər təbii cazibə elementləri istənilən qədərdir. Həm də ilin dörd fəslində. Kükündə yazın ilk ılıq nəfəsi düyüldüqca sürətlə canlanıb boy atan yaşıl təbiət payız girənə qədər öz təravətini saxlayır. Qabaqlıdan Qanlıgölədək güneyin quzeylə bir-birini əvəzlədiyi sıra dağların döşündəki lalə-nərgizli təpələr insanın ruhunu oxşayır. Naxçıvançayın ən böyük qolu olan Küküçayı mənbəyi Araz çayınadək olan uzun yolçuluğuna məhz buradan, Gurbulaqdan başlayır

Kükü həm də bağlar məskənidir. Kükü alması kimi yaxşı tanınan və yerli şəraitə uyğunlaşaraq özünəməxsus dad-tamı və mineral tərkibi ilə seçilən alma sortlarından başqa burada yetişən armud, cəviz, almaxara, gilas, gilənarın da xüsusi keyfiyyəti vardır. Kənddəki bostanlar arandakından düz bir ay gec yetişsə də iyun və iyul aylarının bol günəşiylə qidalanan tərəvəz məhsulların dadından doymaq olmur. Odur ki, yay aylarında kəndə istirahətə gəlmiş turistlərin süfrəsinə düzülmüş yerli məhsullar qastronomiya həvəskarları üçün də yaxşı təəssürat yaradır.

Yay günləri uzun olsa da Kükü kəndinə və eləcə də belə dağlıq kəndlərə gəlmiş qonaqlar üçün zaman çox sürətlə keçir. Şübhəsiz, yandırıcı Günəşin olmağıdı, bir birindən maraqlı kənd həyatı elementlərinin mövcud olduğu bir kənddə keçirilən tətlil günləri səhərin sübh saatlarından başlasa da axşamın necə düşdüyünü adam heç özü də bilmir. Gecələr sanki qışdakıymış kimi isti yorğana bürünüb yatmaq isə şəhərin istisində yaşana bilinməyəcək bir rekreasiyadır. Yay aylarında şəhər camaatı, xüsusən məktəbli uşaqlar gecə gec yatıb, səhər gec oyanmağa adət etsələr də kənddə bunun əksinə olan həyat ritmi insanların fizioloji gümrahlığına da çox kömək edir.

1500 nəfərə yaxın əhalisi olan Kükü kəndində onlarla iri ailə təsərrüfatçısı və torpaq mülkiyyətçiləri vardır. Kükü dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşdiyi üçün burada istehsal olunan məhsullarin, xüsusən də dərman birkilərindən şirə hasil olunan balın ayrı bir keyfiyyəti vardır. Elmi ədəbiyyatlarda dərman bitkilərinin yayılma areasına görə təkcə Cənubi Qafqazda deyil, bütün Avropada seçilən bir ərazi olan Dərələyəzin cənub yamacları - Dərəboğazındakı arı pətəkləri də bal şirəsini məhz bu unikal dərman bitkilərindən çəkir. Odur ki, Kükünün saf təbiəti və unikal florası burada herbari turizmi ilə yanaşı həm də sağlamlıq turizmi üçün də imkanlar açır. Kənddə hətta bir vaxtlar, ötən əsrin 70-80-ci illərində yay

məktəbli düşərgəsi olmuş və deyilənə görə burada iqlim kurortu da yaradılması gündəmdə olub.

Şirin sulu bulaqlar bütün Şahbuzun, xüsusən Kükünün əsl sərvətidir. Kükünün bulaqları tarixən burada insanların məskunlaşmasının əsas səbəblərindən biri olub. Böyük ehtimal ki, qədimdə indiki soyuducuların olmadığı, yaxud su xətti çəkmək və ya suyu saxlamaq üçün geniş imkanların olmadığı bir vaxtda buz kimi sərin sulu bulaqlar bu bölgədə məskunlaşmış insanların normal yaşayışı, keyiyyətli qidalanması üçün ən zəruri səbəblərdən biri olub. Belə bulaqlar isə Kükü kəndi və ərazisində yüzlərlədir. Kəndboyu bəzən iti, bəzən də səssiz-sakit axaraq xan Araza qovuşmağa tələsən Küküçayını ilbouyu demək olar ki tam sabit şəkildə, dəqiqədə 1500 litrdən artıq debitlə qidalandıran Gurbulaq isə buradakı



canlı həyata can verən əsl təbiət möcüzəsidir. Deyilənə görə Gurbulaq kimi gursulu digər bir bulaq da simmetrik şəkildə Dərələyəz dağının o biri üzündə, tarixi Qərbi Azərbaycan torpağında çağlayır. Beləcə, Gurbulağın suyu heç tükənmədən min, bəlkə də on, yuz minillər boyu əcdadlarımızın su yaddaşına hoparaq Küküçayı dərəsi boyu yaşayan insanların həyatına, məişətinə və mədəniyyətinə öz təsirini göstərib. Bu elə indi də belədir. Harada yaşamağından asılı olmayraq dədə-babası Kükündən olan hər bir kəs Gurbulağı öz ailə şəcərəsi

kimi tanıyır, onunla fəxr edir. Eləcə də Kükü dağı yamacında sıra ilə düzülmüş Qırxbulaq, gözündən süd kimi su qaynayan Südlübulaq, iri qayalar arasında haradan çıxdığı hələ də bilinməyən Pünhanbulaq, kəndli gənclərin və qonaqların sevimli istirahət məkanı olan Söyüdlü bulaq, kəndin az qala yarısını içməli su ilə təmin edən Qulubulağı kimi çoxsulu bulaqlar kəndin tanınan səfalı yerlərindəndir.

Bu turizm marşrutu üzərində Kükü kəndindəki cazibə elementləri arasında Dərələyəz silsiləsinin Küküdağı, Qanlıgöl və Keçəldağ, eləcə də Gurbulaq istiqamətləri daha çox diqqəti cəlb edir. Belə ki, Küküyə gəlmiş turistlər buradakı lüks kənd evlərinin birində qalmaq üçün yerləşdikdən sonra üç gün ərzində Qabaqlı, Gurbulaq və Qanlıgöl istiqamətlərində turlara çıxa bilərlər. Bu turlarda əsasən, ekoturizm və ekstrim yürüş üzrə zəngin məzmunlu proqram hazrlamaq olar. Qabaqlı istiqamətində sərt qayalıq relyef, unikal biomüxtəliflik və herbari toplama, landşaft və canlı təbiət üzrə fotoovçuluq üçün əlverişli imkan vardır. Coğrafi mövqeyinə görə bu istiqamətdə turlar yay aylarında günün ikinci yarısında daha məqsədəuyğundur. Belə ki, yürüşə çıxmış turistlər ekstrim və yürüş təcrübəsi qazana, Kükü kəndinin Zəngəzur dağlarınadək uzanan panoramik görüntüsündən zövq ala bilərlər.



Turizm marşrutunun əsas cazibə nöqtəsi olan Gurbulaq istiqamətində hərəkət edən turistlər üçün isə səhərin erkən

saatları daha sərfəlidir. Kənddən təxminən 5 kilometr məsafədəki yolun bir hissəsini avtomobildən də istifadə edə bilən turistlər üçün Gurbulaq və ətrafının ecazkar mənzərələri, buradakı zəngin biomüxtəliflik, avqust ayının əvvəllərinədək təbii halda qorunub saxlanılan qar, bumbuz bulaqlar, Gurbulağın qaynayan mənbəyi və onun bir az aşağıdakı möhtəşəm şəlaləsi, qırmızı rəngli qayalıqlardan süzülüb gələn Qırxbulağın görüntüsü çox cazibədardır. Gurbulaq və ətrafı turistlərə yay aylarında, xüsusən iyul və avqust aylarında üç fəsli bir arada görməyin zövqünü yaşadan unikal yerlərdəndir. Belə ki, buradakı dərələrin quzeyində saxlanılıb qalmış qalın qarın ağzında təzəcə boy atan yarpız, cacıq, baldırğan tapmaq olar. Nahar yeməyini və səyyari çadırlarını hazır götürmüş turistlərin bütün günü burada qalıb, hətta Qaladibində gecələmək, buradakı qədim insan məskəni ilə tanış olmaq, vəhşi arıların balından toplamaq üçün unkal ekstrim təcrübəsi qazana bilmələri mümkündür.

Kükündən Qanlıgölədək təxminən 7 kilometr məsafə vardır. Bu yolun demək olar ki, tamamını avtomobillərlə gedə bilən turistlər istəyə görə piyada da hərəkət edə bilərlər. Günəşin mövqeyinə görə əsasən səhər erkən Qanlıgölə doğru səfərə çıxmaq daha məqsədəuyğundur. Qanlıgölə gələn turistlər yolüstü, qarşı tərəfdəki Qabaqlı massivinə və 3120 metr yüksəklikdəki Kükündağının zirvəsinin tam panoramik görüntüsünə tamaşa edə bilərlər. Yolüstü turistlər bir zamanlar yurd yeri olmuş və dəniz səviyyəsindən 2500 metrədək hündürlükdə yerləşən qədim Zırnel kəndinə uzaqdan tamaşa edə, minerallarla zəngin bulaqlardan su içə bilərlər. Qanlıgölə çatmış turistlərə bildirilməlidir ki, bu göl tamamən qar və bulaq sularından qidalandığı üçün onun lillə dolması da baş verməmişdir və gölün suyu tam şəffafdır. Yayın son günlərində suyun qıt vaxtlarında suvarma üçün istifadə olunan 1 milyon kubmetr tutumlu bu gölün əsas bəndi təxminən 150 il əvvəl tikilmiş və haliyədə istifadədədir. Güman ki, keçmişdə burada

boğulma halları olduğu üçün gölün adı da buradan qalıb. Qanlıgöl və ətrafı Naxçıvanın qədim yurd yerlərindəndir. Burada elə "Yurd" adı ilə də adlandırılan böyük bir ərazidə bolsulu bir bulaqla yanaşı qədim insan məskənlərinə xas olan maddi-mədəniyyət nümunələri, müsəlman məzarlığı, döyüşçü qəbirləri və insan məskəni izləri qalmaqdadır. Tarixi mənbələrə əsasən, dəniz səviyyəsindən təxminən 3 min metr yüksəklikdəki bu ərazilər keçmişdə yaşayış məskəni olub, döyüşlərə şahidlik edib.

Qanlıgölə gəlmiş turistlər burada keçirilən vaxt ərzində yaylağa köçmüş çobanların həyat və məişəti ilə tanış olmaq, onların mətbəxindən, xüsusən təndir kababı və ocaqda qaynadılmış limonlu kəklikotu çayından dadmaq, çadırlarda dincəlmək imkanı qazana bilərlər. Daha sonra şimal-şərqdə 3115 metr hündürlüyü olan Keçəldağ istiqamətində hərəkət edən turistlərlə birgə uzaqdan Naxçıvanın turizm incisi Batabat



meşələrinə quşbaxışı nəzər salmaq üçün Hörgülüyədək yürüş etmək mümkündür.

Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu muxtar respublikamızın perspektivi böyük olan turizm marşrutlarındandr. Bu marşrutun test olunması və gələcəkdə populyarlıq qazanması bu istiqamətdə turizmin daha da inkişaf etməsinə imkan yaradacaq.

## *2. Naxçıvan-Sədərək turizm marşrutu*

Naxçıvan-Sədərək turizm marşrutu bir sıra xüsusiyyətlərinə görə olduqca cazibədardır. Bu marşrut muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindən başlayaraq qərbə doğru təqribən 90 kilometr boyunca uzanır. Marşrut təxminən 30 kilometr məsafədə Naxçıvan-Qarabağlar turizm marşrutu ilə üst-üstə düşür. Yol boyunca Sədərək rayonunadək Naxçıvan



Muxtar Respublikasının ən böyük inzibati ərazi vahidlərindən biri olan Şərur rayonu ilə də ümumi tanışlıq mümkündür. Belə ki, bu tip marşrutlar adətən birgünlük olduğundan tur proqramların tərtibi zamanı rəngarənglik üçün yolboyu yaşayış məntəqələrindəki tarixi-mədəni zənginliklərlə tanış olmaq, milli mətbəxdən dadmaq olar. Dünya standartlarına uyğun olaraq inşa edilmiş müasir yolla hərəkət edən turist avtobusu normal sürətlə təxminən bir saat yarımlıq bir müddətdə qardaş Türkiyə Cumhuriyyəti ilə qonşu olan Sədərək rayonuna çatır. Burada turistləri Vətənimizin ən qərb nöqtəsi, yurdumuzun döyünən ürəyi, Naxçıvanın qeyrət qalası Sədərəklə mükəmməl tanışlıq gözləyir.

Sədərək mühum strateji nöqtədə yerləşir. Üç dövlətlə həmsərhəd olan rayon inzibati mərkəzi ulu öndərin adını daşıyan Heydərabad qəsəbəsi, Sədərək, Qaraağac, Dəmirçi və Kərki kənd inzibati ərazi dairələrindən ibarətdir. 1990-cı ildə Kərki kəndi Ermənistan işğalçıları tərəfindən zəbt edildiyindən rayon əhalisi hazırda 3 yaşayış məntəqəsində cəmləşib.

Heydərabad qəsəbəsi və Sədərək kəndinin müasir sosial həyat ilə tanış olan turistlərə bildirilməlidir ki, Sədərək kəndi təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin iri kənd yaşayış məntəqələrindən biridir. Bir çox mənbələrdə adı "Səd rəng" yəni "Min rəng" kimi qeyd olunan bu kənddə Sədərək qalası, Ağ oğlan, Kültəpə kimi çox sayda türk mənşəli toponimlər vardır.

Sədərək haqqında turistlərə təqdimata başlayarkən yaxın keçmişdə sədərəklilərin xalqımızın qəhrəmanlıq tarixindəki yerini unutmaq olmaz. Ona görə də, aralarında qadın, kişi, qoca, cavan — 52 nəfər sədərəkli şəhidin uyuduğu Şəhidlər xiyabanını ziyarətdən sonra Sərədəklə tanışlığa başlamaq olar. Buraya səfər etmiş turistlər bilməlidirlər ki, burada erməni təcavüzkarlarına qarşı ilk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Təkcə 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Həmin illərdə Naxçıvanın bütün bölgələrindən, həmçinin ölkəmizin digər yerlərindən Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 nəfər azərbaycanlı şəhidlik zirvəsinə ucalıb ki, onlardan 52-si sədərəklidir. Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyindəki zəngin eksponatlar arasında belə tarixi sənədlərlə tanış olan turistlərdə heç zaman unudulmayacaq təssüratlar yaranacaq.

Sədərəyə gəlmiş hər bir qonaq 1918-ci ildə erməni quldurları Naxçıvana hucum edərkən buranı mudafiə etmək üçün köməyə gələn Türk Ordusunun əsgəri Əli Çavuşun qəbri

üzərindəki abidəni ziyarət edərkən şəhidin qəhrəmanlıq hekayəsini maraqla dinləyir. Deyilənə görə, qəhrəman Türk əsgəri Şərur rayonunda Qaratəpə adlanan yerdə yaralanıb şəhid olur və vəsiyyətinə görə Sədərəkdə dəfn edilir. Hər dəfə insanlar Şəhidlər xiyabanına gələrkən Əli Çavuşun da qəbirüstü abidəsi ziyarət olunur.

Sədərəkdən baxarkən qardaş Türkiyə ərazisindəki Ağrı dağının mükəmməl mənzərəsi mühüm təbii cazibə elementi kimi buraya gəlmiş turistlər üçün maraqlıdır. Bölgənin ən yüksək zirvəsi olan bu dağın Sədərəkdən açılan panoraması fotoovçuluq və yaxud günbatımı (sunset) turizmi həvəskarları üçün olduqca cazibədardır. Sədərək rayonu ilə Ağrı dağı arasındakı yol məsafəsi təxminən 200 kilometr olsa da aydın havalarda görüş məsafəsi çox yaxın olur. 5 min metrdən çox hündürlüyə malik olan Böyük Ağrı və 4 min metrə yaxın hündürlüyü olan Kiçik Ağrı Anadolunun ən yüksək zirvələri kimi ilin bütün fəsillərində öz gözəlliyi ilə onu ilk dəfə görənləri heyran edir. Qeyd edək ki, Nuh tufanı əfsanəsi ilə adı məşhur olan Ağrı dağının yalnız Sədərəkdən olan bu qoşa görüntüsü məhz bu rayonun təbii turizm cazibədarlığını artıran amillərdəndir.

Tarix həvəskarları kimi Sədərəyə gələn turistlər üçün baradakı Eneolit, Tunc dövrlərinə və orta əsrlərə aid yaşayış yerləri təqdim oluna bilər. Sədərəyin cənubunda e.ə. IV-III minilliyə aid yaşayış yeri vardır. Burada Əjdəkan, Cin təndiri, Cəhənnəmdərə, Şir arxı, Dəhnə, Qırmızılar, Fərhad arxı, Kültəpə, Ağ oğlan, Karvansara, Ələddin, Qaraburun və digər tarixi yer adlan maraq kəsb edir. Buradakı Sədərək qalasının izləri bu günədək qalmaqdadır. Rayon ərazisində tarix-memarlıq abidələrindən 3 məscid, orta əsrlərə aid qala xarabalığı, müdafiə istehkamı, karvansara, Ağ oğlan piri, XIX-XX əsrin əvvəlində tikilmiş hamam binası vardır. Qədim İpək Yolu üzərindəki Naxçıvan karvansaralarından biri olan Sədərək kəndinin cənubundakı karvansaranın XX əsrin əvvəllərinə

qədər fəaliyyət göstərdiyi tarixçilər tərəfindən sübut olunub. Sədərək rayonu ərazisində bu gün də yaşamaqda olan Günnüt və ya Küngüt toponimi turistlərə maraqlı gəlir.

Sədərəyə gəlmiş turistlər üçün "Ağ oğlan" əfsanəsi cazibədar ola bilər. Yerli əhali arasında yayılmış əfsanəyə görə qədim zamanlarda indiki Sədərək kəndinin yerində insanlarla bir arada yaşayan dağ keçilərinin balasını öldürən saxtakar dərvişi qılıncla doğrayaraq sirli şəkildə yoxa çıxan ağ örtüklü



Qorxmazı gecənin qaranlığında "ağ oğlan" deyərək axtaran kənd camaatı sonralar ana keçinin südünün öldürülmüş balasının qanı ilə qarışıb daşa döndüyü yeri ziyarətgaha çeviriblər. Bu ziyarətgaha indi də insanlar gəlib dualar edirlər.

Sədərəklilər çox qonaqpərvərdirlər. İlin istənilən vaxtında Naxçıvandan qərb istiqamətində yola çıxıb Sədərəyə doğru irəlilədikcə yolboyu ətraf şəhər və kəndlərin gözəllikləri sözün əsl mənasında, göz oxşayır. Qeyri-adi təbiət mənzərələri, zəngin tarixi və sənətkarlıq nümunələri, unudulmaz qəhrəmanlıq səhifəsi ilə yanaşı Sədərəyin özünəməxsus olan milli mətbəxi və meyvə bağları ilə tanışlıq da bu marşrut boyunca hazırlanmış tur proqramlara daxil edilə bilər.

## 3. *Naxçıvan-Badamlı turizm marşrutu*

Naxçıvanda turizmdən gözlənilən gəlirlərin artırılması, həm də xalqımızın dərin milli qonaqpərvərliyinin tanıdılması baxımından Naxçıvan-Badamlı turizm marşrutu böyük maraq doğurur.

"Badamlı" deyəndə Azərbaycanın məşhur mineral suyu yada düşür. XX əsrin ortalarından başlayaraq bugünə qədər



süfrələrimizin bəzəyi olan məşhur Badamlı mineral suyu və dahi sənətkar Rəşid Behbudovun ürəkləri fəth etmiş "Badamlı" mahnısı təkcə Şahbuzun deyil, bütün ölkəmizin şöhrətini dünyaya yayıb. Bu gün də Naxçıvana səyahət edən turistlərin dağlar diyarı Şahbuza yolu düşdükdə onun Batabatı, Ağbulağı ilə bərabər Badamlısına da marağı artır. Şübhəsiz, hələ onillər öncəsindən bir mineral su brendi kimi Naxçıvanın adını bütün dünyaya tanıdan Badamlının müasir dövrdə turizm destinasiyası kimi də seçilməsi üçün artıq hər bir şərait vardır. Müasir turizm menecmentində əsas şərt kimi qarşıya qoyulan cazibədarlıq, bitkinlik və komfortluluq elementlərinin hamısı bu istiqamətdə vardır.

Naxçıvan-Badamlı turizm marşrutu Naxçıvan şəhərindən təxminən 25 kilometr, Naxçıvan-Şahbuz avtomobil yolundan 7 kilometr məsafədə yerləşir. Marşrut üzrə hərəkət edən turistlər ilk olaraq Şahbuzun girəcəyində ilin istənilən fəslində özünəməxsus gözəlliyi olan Heydər Əliyev Su Anbarının möhtəşəm görüntüsünə tamaşa edərək yola davam edirlər. Su anbarı və onun arxa fonundakı Şahbuz dağları Naxçıvana ilk dəfə gələn turistlər üçün xüsusilə unudulmaz təəssüratlar formalaşdırır.

Ümumilikdə, Şahbuz turizm ehtiyatları sarıdan çox zəngindir. Hələ sovet dönəmindən Naxçıvanın turizm-istirahət məkanı kimi tanınmış Batabat yaylağı bu rayonun ecazkar təbii gözəlliklərinin bir etiketi kimi şöhrət qazanmış, haqqında nəğmələr qoşulmuşdu. Batabat müqəddəs Əshabi-Kəhf ziyarətgahı və Mömina-Xatın türbəsi ilə birlikdə Naxçıvana gəlmiş qonaqların ən çox görmək istədikləri məkanlardan biri idi. O zamanlar Badamlı istiqamətində turistlərin rahat hərəkəti və asudə vaxt keçirmələri üçün zəruri şərait olmasa da müasir dövrdə burada yaradılmış modern sosial infrastruktur və



Badamlı qəsəbəsində mineral su istehsalı müəssisəsinin yaradılması bu imkanları yenidən yaradıb. Artıq Badamlıda kənd, landşaft, qastronomi və fotoovçuluq turizmi həvəskarları üçün yaxşı şərait yaradılıb.

Turizm-rekreasiya dəyəri baxımından Badamlının özünəməxsus xüsusiyyətləri vardır. İlk olaraq, turistlərə mineral bulaqlar laboratoriyası kimi də tanınan Naxçıvanda

Badamlı suyunun yerində daddırılması kimi maraqlı təkliflər edilə bilər. Belə xidmət müasir dövrdə qastronomi və müalicə turizmi həvəskarları üçün çox məşhurdur. Bununla yanaşı, Badamlıya gələn turistlər bu kənddəki yaşıllıqlar içində istirahət edib mənalı vaxt keçirməkdən də zövq ala bilərlər. Əgər qonaqlar Badamlıya birgünlük gəliblərsə, bütün gün ərzində Yemişandərə, Ordubulağı, Fərəməz bulağında keçirilən gün yol yorğunluğunu unutdurmağa kifayət edər. Badamlıdakı Şirandaş şəlaləsində bol-bol fotoşəkillər çəkən turistlər burada keçirdikləri günün təəssüratını doyunca yaşayacaqlar.

Badamlı camaatı həm işgüzar, həm də qonaqpərvər insanlardırlar. Burada qonaqlar üçün zəngin süfrə açıb, bəh-bəhlə xoşgəldin etmək kimi müasir turizmə xarakterik olan tələblər bir növ milli-mədəni dəyər kimi yaşadılmaqdadır. Şübhəsiz, Badamlıya səfər edən hər qonağa Badamlı suyu qədər badam daddırılması da ekskluziv xidmət kimi yaddaqalıcıdır. Xüsusən, payız fəslində, badamın tam yetişdiyi günlərdə Badamlıda yerli badamın ləzzəti ilə tanış olandan sonra kimsə çətin ki, marketlərdəki idxal badama meyl eləsin. Hər həyətdə azı on-onbeş badam ağacının olduğu Badamlıda bəzi ailə təsərrüfatçılarının barlı mövsümlərdə az qala 1 tona yaxın badam məhsulu olur. Burada badamı çox sevir, çay süfrəsindəki əziz qonaqlar üçün badam ləpəsinin ən dolusunu seçir, boxça dolusu badam payları tutulur. Yayın son aylarında iri badam ağacının kölgəsində açılmış süfrədə yovşan ətirli Badamlı balıynan qaymaq dadmağın isə başqa bir ləzzəti vardır.

Aktiv istirahəti seçən turistlər Şahbuzun bu gözəl kəndinə gəldiyində həmçinin bağlara necə qulluq edilməsi, digər kənd təsərrüfatı işləri ilə yaxından tanış olmaq fürsəti qazanalar. Piyada dağ yürüşləri, panoramik mənzərələrlə tanışlıq baxımından da Badamlıda cazibədar yerlər çoxdur. Coğrafi baxımdan sanki Şahbuzun ekvator xəttində yerləşən Badamlı həm dağ, həm də aran kəndidir. Bu baxımdan

Badamlıda kənd turizmi üçün də yaxşı imkanlar vardır. Kənddə və Badamlı qəsəbəsindəki çox sayda hosteltipli evlər yay turizm mövsümündə Badamlıya gələcək turistləri yerləşdirmək üçün əlverişlidir. Xalqımızın milli dəyərləri baxımından Badamlıda yaşadılan xalq adətləri, milli yeməklərimiz və nənələrdən qalma əl işləri ilə tanışlığın gəldikiləri yerdə qeyri-adilik axtaran hər bir qonaq üçün çox cazibədar olduğunu düşünmək olar.

Turizm marşrutları baxımından Şahbuzun hər bir güşəsinin özünəməxsus bir potensialı vardır. Bu dəfə yolu Badamlı istiqamətinə düşən turistlər isə belə bənzərsizliklərin nə qədər çox olduğunu öz gözləri ilə görəcəklər.

## *4. Naxçıvan-Haçadağ turizm marşrutu*

Naxçıvana səyahət edən turistlər ilk dəfə buraya ayaq basdığında sanki, bütün dünyadan daha fərqli məkana düşdüyünü, insan, təbiət və tarix anlayışının bir ahəngdə bir-birini tamamladığını öz gözləri ilə görürlər. İntensiv sosial-iqtisadi həyatın yaratdığı gərginlikdən bir az azad olmaq, mənəvi zənginliyə qovuşmaq və sağlamlığı bərpa etmək istəyən müasir turistlər üçün Naxçıvan - Haçadağ turizm marşrutu çox maraqlı seçim ola bilər.



Haçadağ Naxçıvanın simvolu, onun qürurunu və bütün dünyada bənzərsizliyini göstərən bir təbiət abidəsidir. Təbiət abidəsi kimi Haçadığın cazibəsi onu görənləri həmişə heyrətə salır. Bu tanışlıq isə Naxçıvana gələn hər bir qonaqla onun sərhədlərinə ayaq basmadan əvvəl başlanır. Coğrafi cəhətdən hardasa Naxçıvanın tam mərkəzi mövqeyində olan Haçadağ sanki bir alınmaz qala kimi hələ uzaqdan özünün qürurlu duruşunu hamıya göstərir, qonaqları salamlayır, bədniyyətlilərin canına qorxu salır. Haçadağın ecazkar

mənzərəsi ilə ilk tanışlıq Naxçıvana enən hava gəmisinin pəncərəsindən başlanır. Bu cazibə qüvvəsi özünün inikasını daha sonra turistlərin Naxçıvanla daha yaxından tanışlığı zamanı hər yerdə rastlaşacağı qonaqpərvərlik, sosial həyatdakı qayda-qanun və insanların günlük həyatındakı axıcı bir ahəngdə tapır.

Haçadağ Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində vulkan mənşəli dağdır. Demək olar ki, Naxçıvanın hər yerindən aydın görünən bu dağın hündürlüyü 2415 metrdir. Zəngəzur silsiləsindən cənub-qərbə ayrılan Dəmirlidağ-Göydağ qolunun qurtaracağında, Əlincə çayının sol sahilində yerləşir. Naxçıvan şəhərindən təxminən 40, Culfa rayon mərkəzindən 30 kilometr məsafədədir. Dağın yaxın ətrafında Gal və Xoşkeşin kəndləri vardır. Yamacları sıldırımlı olan Haçadağın sinəsində kolluq və dağ-meşə landşaftı var. Zirvənin daha bir adı mövcuddur: onlardan biri İnandağ, yəni "İnam dağı", digəri isə "Haçadağ", yəni zirvənin dar buğumla birləşdirilmiş iki hissədən ibarət olduğunu ifadə edən "ikiyə parçalanmış dağ" kimi səslənir. Şumer mənşəli əfsanəyə görə Nuh Peyğəmbərin gəmisi Gəmiqayadan Ağrı dağına yola düşərkən Haçadağın zirvəsinə elə güclü toxunmuşdur ki, dağ haçalanmışdır. Ehtimal ki, dağın adı da bu əfsanə ilə bağlıdır.

Haçadağ Naxçıvanın hazırda ən populyar turizm marşrutlarından biri olan Naxçıvan-Əlincə turizm marşrutunun üzərində yerləşir. Əlincəyə çatmağa az qalmış turistlərin gözü qarşısında əzəmətlə ucalan Haçadağ sanki Əlincə qalanın böyük qardaşı kimi tarix boyu Naxçıvana gəlmiş səyyahları ilk salamlayaraq öz mərifətini bütün dünyaya tanıdıb. İlin çox vaxtı incəbelli nazlı gəlin kimi ağ örpəyə bürünən Haçadağın sinəsindəki dumanın uzaqdan görüntüsü fotoqraf həvəskarı turistlər üçün əsl turizm resursudur. Belə mənzərələri isə istər günçıxımı, istərsə də günbatımı saatlarında daha çox görmək olar.

Haçadağa qalxmaq, buradakı zəngin flora və fauna ilə tanış olmaq istəyən turistlər üçün isə onları burada bambaşqa bir dünya gözləyir. Dağa yaxın olan Gal və Xoşkeşin kəndlərinin yerli sakinlərinin və dağa dırmanmış alpinist turistlərin dediklərinə görə buradakı vəhşi həyatın növ zənginliyi heç də Amazon cəngəlliklərindən geri qalmır. Şübhəsiz, Naxçıvandakı təmiz ekoloji şərait və təbiətin qonunmasına yönəlmiş tədbirlər Haçadağ və ətrafında da hər kəsin gözünü doyura biləcək bir təbii zənginlik yaradır. Burada yerli faunaya xas olan vəhşi heyvanları, nadir quşları, unikal dərman bitkilərini, qayada bitmiş kol və ağacları, dağın zirvəsinə yaxın yerdən qaynayan buz bulaqları görmək istəyənlər üçün maraqlı səyahət proqramları təşkil etmək olar. Bütün bunlar isə turistləri Haçadağa çəkən, hər dəfəsində onu



görüb heyrətlənən insanlarda dərin təəssüratlar yaradan cazibə elementləridir. Naxçıvanda ilin bütün fəsillərində, xüsusən günlərin daha uzun və havanın da şəffaf vaxtlarında Haçadağı görmək üçün onun gözəlliyini foto yaddaşlara köçürməyin tam vaxtı olur.

Haçadağ hazırda ekoturistlərin, alpinistlərin və ekstermal yürüş həvəskarlarının həvəslə dırmandığı bir turizm

destinasiyasıdır. Dağa Culfanın Gal və Xoşkeşin kəndlərindən olan yerli bələdçilərin xidmətlərindən istifadə etməklə dırmanmaq olar. İlin aprel, may aylarında dağa edilən yürüşlər daha maraqlıdır. Dağın zirvəsinə daha asan dırmanmaq, vəhşi təbiətə daha az zərər vermək baxımından bu həm də turizmin də dayanıqlı inkişafı prinsiplərinə əməl olunması deməkdir. Çünki Haçadağ təkcə turistlərin maraq obyekti deyil, həm də xalqımızın milli sərvəti, ümumbəşəri bir tanışlıq dəyəri daşıyan bir təbiət abidəsidir.

## *5. Naxçıvan - Cənnəb turizm marşrutu*

Yay turizm mövsümünün qaynar çağında öz istirahətini Naxçıvanın müxtəlif guşələrində keçirmək istəyən turistlər üçün Ordubad rayonunun Cənnəb kəndi özünün bənzərsizliyi ilə seçilir. Ölkəmizin müxtəlif yerlərində, habelə muxtar respublikamızın Naxçıvan, Şərur, Culfa şəhərlərində, habelə Nehrəm, Cəhri qəsəbələri və Yaycı, Dəstə kimi iri kəndlərində



yaşayanlar yayın istisində özünə sərin-səfalı yer axtarmaq istəsələr digər kəndlərimizlə bərabər Ordubadın Cənnəb kəndini də seçə bilərlər. Cənnəbin yayda öz gözəlliyi vardır.

Cənnəb Ordubadın Düylün-Məzrə istiqamətində Üstüpü ilə bitişik olan ikinci kənddir. Naxçıvan şəhərindən təqribən 60, rayon mərkəzi Ordubaddan 15 kilometr məsafədə yerləşir. Yolunu ilk dəfə bu kəndə, ümumiyyətlə bu qola salan səyahətçini inandırmaq çətindir ki, Xarabagilandan üzüyuxarı ucalan dağların arasında bu qədər yaşıllığa qərq olmuş kənd var. Bağ-bağata, meyvəçiliyə bu qədər bağlı olan Ordubadda belə yaşıllıqlara rast gəlməkdə isə qeyri-adi heç nə yoxdur. Ordubadlılar lap qayanın zirvəsində də olsa meyvə ağacları ərsəyə gətirməkdə çox səriştəlidirlər. Bu rayonda hansı kəndlə,

hansı həyətlə tanış olsan hökmən nəsə qeyri-adi bir meyvə ağacı, yeni bir meyvə sortu, yaxud meyvəçilik ənənəsi ilə tanış olmaq mümkündür.

Çənnəblilər çox qonaqpərvərdilər. Şübhəsiz, turistlər üçün də qonaqpərvərlik faktoru çox arzu ediləndir. Çənnəbdə də bunun şahidi olmaq mümkündür. Qonağa ilk rast gələn yerli sakin istər tanıdığı, istərsə də tanımadığı olsun, israrla onu evinə, nəfis Ordubad limonu ilə çay süfrəsinə dəvət edəcək. Buraya gəlmiş turistlər bilməlidir ki, Ordubad limonu təkcə muxtar respublikamzda deyil, ölkəmizdə və onun hüdudlarından kənarda brendləşmiş bir nemətdir. Bu mənada, Ordubad limonu özünün qeyri-mövsümi olmasına görə məşhur Naxçıvan göycəsindən də üstün saylıa bilər. Çənnəbdə də demək olar ki, hər iki həyətdən birində limon ağacları yetişdirilir və çay süfrəsində onlarn ətrindən doymaq olmur.

Çənnəbə gəlmiş turistlərdə ilk təəssürat, bir vaxtlar çoxlarının istirahət məkanı olmuş Şəfa bulağı ilə tanışlıqdan başlayır. Kəndin girəcəyindəki Şəfa bulağının başında, göy üzünü qapamış ağacların altında bircə saat əyləşib suyun zümzüməsinə qulaq asmaq kifayətdir ki, il ərzində şəhərin səs-küyündə beynimizdə yığılıb qalmış neqativ enerji yox olsun. Uzaq yoldan gələn turistlər sərin bulağın nəğməsinə dalıb dincəldikdən sonra uzun hörük kimi qıvrılan kənd yolu ilə davam edib Çənnəbə çatırlar. Şimal tərəfdən Üstüpü, cənubdan Düylün, qərbdən Ülüs dağı, şərqdən Qarovulgədik dağları ilə əhatə olunan Çənnəb kəndi, dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşir. Kəndin min ildən artıq məskunlaşma tarixi vardır. Yerli sakinlərin dediyinə görə Çənnəbdəki Kəreyil və Piləpan qalalarının yaşı isə eramızın əvvəllərinədək gedib çatır. Ümumiyyətlə, turizm həvəskarlarına bu yerlərin tarixi, yerli sakinlərin adət-ənənələri haqqında danışmağa çox mövzu var. Amma yay fəslində insanları ən çox özünə çəkən təbiət güşələri bu gözəl diyarın bənzərsiz gözəlliklərinə qarşı heç kimi biganə qoymur.

Çənnəb kəndi ərazisi panoramik quruluşa malikdir. Kənd haqqında ümumi təsəvvür almaq üçün ətrafdakı uca təpələrin birinin zirvəsinə dırmanıb ətrafı seyr etmək kifayətdir. Yeri gəlmişkən bu, kəndə gələn ekoturizm həvəskarları üçün də yaxış bir əyləncədir. Misal üçün, Çənnəbdəki yaşını heç kimin bilmədiyi qocaman çinar ağacının kölgəsində oturub çay



içməyin bir ləzzəti olduğu kimi bu çinarın uzaqdan necə göründüyünü seyr etməyin də ayrı ləzzəti vardır. Xülasə, Çənnəbə gəlmiş şəhərli turistləri Şəfa bulağı ilə yanaşı İpli çeşmə, Bədərək çeşməsi və Yağlıdərənin ecazkar mənzərələri ilə tanış etdikdə onlar Naxçıvanın hələ nə qədər kəşf olunmamış gözəllikləri olduğuna öz gözləri ilə şahid olacaqlar.

Kənd həyatı elədir ki, burada iş günü, xüsusən yaz və yay fəsillərində, səhər Günəşin çıxması ilə başlayır. Əgər Çənnəbə gəlmiş turistləri bu abı-hava ilə tanış edib, onlarda kənd işgüzarlığı haqqında bir təsəvvür formalaşdırmaq istəsək, onda kənddən xeyli aralıdakı Köydərə və Sərinçeşmə şəlalələrinə tamaşa etmək üçün səhər sübh 6-dan yola çıxmağına dəyər. Belə təbiət gözəlləri ilə tanışlıq turistlərdə həmişəlik bir təəssürat yaradacaqdır. Amma səhər erkəndən başlayan kəndlilərin təsərrüfat işlərini canlı görməyin özü də bir rekreasiyadır. Onda şəhərli turist özü görəcək ki, Naxçıvan bazarında ucuzluq yaradan tam ekoloji təmiz, ziyansız Ordubad nemətləri hansı torpaqlarda yetişib,

hansı bulağın suyundan içirmiş. Turistlər burada görəcəklər ki, Çənnəb camaatı çox qoçaqdır. Müasir villalara bənzəyən hər kəndli evinin həyətində hansı meyvə ağacı istəsən var. Mövsümdə alma, armud, cəviz, ərik, göycə, gilas ağaclarının barını yığıb-yışdırmaq olmur. Bostan məhsulları da aşıb-daşır. Əgər turistlər kirayə edib dincəldiyi evdə isti təndir lavaşlı, bal-qaymaqlı səhər yeməyindən sonra bir də bulaq başında samovar çayı dəmləməyi arzu edərlərsə, Çənnəbdə hər ağacın kölgəsində oturmağın ayrı ləzzəti var. Kənd turizminin mühüm atributlarından olan dağ və yüksəkliklərə yürüş üçün də Çənnəbdə heç bir çətinlik yoxdur. Kəndli gənclər turistlərə bələdçilik edə bilər. Dağlara çıxmağa isə dəyər. Turistlər bilməlidirlər ki, Çənnəb və Üstüpü kəndləri ərazisindəki Rumus yaylağında rast gəlinən nadir Jenşen otunu tapmaq üçün hər il çox sayda herbari həvəskarı buraya gəlir. Odur ki, Ordubadın bu gözəl kəndi həmişə turistləri özünə cəlb edir.

## *6. Naxçıvan-Gəmiqaya turizm marşrutu*

Qədim Naxçıvanın həm tarixi-mədəni, həm də təbii turizm ehtiyatları ilə zəngin olan istiqamətlərindən biri də Naxçıvan-Aza-Gəmiqaya turizm marşrutudur. Bu turizm marşrutu özunun cazibə elementləri və turistlərin bunlardan istifadə imkanlarına görə Naxçıvanın ən mühüm perspektiv marşrutlarındandır. Ona görə də Naxçıvan-Gəmiqaya turizm marşrutu üzrə turistlərin səyahətlərini planlayarkən Azərbaycan xalqının min illik tarixi keçmişindən süzülüb gələn milli sərvətimizin dünya mədəniyyətinə qazandırılması, turistlərin



bu qədim diyardan daha dolğun təssüratlarla qayıtmasını qarşıya məqsəd qoymaq lazımdır.

Naxçıvan-Gəmiqaya turizm marşrutu Naxçıvan-Ordubad magistral yolu üzərində tarixi Aza kəndinə çatmamış Parağaçay istiqamətində davam edir. Magistralın sol tərəfindəki Sabir Dizə kəndinə çatarkən turistlərə buradakı cazibə elementləri tanıdılır. Bu zaman qədim Xarabagilan ərazisindəki tarixi ziyarətgah olan pir, qədim Sumbatan yaşayış yeri, Dəlmə qalası, qaya ortasından dəlinərək keçirilməklə Gilançaydan Yaycı kəndinə qədər gələn Dəlmə arxı, daha

sonra unikal görüntülü "Oğlan-qız qayası" adlanan təbii abidə turistlərin diqqətinə çatdırılır.

Magistral yoldan təxminən 7-8 kilometrlik məsafədə yerləşən Gilançay kəndinə çatan turistlər buradakı tarixi körpüyə, daha az suyun gücü ilə unikal texnologiya əsasında işləyən qədim lülə dəyrimanına tamaşa edərlər. Biləv kəndinə çatmış turistlərə sol tərəfdəki Babək qalası və onun yaxınlığındakı qədim yaşayış yeri, Gilançay üzərindəki qədim Biləv körpüsü və kəndin yaxınlığındakı Carçı daşı haqqında məlumat verilir.

Naxçıvan-Gəmiqaya turizm marşrutu üzrə səyahətə çıxmış turistlərə bu nöqtədə bildirilir ki, təyinat yerinə buradan iki yolla çatmaq olar. Bunlardan biri Biləv-Bist-Nəsirvaz-Gəmiqaya, digəri isə Biləv-Behrud-Parağa-Qız-gəlin çuxuru-Qaranquş yaylağı-Gəmiqaya istiqamətidir. Bunların hər ikisinin turistlər üçün son dərəcə maraqlı olduğunu nəzərə alaraq burada onlara radial marşrut təklif etmək daha məqsədəuyğundur. Belə ki, tursit qrupuna Biləv-Behrud-Parağa-Qızgəlin çuxuru-Qaranquş yaylağı-Gəmiqaya marşrutu üzrə gediş, Gəmiqaya-Nəsirvaz-Bist-Biləv marşrutu üzrə geri qayıdış təklif oluna bilər.

Behruddan Parağaçaya gəlmiş turistlər buradakı qədim körpü ilə tanış olub, Parağa kəndinə və Parağaçay qəsəbəsinə daxil olur, qəsəbənin maraqlı təbii şəraiti və Parağaçay molibden mədəni haqqında məlumat alırlar. Parağaçaydan keçən turistlər Qapıcıq zirvəsinin cənub yamacındakı qayaüstü rəsmlərlə zəngin olan Qızgəlin çuxuruna çatırlar. Buraya çatmış turistlər həm qayaüstü rəsmlər, həm Qızgəlin çuxurunun hekayəsi ilə tanış olurlar. Əfsanəyə görə, burada Tunc dövrünə aid Günəşə bənzər kromleklərdə — qədim türklərə məxsus qəbirlərdə bir-birinə aşiq olmuş qız və oğlan dəfn oluunub. Nakam məhəbbətin hekayəsinə qulaq asan, ətrafdakı bumbuz bulaqların və şəlalələrin həzin nəğməsinə məst olan turistlər burada bir neçə saat mənalı vaxt keçirə bilərlər.

Aza yolundan təxminən 45 kilometr yol qət edərək, Qız-gəlin çuxurundan keçib Qaranquş yaylağına gəlmiş turistlər burada daha çox qayaüstü rəsmlərlə qarşılaşırlır. Ümumilikdə, burada qeydə alınmış bir kitab ölçüsündən tutmuş kiçik bir otaq ölçüsünədək olan 7400-dən artıq qaya üzərindəki rəsmin hər biri özünün bənzərsizliyi ilə seçilməklə tarix, mədəniyyət həvəskarları olan turistlər üçün mükəmməl bir təəssürat mənbəyidir. Buradakı panoramik mənzərə isə daha da cazibədardır. Dəniz səviyyəsindən təxminən 3200-3700 metr yüksəklikdəki havanın şəffaflığı buradan yüzlərlə kilometr məsafədəki obyektləri, hətta Türkiyədəki Ağrı dağının



möhtəşəm Naxçıvan mənzərəsini belə fotoyaddaşa köçürməyə imkan verir. Qeyd edək ki, 136 hektar ərazidəki minlərlə, bəlkə də on minlərlə qayaüstü rəsmləri izləmək üçün turistlərin Qaranquş yaylağına hazırlıqlı gəlməsi, ərzaq, çadır tədarükü görməsi məqsədəuyğundur. İçməli su sarıdan isə burada gecələyənlər üçün heç bir çətinlik yoxdur. Ümumilikdə isə buraya ilin may ayından sentyabr ayınadək müddətdə səyahət etmək mümkünüdür. Qaranquş yaylağının sol tərəfindəki Nuh Nəbi yurdu və Nazağa adlı yaşayış yerlərinə çatmaq üçün 40 dəqiqəyə yaxın piyada getmək lazım gəlir. Burada, Tivi kəndi

istiqamətindəki Susəpən piri, yayın ilk günü burada həyata keçirilmiş susəpmə ayini haqda turistlər məlumat ala bilərlər.

Naxçıvan-Gəmiqaya turizm marşrutundakı ən cazibədar element şübhəsiz ki, onun Dünya tufanı və onunla bağlı Naxçıvanda mövcud olan xalq inanclarının yaşadıldığı bir məkan olmasıdır. Bu mənada, Qaranquş yaylağının arxa üzündəki Göllər massivindən sonra yerləşən Gəmiqaya çuxurunu görmək turistlərdə mükəmməl həyəcan yarada bilər. Burada rast gəlinən qayaüstü rəsmlər Nuh Peyğəmbərin gəmisinin burada torpaqla təmas etməsini simvolizə edir. Təsvirlər eradan əvvəl V-I minilliklərdə Naxçıvanda məskən salan insanların ideoloji görüşləri, onların həyat tərzi ilə tanış olmaq üçün olduqca əhəmiyyətlidir. Qayaüstü rəsmdəki üç böyük zirvə — Böyük Ağrı və bir-birindən cəmi 10 metr hündürlük fərqi olan Kiçik Ağrı ilə Qapıcıq zirvəsinin təsviri qədim insanlardakı Dünya Tufanı haqqındakı təsəvvürlərdən



xəbər verir. Alimlərin fikrinə görə "Qapıcıq" kəlməsi də beləcə, fırtınalı dənizdən "quruya açılan qapı" mənasını verir. Qapıcıqdan aşağıda yerləşən Yuxarı baca, Aşağı baca adlı yerlər isə dünyaya açılan qapıdan (Qapıcıqdan) keçməklə aşağıya doğru hərəkət istiqamətini göstərir. Qeyd etmək lazımdır ki, burada xalqımızın minillik inanc yaddaşından

süzülüb gələn xəzinəsi ilə yanaşı ərazidə rast gəlinən unikal geoloji süxurlar da Dünya Tufanı haqqında səyahətçilərdə dərin təəssürat yaradır.

Bu marşrut üzrə səyahət edən turistlərin növbəti tanışlıq obyekti 2500 metr hündürlükdəki muzeydir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında"



2001-ci il aprelin 26-da Sərəncam imzalamış, abidə ətraflı tədqiq olunmuş, "Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılmış və muzey üçün bina tikilmişdir. Muzeyə gələn turistlər buradakı eksponatlarla tanış olarkən, onlara üzərində rəsmlər olan qaya daşları, Gəmiqayada aparılan tədqiqat işlərinə aid müxtəlif kitablar, qəzetlər, fotoşəkillər, qayaüstü rəsmlərin fotoşəkilləri, eləcə də Naxçıvanın 5 minillik şəhər mədəniyyəti tarixinə aid elmi simpoziumların materialları haqqında məlumatlar verilir.

Gəmiqaya Muzeyi ilə tanışlıqdan sonra turistlər Nəsirvaz kəndinə çatmamış buradakı mineral bulaqlara tamaşa edə bilərlər. Üç çayın qovşağındakı qədim Nəsirvaz kəndi

yaşıllıqları ilə də turistlərin diqqətini cəlb edir. Burada xüsusən, yayda turistlər üçün istirahət məzmunlu turproqramlar təşkil elmək mümkündür. Daha sonra Bist kəndinə enən turistlər Tivi və Biləv istiqamətində dairəvi səyahət marşrutunu tamamlaya bilərlər.

Naxçıvan-Gəmiqaya turizm marşrutu tarixi-mədəni zənginliyi ilə yanaşı piyada yürüş və ekoturizm həvəskarları olan turistlər üçün də maraqlı istiqamətdir. Buradakı keçilməz dağ cığırları, bumbuz bulaqlar, ekzotik mənzərələr səyahətin hər anında turistlərə unudulmuz təəssüratlar vəd edir. Bu ərazilər xüsusi qorunan Zəngəzur Milli Parkına daxil olduğu üçün Gəmiqaya və ona yaxın yerlərdə turistlər nadir fauna və flora nümunələrini canlı olaraq izləmək, fotoovçuluqla məşğul olmaq fürsəti də qazanacaqlar.

## *7. Naxçıvan - Nehrəm turizm marşrutu*

Yeni turizm marşrutlarının yaradılıb test olunması və onların turistlərin tələbatlarına uyğun şəkildə dizayn olunması baxımından Naxçıvan Muxtar Respublikasında çox sayda turizm marağı kəsb edən yerlər arasında Nehrəm qəsəbəsi istiqamətindəki turizm marşrutu da maraq doğurur.

Nehrəmə səfər edən turistlər bilməlidir ki, bu qəsəbə Naxçıvan Muxtar Respublikasının iri yaşayış məntəqələrindən biridir. Bu qəsəbə özünün qədim tarixi, xalqımıza məxsus yaxşı qorunub saxlanılmış adət-ənənələri və müasirliyi ilə tarix və mədəniyyət həvəskarları üçün maraqlı ekskursiya məkanıdır. Nehrəm həm də Naxçıvan şəhərinə ən yaxın olan ən iri yaşayış məntəqəsidir. Əhalisi artıq 15 min nəfərə çatmış bu qəsəbə Naxçıvan şəhərindən 9 kilometr, Babək şəhərindən isə cəmi 4 kilometr məsafədə, Araz çayının sol sahilində yerləşir. Rayon



mərkəzindən keçməklə Naxçıvan şəhəri ilə gün ərzində hər 10-12 dəqiqədən bir müntəzəm sərnişin nəqliyyatı əlaqələri vardır.

Nehrəmin turizm cazibədarlığı onun maraqlı tarixi, müasir inkişafı, insanlarının məşğuliyyəti, torpağa bağlılığı ilə diqqət cəlb edir. İlk olaraq, bu qəsəbənin adı çoxlarına yaxşı tanış olan bir toponim kimi, ümumiyyətlə, Naxçıvanın qədim

tarixi ilə də həmahəngdir. Tarixçi araşdırmaçılar tərəfindən Naxçıvan, Nuhçıxan, Nehrəm, Nəhəcir kimi adların bəşəriyyətin ikinci atası hesab edilən Nuh Peyğəmbərin adı ilə bağlı olduğunu göstərməsi bu yaşayış məntəqələri arasında Nehrəmə olan marağı da artırır. Görkəmli tədqiqatçıların əsərlərində də sübut olunduğu kimi etimologiyası Nuh Peyğəmbərlə bağlı hesab olunan Nehrəmdə xalqımızın ən qədim mədəniyyətinin izlərinə rast gəlmək olar.

Nehrəm inkişaf etmiş yaşayış məntəqəsidir. Bu, həm nehrəmlilərin təsərrüfat ənənələrinə, həm buradakı müasir infrastruktur şəraitinə, həm də Nehrəmdəki tarixi-dini və mədəni sahədəki nailiyyətlərə aid edilə bilər. Qəsəbədə son illər ərzində istifadəyə verilmiş sosial-mədəni obyektlər, tikilən yaraşıqlı fərdi evlər, çəkilən hamar yollar onun simasını daha da gözəlləşdirib. Nehrəmdə yaşadılan qədim el adətləri, qeyri-adi ənənələr, yaşlı insanların həyat tərzində qorunub saxlanılmış milli elementlər bu qəsəbəyə gəlmiş qonaqlarda böyük təəəssürat yaradır. Nehrəmə gəlmiş turistlər burada XVIII əsrə aid memarlıq abidəsi olan İmamzadə binası və Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi ilə tanış ola bilərlər. Milli mətbəx həvəskarları olan turistlər Nehrəmdə kənd üsulu ilə hazırlanmış daş küftəsi, mev dolması, əriştə aşı, təndir lavaşı, çölmək pitisi, odunla bişirilən sac lavaşı, təndir kababı kimi milli yeməklərimizdən dadmaq imkanı əldə edərlər. Türk xalqlarına məxsus qiş azuqəsi olan qara qovurmalı və çoban kirmidlı ətirli bozbaş burada özünəməxsus şəkildə hazırlanır.

Nehrəm camaatı inanclarına sadiq insanlardırlar. Müstəqillik illərimizdə isə bu inamın yaşadılması, insani və ümumbəşəri duyğuların təbliği üçün hər cür şərait yaradılıb. Nehrəmdə hazırda mövcud olan çox sayda məscid və bir imamzadə dindarların ixtiyarına verilib. Yeni açılışı olmuş yeni məscid isə dindarları daha çox çox sevindirib.

“Nehrəm” deyəndə, şübhəsiz, böyük yazıçı Cəlil Məmmədquluzadə yada düşür. Böyük ədibin hələ yüz il

öncəsindn xalqımızın təhsili, maariflənməsi və müasirləşməsi yolunda bu qəsəbədəkı fəaliyyəti xalqımızın maarifçilik tarixində mühüm yer tutur. Xalqımızın ümummili lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə Nehrəmə göstərdiyi diqqət və qayğı və xüsusən, 1990-cı ildə Moskvadan Naxçıvana qayıdandan sonra Nehrəmlə əlaqələri, buradakı tanınmış admalarla sıx münasibətləri, yerli əhali ilə keçiridiyi görüşlər Nehrəmin yaxın keçmişində öz izlərini qoymuş və bu xatirələr indi də nehrəmlilərin yaddaşından silinməyib. Xüsusən, Naxçıvanın blokada illərində ümummmili liderin tapşırıq və tövsiyyələri Nehrəmdə o dövrdə mövcud olmuş çətinliklərin aradan qaldırılması üçün cox həyati olub.

Naxçıvanda kənd təsərrüfatı sahəsində brend səviyyəsində tanınan Nehrəm pendiri, Nehrəm qarpızı, tut doşabı, Nehrəm qovurması kimi məhsullar təkcə muxtar respublikada deyil, ondan kənarda da yaxşı tanınmaqdadır. Qəsəbədə yüksəkkeyfiyyətli ərzaq məhsulları istehsal edilən iri fermerlər vardır.

Nehrəmdə təkcə yerli əhalinin deyil, turistlərin də sosial tələbatlarının ödənilməsi üçün iri ticarət mərkəzi, məişət evi, geniş qapalı bazar kompleksi, elektron xidmətlər, 24 saat xidmət göstərən əczaxana və səhiyyə xidmətləri də vardır. Son illər salınmış müasir standartlara uyğun Şəkərabad-Babək-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu isə Nehrəmə gediş-gəliş üçün çox rahat şərait yaradıb.

Nehrəm qəsəbəsinin turizm potensialından istifadə onun yerləşmə mövqeyi, malik olduğu turizm ehtiyatları və yerli sakinlərinin qonaqpərvərliyinə əsaslanır. Bu baxımdan, Nehrəmə təşkil olunacaq turların səmərəliliyini və onların tanışlıq-rekreasyia cazibədarlığını müəyyən etmək üçün test turların təşkil olunması və bunların əsasında gələcəkdə Naxçıvan Muxtar Respublikasının bu yaşayış məntəqəsində turizmin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Buraya təşkil olunan turların əhəmiyyəti bir də ondan ibarətdir

ki, Nehrəmə indiyə qədər sırf turizm məzmunlu turlar təşkil olunmadığından buradakı potensial istifadə olunmamış qalıb. Bu isə Nehrəm istiqamətində təşkil olunan turlar üçün imkan yaradan amillərdəndir.

Nehrəmdə təşkil olunacaq turlar arasında ilk olaraq tanışlıq məzmunlu turları göstərmək olar. Buradakı qədim dini obyektlər, qədim tarixi küçələr, burada xalqımıza xas olan yaxşı qorunub saxlanılmış el adətləri, böyük ədib Cəlil Məmmədquluzadənin Xatirə muzeyi Nehrəmə ekskursyaya gəlmiş turistlərdə böyük maraq doğurur. Bundan başqa Nehrəmdə mövcud olan fermer təsərrüfatları ilə tanışlıq da



turistlər, xüsusən, tələbə-gənclər arasında da maraqla qarşılanır.

Ümumilikdə, Nehrəmə təşkil olunacaq turlar gələcəkdə bu qəsəbənin və bütövlükdə muxtar respublikanın daha yaxşı tanıdılması baxımından əhəmiyyətlidir. Nehrəmin Naxçıvana çox yaxın məsafədə olması, sakinlərinin isti qonaqpərvərliyi, yaxşı qorunub saxlanılmış qədim ənənələrə sahib olması, əkinçilik və bostançılıq təcrübəsi burada maraqlı tanışlıq turları üçün imkanlar yaradır.

## *8. Naxçıvan - Dırnıs turizm marşrutu*

Hər il yeni turizm mövsümü başladıqca insanlar ənənəvi olaraq səyahətlərini harada və necə keçirəcəyini planlaşdırmağa başlayır. Bu baxımdan stresdən uzaq yaşayıb, mənalı istirahət keçirmək hamının arzusu olduğu kimi, daha yeni və kəşf edilməmiş turizm marşrutlarının da öyrənilməsi həm turistlərin, həm də turizmin inkişafına maraqlı olan hər kəsi düşündürən məsələlərdəndir. Zəngin turizm potensialı olan Ordubadın dilbər guşələrindən biri Dırnıs kəndi istiqamətində



səyahətə çıxanlar üçün Naxçıvan-Dırnıs turizm marşrutu barədə təəssüratlar, bu mənada, turistlər üçün də maraqlı olardı.

Dırnıs Ordubadın Vənəndçay hövzəsi boyunca yerləşən böyük yaşayış məntəqələrindən biridir. Naxçıvan şəhərindən, təxminən, 90, Naxçıvan-Ordubad magistral yolundan isə 25 kilometr məsafədə şimal-şərq istiqamətində yerləşən Dırnısa çatmaq üçün turistlər Dəstəbaşından bu kənd istiqamətində yeni salınmış yolla irəliləyərək Ağrı, Dizə, Vənənd, Vələver, Başkənd, Qoruqlar, Anaqut kəndlərindən keçməklə gələ bilərlər. Dırnısdan sonra isə bu gün adı, demək olar ki, yaxın bölgəmizdə hamıya yaxşı tanış olan Zəngəzur dağlarınadək

uzanan yolda Kələki, Unus və Pəzməri kəndlərinədək gedib çatmaq mümkündür. Əgər bütün bunları, sadəcə, bir tanışlıq kimi görmək istəyənlər varsa, birgünlük ekskursiya kifayət edər. Ancaq, xüsusən yazın bu gözəl vaxtında və qarşıdakı isti yay günlərində Dırnısa yolunuz düşsə, azı bir həftə bu kəndin təbii gözəlliklərindən doyunca təəssürat qazanmaq üçün yaxşı fürsət yaranacaq. Naxçıvandan Dırnısa qədər uzanan təbii və insan əli ilə yaradılmış gözəlliklər bu təəssüratları daha da zənginləşdirəcək. Dırnıs təbiətsevər turistlər üçün olduqca əlçatan mövqedə olub, Naxçıvan şəhərindən cəmisi birsaatlıq yol məsafəsindədir. Kəndə, ümumiyyətlə, Ordubad istiqamətinə ilk dəfə səyahət edən turistlər üçün isə yol boyunca insanın gözünü doyuracaq çox gözəl mənzərələr vardır. Naxçıvanın simvolu sayılan vüqarlı Haçadağı müxtəlif rakurslardan izləmək, Xan Arazı ilk dəfə bu qədər yaxından görə bilmək və uzaqdakı Zəngəzur silsiləsinin açıq panoramı fonunda onu sanki daha yaxından göstərən çılpaq dağların ahəngdar düzülüşünü seyr etmək üçün belə səfərlər ilin istənilən fəslində ən yaxşı fürsətdir. Odur ki, Dırnısa bir an öncə çatmaq üçün tələsmək yerinə qarşıdakı yolun hər bir kilometrinin rəngli hekayəsini dinləmək üçün dördgöz olub, yola yaxşı bələdçilik edə biləcək həmsöhbətə qulaq verməyin faydası vardır.

Dırnıs dəniz səviyyəsindən, təxminən, 1500 metr yüksəklikdə olub kəndi əhatə edən Carbaş, Sarıdağ, Səhəngdağla əhatələnir. Dırnısa çatdıqda, uzaqdan Naxçıvanın getdikcə populyarlıq qazanan digər bir turizm destinasiyası olan Pəzməri şəlaləsi istiqamətində açıq görünən Zəngəzur silsiləsinin sərt sıldırımı cənub yamacları isə, sözün əsl mənasında, bu yerləri ilk dəfə görən insanlar üçün nağıllardakı qeyri-adiliyi xatırladır. İlk baxışda adama elə gəlir ki, bu zəhmli dağlarla bərabər buradakı hər şey — şimşəyə hamilə yağmur buludları, quşlar, ağaclar, otlar, çiçəklər sanki gizli bir tərs cazibənin gücü ilə havada asılı qalıb, ona çatmaq

istəyənlərdən qaçaraq uzaqlaşır. Ancaq Dırnısa çatıb, buradakı sərinsulu bulaqların birindən bir ovuc su içəndən sonra insan bir anda bu şirin nağıldan gerçək həyat hekayəsinə qovuşur: özünəməxsus Ordubad qonaqpərvərliyi! Dırnısa gəlmiş turistlər üçün darıxmağa heç bir əsas yoxdur. Bu fikir istər birgünlük gəzinti-istirahət, istər həftəsonu keçirmək, istərsə də bir və ya bir neçə həftəlik ailəliklə qalıb dincəlmək istəyənlər üçün belədir.

Dırnısla yaxından tanış olduqda burada hələ sovet dönəmində məktəbli düşərgələri, yəni indiki turizm termini ilə desək, kamp turizmi mövcud olub. Hər cür meyvə ağaclarının bar verdiyi terrasvarı bağçalar, təmiz həyətlər, abad kəndarası yollar, hər məhəllədəki qaynayan çeşmələr buraya mənalı istirahət üçün gəlmiş insanların seçim imkanlarını artırır. Seçim üçün isə, necə deyərlər, səbəb də çoxdur. Turist tələbatı sonsuz olsa da, şəhərin bürkülü istisindən cəmi bir saat sonra yamyaşıl sərinliyə qovuşub məst olanlar üçün buradakı hər kiçik bağça, hər bulaq başı, hər ağac kölgəsi bir seçimdir. Kəndin həm yayda, həm də qışda mülayim olan oksigenlə zəngin havası, iti axan Vənəndçayın şırıltısı, bu yerləri elə sakinləri qədər sevən quşların bahar nəğməsi və insanların gülərüzlüyü bu kəndi seçənləri ürəkdən məmnun edir. Ticarətdə çox usta olan digər ordubadlılar kimi elə dırnıslılar da belə cazibə elementlərini iqtisadi fürsətə çevirməyi yaxşı bacarırlar.

Dırnıs müasir Naxçıvan kəndidir. Təxminən, 2 min nəfər sakini olan bu kənddə sosial həyat üçün zəruri olan bütün müasir şərait yaradılmışdır. 2021-ci il dekabr ayının 3-də müasirliyə qovuşmuş bu kənddə aparılmış müasir quruculuq tədbirləri sayəsində həm yerli əhalinin, həm də buraya gələn qonaqların sosialmədəni tələbatlarının müasir standartlar səviyyəsində ödənilməsinə imkanlar yaradılmışdır. 2019-cu il dekabrın 4-də istifadəyə verilmiş Allahşükür məscidi isə təkcə Dırnısda və ya Ordubadda deyil, bütün Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Odur ki, Dırnısa

kənar yerlərdən gələn hər bir qonaq burada keçmişlə müasirliyin vəhdətini yaşamaqla Naxçıvanın son onilliklərdə keçdiyi inkişaf yolunun qısa xülasəsini də görmüş olur. Bir çox Ordubad kəndləri kimi, Dırnısın da özünəməxsus xüsusiyyətləri vardır. Burada yerli sakinlərin adət-



ənənələrimizə, milli mətbəx nümunələrinə bağlılığı qorunub saxlanılmaqdadır. Kəndə gələn qonaqların qarşılanıb onlara süfrə hazırlaması, Novruz bayramı zamanı yerli nümunələr maraqla qarşılanır. Kəndli fermerlərin istehsal etdiyi orqanik qida məhsullarının keyfiyyətinə isə söz ola bilməz. Mövsümdə yetişən Dırnıs meyvələri, bostan məhsulları şəhərli qonaqların dadından doymadığı yerli nemətlərdəndir. Dırnıs balı, ağartı məhsullarını isə burada, yerindəcə almaq həm turistlərə, həm də yerli sakinlərə iqtisadi cəhətdən sərfəlidir. Asudə vaxt keçirilməsinə gəldikdə isə Dırnıs bağlarının sakit guşələri, kəndin mərkəzindəki yaşı 300 ilə çatan qocaman çinar, Xıdırbulağı, Dərə-bulağının dupduru çeşmələri, Ağamməd dərəsindəki müalicəvi Şorsu ilə tanışlıq, eləcə də kəndi dövrələ-yən dağ zirvələrinə yürüş bu kənddə keçirilən hər günü mənalı edir. Elə turizmdən yaxşı qazanc əldə etməyi bacaran ordubadlı kəndlilər də bu işə həvəslə yanaşırlar. Belə ki, Dırnısla bitişik olan Anaqut kəndinin girəcəyində yeni

yaradılan müasir "Xan Çinar" İstirahət Mərkəzi eyni anda yüzdən artıq turistə mədəni xidmət göstərmək imkanına malik olacaq. Dırnıs bağlarındakı kölgə-liklərdə isə çox da baha olmayan qiymətə şəhərli turistlər həftə sonlarını keçirə bilər, istəsələr, böyük villatipli evlərdə otaq da kirayə edib, daha geniş, daha yaddaqalan bir kənd təəssüratı qazana bilərlər. Belə abad ev və həyətlər isə Dırnısda xeyli saydadır.

Dırnıs gələcəkdə turizm potensialı daha böyük olacaq bir kənddir. Ordubadın bu kənd istiqamətindəki turizm cazibə elementlərinin tədqiqi, onların turizm marşrutlarında istifadəsi məqsədilə mövcud şəraitin tanıdılması üçün daha çox reklam və təbliğat işinə ehtiyac vardır. Çünki turizm yayılıb genişləndikcə daha çox sərfəli layihələr üçün yeni fürsətlər yaranır. Belə müsbət təcrübə isə Naxçıvanda artıq var.



## 9. *Naxçıvan - Keçili turizm marşrutu*

Hər dəfə söhbət Şahbuzdan, onun gözəlliklərindən düşəndə heç, şübhəsiz, dağların qoynunda səngərləmiş, tarixi keçmişi və bugünkü inkişafı ilə hamının marağını çəkən iri kəndlərin adları ilk sırada gəlir. Biçənək, Kükü, Keçili, Badamlı…. İlin istənilən vaxtında Şahbuza gəldiyimizdə sanki bir-birinə arxa-dayaq kimi səf tutmuş sərkərdə dağların zirvəsinə doğru qıvrılaraq aparan yollar boyunca yerləşən bu kəndlər haqqında qonaqlarımıza ağız dolusu danışacağımız hekayələr vardır.



Keçili Şahbuzun 22 kəndindən biri, rəsmi statistikaya görə ən böyük kəndidir. Əhalisi 2 min nəfərdən artıq olan bu kənd rayon mərkəzi Şahbuz şəhərindən 20, Naxçıvan şəhərindən isə 50 kilometr məsafədədir. Keçilinin adı təkcə muxtar respublikamızda deyil, onun hüdudlarından kənarda da yaxşı tanınır. Yetirmələri ilə yanaşı, füsunkar təbiəti, saf suları, havası və bugünkü inkişafı barədə haqqında danışdıqda Keçili kəndi buraya səfər etmək istəyənlərdə əsl turist motivi yaradır.

Kənd sözün əsl mənasında Şahbuzun gəlməli, görməli yerlərindən biridir.

Keçili tipik dağ kəndidir. Burada kəndə məxsus ibtidai gözəllikləri özündə saxlayan, bununla yanaşı müasir cəmiyyətin inkişaf elementlərini də özündə əks etdirən hər cür ecazkar mənzərəyə rast gəlmək mümkündür. Dünyanın heç bir şəhərtipli yaşayış məntəqəsində rast gələ bilməyəcəyimiz sadə və bənzərsiz kənd panoraması, yamyaşıl həyətləri sanki Günəşdən də qısqanırmış kimi dövrələyən lalətək qıpqırmızı həmərsin çəpərləri, bir dəqiqədən sonra adamın barmağını donduran bumbuz bulaqlar və bütün kənd əhalsinin bir ailə kimi bir-birini yaxşı tanıdığı sosial həyat Keçilidə  öz axarı ilə davam edir. Burada hamı torpaq mülkiyyətçisi, dədə babadan qalmış bağ-bağatın sahibi, ata yurdunun əbədi sakinidir. Yurd demişkən, keçililər yurd yuvalarına çox bağlı insanlardırlar. Harada yaşamaqlarına baxmayaraq Keçilidə dünyaya göz açmış insanlar hökmən öz kəndlərinin havası iilə nəfəs alır, bir-biri ilə ünsiyyətdə bu səmimiyyəti saxlayır, kənddəki yenilikləri bir anda bir-birləri ilə paylaşır, çətin anlarda mənəvi dəstək olurlar. Bu, tanımış ziyalısından, dövlət məmurundan tutmuş sadə təsərrüfatçıya qədər bütün keçililərin alışıq olduğu həyat tərzidir. Odur ki, Keçiliyə gələrəkən buradakı qonaqpərvərliyi öz gözləri ilə görmək istəyənləri bir də kəndin ilk baxışda adi gözlə görünməyən mənzərəsi ilə tanış etmək çox yerinə düşər.

Keçili çox güclü potensial turizm məkanıdır. Şahbuzun digər dağ kəndləri kimi Keçilinin də özünəməxsus cazibədarlığı və təbii turizm ehtiyatları vardır. Dəniz səviyyəsindən 3200 metr hündürlükdəki Camalqala, Aracı, Üçqardaş, Soltanbud, Tap, Qaradağ zirvələri, hər kəsin tanıdığı Çınqıllı bulağı ilə yanaşı Qoşabulaq, Kəklikbulaq, Qumlubulaq, Daşbulaq, Muncuqlubulaq buraya təşrif buyuran qonaqlara və turistlərə həvəslə təqdim olunacaq cazibə elementdərindəndir. Əgər bu səyahət yaz aylarında olarsa onda

keçililərin mətbəxində mühüm yer tutan ələyiz, şıppır, əvəlik, cacıq, sobu, baldırğan, çaşır, gicitkən, quzuqulağı, çöl kəvəri, mərövzə, göbələkdən dadmaq mümkündür. Onda səyahətçilər bir daha inanacaqlar ki, dağ adamlarına xas olan belə polad kimi gümrahlığın bir səbəbi də məhz bu yerlərin milyon illər əvvəlki kimi ekoloji cəhətdən təmiz qida məhsulları və büllur kimi saf havasıdır. Naxçıvanın marketlərində böyük alıcı tələbatı görən Çınqıllı suyu bulağının gözündəcə bir qoşa ovuc içib dərindən nəfəs aldıqca bu dünyanın ən gözəl yerinin məhz burada, Naxçıvanda olduğuna insan bir daha inanır.

Şahbuzun ucqar dağ kəndi kimi Keçilinin dünəni və bu günü arasında böyük fərq vardır. Bunu yerli sakinlərlə yanaşı bu kəndə ilk dəfə gələnlər də açıq görə bilərlər. Burada yaradılmış müasir sosial infrastruktur, məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, 2011-ci ildə bu kənddə baş vermiş torpaq sürüşməsi zamanı evləri zərər görmüş ailələr, habelə şəhid ailəsi üçün tikilmiş mənzillər kəndin çox qısa bir müddətdə nə qədər yeniləndiyini bir daha göstərir. Keçilidə hazırda tikilməkdə olan mərasim evi, yaradılmış sosial xidmətlər, gün ərzində rayon mərkəzi və Naxçıvan şəhəri arasındakı 6 dəfə ictimai nəqliyyat vasitəsi əlaqəsi əhalinin kollektiv rifahlarının ödənilməsində və başqa sözlə şəhərlə kənd yaxınaşmasında mühüm rol oynayır.

Keçililər çox qoçaqdırlar. Bu kəndin sakinləri təbiətin buraya bəxş etdiyi hər neməti qazanca çevirməyəi yaxşı bacarılar.  Şahbuzdakı bir neçə istehsal müəssisəsindən biri, Çınqıllı suyu müəssisəsi bu kənddədir. Dağların büllur kimi saf təmiz suyu burada qablaşdırılaraq naxçıvanlıların və diyarımıza gəlmiş qonaqların ürəyinə sərinlik gətirdikcə Şahbuzun şöhrəti də hər yerə yayılır. Təsərrüfatçılıqdakı, dülgərlik, nalbəndlik, yüngül dəmirçilik sahəsindəki sənətkarlıq  bacarıqları ilə yanaşı keçililər elm, təhsil, mədəniyyət və sənət sahələrində də öz sözlərini deyirlər.

## *10. Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu*

Ölkəmizin istər daxili, istərsə də beynəlxalq turizm destinasiyaları arasında mühüm əhəmiyyətə malik olan Naxçıvan Muxtar Respublikasında turistlərə təqdim olunacaq Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu üzərindəki cazibə elementləri burada təzadlı, ancaq ahəng qanununa tabe olan səslər kimi bir-birini tamamlayaraq, son nəticədə, mükəmməl



bir sonluq yaradan simfonik əsər təəssüratı yaradır. Ona görə də Naxçıvanın bu dilbər guşəsindəki gözəllikləri bir dostunuzla bərabər kəşf etməyə dəyər.

Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu Naxçıvan şəhərindən Şərur rayonundakı Bayraq Meydanınadək, təxminən, 50 kilometr, buradan da son destinasiya olan Şahbulaq kəndinədək 17 kilometr olmaqla toplamda 67 kilometr uzunluqda olub, bir-birindən maraqlı təbiət gözəllikləri və tarixi-mədəni resurslarla zəngindir. Marşruta maraq göstərənlər Naxçıvana səyahət etmiş əcnəbilər və muxtar respublikamıza ölkəmizin müxtəlif yerlərindən, xüsusilə Bakı şəhərindən gəlmiş turistlər və birgünlük ekskursantlar ola bilər. Marşrut boyunca istər səhər erkəndən, istərsə də axşama doğru yola çıxan insanlar üçün qardaş

Türkiyənin ən böyük dağı olan Ağrı dağının bu ərazidən olan görüntüsü ilk və ən böyük cazibə elementidir. Naxçıvandan Duzdağ yoluna çıxarkən çılpaq dağların fonunda təbii kontrast effekti yaradan yolboyu yaşıllıq zolaqları da turistlərin nəzərindən qaçmır. Bu ahənglə davam edən səyahət Kəngərli rayonunun mərkəzindəki Bayraq Meydanının möhtəşəm mənzərəsi ilə qarşıdakı bütün gözəlliklər üçün giriş verir. Qarşıda isə turistləri Şərur rayonunun təbii və insan əli özəlliklərindən ibarət tam bir kompozisiya gözləyir. Şahbulaq turizm marşrutu istiqamətində təqdim olunacaq cazibə elementləri isə bu kompozisiyanın ən çılğın notlarından biridir. Naxçıvan dağlarından başlayan Arpaçay Xan Arazla qovuşub doğma Xəzərdə təsəlli tapan beş böyük çaydan biridir. Bu torpaqların barbərəkət qaynağı olan Arpaçayın tarixən şəninə qoşulmuş nəğmələr onu uzaq-uzaq ellərdə tanıtmış, hazır da da Şərura, xüsusən də Şahbulaq istiqamətinə gələn qonaqlar bu çay üzərində tikilmiş iki böyük su anbarını və ətrafındakı gözəllikləri seyr etməkdən doymurlar. Uzaqdan, Gümüşlü dağlarından da o tərəfə Naxçıvanı hilal kimi dövrələyən dağlar cəsur sərkərdə kimi qalib ölkəyə yaraşan məğrurluqla Ağrı dağına paxıllıqla baxan düşmənlərə gözdağı verir.

Dizə kəndindən başlayaraq yolboyu kamali-ədəblə düzülmüş çinarları, onların ətrafındakı abadlıqları seyr edən turistlər Gümüşlü kəndindən çıxıb Şahbulağa yol aldıqda isə birdən-birə tamamilə fərqli bir mənzərə ilə üz-üzə qalırlar. Bu, Yer kürəsindən yüz milyonlarla kilometr məsafədəki sarı-qırmızı soyuq Mars səthitək uzaq, amma yaşadığımız Naxçıvan torpağının isti nəfəsitək yaxın və doğma bir təəssürat yaradan bir mənzərədir. Bəli, Şahbulaq yolunda, Şapur bulağının ətrafındakı bir neçə kilometrlik məsafəni ədəbi bənzətmə yolu ilə, sadəcə, belə təsvir etmək mümkündür. Belə deyə bilərik ki, ilin istənilən fəslində Şahbulaq yolundakı çılpaq vulkanik qayaların fonunda yüzlərlə fotoşəkillər çəkib, dostları və yaxınları ilə paylaşmaq istəyən həvəskar turistlər üçün bu

məkanın yaxın coğrafiyada analoqu yoxdur. Buradan keçən turist qrupu üçün sərt qayalarda özünün akrobatika bacarıqlarını göstərən dağ keçilərini görmək isə insan və vəhşi təbiət yaxınlığına şahid olmaq baxımından ən yaxşı fürsət olacaqdır. Bundan başqa, yol üzərində yerli camaatın və buradan keçənlərin ziyarət etdiyi "Dilək ağacı"na dayanıb tamaşa etmək isə xoş niyyətlərlə yola çıxan hər bir insanın ürəyində arzularının bir gün hökmən çin çıxacağına inanc hissləri doldurur.

Beləcə, Naxçıvan şəhərindən çıxan turistlər çox da yorulmadan, təxminən, birsaatlıq rahat yolun ardından artıq kifayət qədər zəngin təəssüratlarla Şahbulağa çatırlar. Şahbulaq bu istiqamətdə bölgənin ən ucqar kəndidir. Əhalisi, təxminən, 600 nəfər olan Şahbulaq dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşir. Sakit, səssiz, yaşıllıqlar içində "itib-batmış" tipik bir kənd həyatı hökm sürür bu kənddə. Kənddə yaradılmış müasir sosial infrastruktur buradakı sakinlərin həyat səviyyəsindən xəbər verir. Bu, xüsusən iri şəhərlərin xaotikasına alışmış və səyahətə gəldiyi şəhərdə bəzən yerli-yersiz özünün də bilmədiyi səbəbdən yaşadığı mühiti və mənzərələri axtaran turistlər üçün ən yaxşı maarifləndirici bir təsvir obyektidir. Qeyd edək ki, belə obyektlərin miqdarı Naxçıvandakı bütün kəndlərin sayı qədər olub, yəni iki yüzdən artıqdır. Odur ki, təkcə Şahbulaq kəndi insanların necə normal həyat səviyyəsində yaşadığını, iş və istirahəti turistlərə necə qurmağı təbliğ edə bilmək baxımından ən yaxşı təqdimatdır.

Şahbulaq kənd, kamp və piyada yürüş kimi aktiv turizm növləri üçün ideal məkanlardan biridir. Havasının və suyunun təmiz olması, Şərur və Naxçıvan şəhərlərindən çox uzaq olmasa da, sadə kənd həyatının mövcudluğu, şəhərli turistləri çox maraqlandıran orqanik heyvandarlıq və bitkiçilik məhsulları istehsalı diyarımızda Şahbulaq kimi kəndlərə olan marağı artırır. Şahbulaqda, demək olar ki, hər bir həyətdə bütün yay fəsli ərzində ən azı bir qonaq ailənin rahat istirahət edə

bilməsi üçün yaxşı imkanlar vardır. Bu imkanların minimum şəraitlə turistlərə təqdim olunması üçün kəndlilər indidən öz biznes planlarını müzakirə edirlər. Belə ki, muxtar respublikamızın bu sahədə yaxşı təcrübəsi olan Ordubad və Şahbuz rayonlarında kənd camaatının bu sahədən əldə etdiyi gəlirlər şahbulaqlıları da maraqlandırır. Onu da qeyd edək ki, çox da uzaq olmayan keçmişdə, ötən əsrin 70-80-ci illərində bu kənddə məktəblilərin yay düşərgəsi olub ki, yerli sakinlər həmin səs-küylü günləri yaxşı xatırlayırlar. Müasir dövrdə isə kəndə məxsus təbii gözəlliklər və sosial-mədəni ab-hava burada hər məhəllədə belə qonaqpərvərlik mühitinin yaradılmasına imkan verir. Həm də peşəkar səviyyədə. Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu üzrə təqdimatın sonunda turistlər seçimə görə Şərur şəhərindəki ticarət və sosial-mədəni xidmətlərdən istifadə edə, buradakı restoranlarda nahar və ya şam yeməklərini planlaya bilərlər.



## *11. Naxçıvan-Ordubad-Göygöl turizm marşrutu*

Zəngin təbiət gözəlliklərinə sahib olan Naxçıvanda mövcud turizm marşrutları arasında Ordubadın məşhur Göygölünə səyahət qədim diyarın turizm cazibəsi ilə tanış olmaq istəyənlərin ən həyəcanlı yürüşlərindən biri ola bilər. Bəli, məhz Ordubadın Göygölünə! Azərbaycanın dilbər güşəsi, Gəncə şəhəri yaxınlığındakı Göygölün ecazkar gözəlliklərini görüb məftun olmuş insanlar bir də Naxçıvanda, Ordubadın Göygölündə olduqlarında dörd fəsli bir gündə yaşamaq fürsəti əldə edirlər. Naxçıvan-Ordubad-Göygöl turizm marşrutunun son nöqtəsi bu mənada, bir çox turistin çatıb, görmək istədiyi unkal yerlərdən biridir.

Naxçıvan şəhərindən təxminən 110 kilometr məsafədə, Gilançayın mənbəyində yerləşən Ordubadın Göygölünə çatmaq üçün turistlər səhər erkən saatlarında yuxudan qalxmalıdırlar. Belə ki, bu təbiət gözəli tarixi Azərbaycan torpaqları olan Zəngəzur dağlarının ta zirvəsində yerləşməklə, buraya gəlmək istəyənlərin xeyli vaxtını apara bilər. Çünki, Naxçıvandan Ordubada aparan yol üzərindən, Aza kəndindən Tivi kəndinə qədər olan yollar tam müasr standartlar səviyyəsində olsa da Tividən Göygölə qədər olan məsafəni çətin keçilən dağ yolları ilə keçmək lazım gəir ki, bu da ümumilikdə, bütün yola 4 saat yarımdan çox vaxt sərfi deməkdir. Məsafəyə gəldikdə, Naxçıvandan Tiviyə qədər təxminən 90, Tividən Xursa qədər təxminən 10, buradan Göygölə qədər isə 22 kilometr məsafə turistlər üçün unudulmaz təəssüratlar yaradır. Gilançay yatağı boyunca mövcud olan qədim yurd yerlərimiz Aza, Sabirkənd, Baş Dizə, Biləv, Parağa, Tivi, Xurs və Nürgüd kəndlərindən keçməklə turistlər əslində Göygölün həyəcandolusu təəssüratlarını yaşamağa hazırlaşırlar. Qarşıda onları bir-birindən maraqlı trekinqlər, sərt qayaların zirvəsindən qıy vuran qartalların göz yoldaşı olan mənzərələr, dağ

yamaclarından yola çıxıb doğma Araza qovuşmağa tələsən buz kimi sular və bir də bütün yol boyu onları müşaiyət edəcək şirin Ordubad ləhcəli qonaqpərvər insanların məzəli söhbətləri gözləyir.

Ordubadın Göygölü görd fəslin bir arada yaşana bildiyi unikal məkanlardan biridir. Bunu xüsusilə yayın orlasında buraya gəlmiş insnalar yaxşı bilirlər. Belə ki, iyul ayında Araz kənarında istinin cırhacır vaxtı tənbəllik eyləməyib Göygölə qalxmaq istəyənləri burada buz kimi sərin amma bol günəşli hava gözləyir. Odur ki, Göygölə qalxmaq istəyən turistlər burada daha çox vaxt keçirmək və ya sadəcə istirahət etmək istəyirlərsə özləri ilə samovar, yüngül yeməklər və çadır tədarükü də edə bilərlər. Belə ki, bu nöqtə dəniz səviyyəsindən xeyli yuxarıda və hava da sərin olduğu üçün enerjili yeməklərə də ehtiyac yaranır. Ancaq onu da qeyd edək ki, Göygöldə kabab bişirmək bir az çətin ola bilər. Yüksəklikdə oksigenin azlığı burada tonqal qalamağı da çətinləşdirir.

Ordubad Göygölü eynilə Gəncədəki ekizi Göygöl kimi unikal panoramk mənzərəli bir məkandır. Burada mühüm cazibə elementlərindən biri ətrafda 360 dərəcəli bir panoramik fotoovçuluq əyləncəsi imkanının olmasıdır. Yayın ortasında havanın şəffaf olması, ətrafda da qar bəyazı, su mavisi, yaz yaşılı və payız sarısı rənglərin bir-birinə qarışdığı bir mənzərə fonunda belə panoramik mənzərələr illər uzunu turistlərin həvəslə paylaşacağı fotolar olacaq. Ümumiyyətlə isə Göygöl marşrutu üzərində belə mənzərələr çoxdur. Belə ki, turistlər onları daşıyan lüks nəqliyyat vasitəsi Tivi kəndinə çatıb çətin keçilə bilən yollara uyğun avtomobilə transfer olunduqdan sonra kəndin ətrafını dövrələyən dolanbac yollarla irəlilədikcə belə mənzərələri görə bilərlər. Qeyd etmək lazımdır ki, burada iki mümkün istiqamət vardır. Turistlərin daha yaxşı belə gözəllikləri seyr edə bilməsi üçün Tivi kəndinə girmədən kəndin üst hissəsindən təxminən 1900 metr yüksəklikdən quşbaxışı ətrafa nəzər salmaq daha məsləhətldir. Burada yerli

sakinlərin istifadə etdiyi yüksəkeçidli avtomobillərdən çox da baha olmayan qiymətlərlə istifadə etmək, yerli istehsal qida məhsullarından alıb istifadə etmək mümkündür. Bu həm də yerli sakinlərə əlavə qazanc deməkdir. Xursdan keçəndən sonra buradakı ağaclıqların altında qısa fasilə verən turistlərə çay və yüngül yeməklər təklif oluna bilər. Bu məqamda,



gedərək havanin seyrəldiyini və oksigenin azaldığını hökmən nəzərə almıq lazımdır. Xursdan daha yuxarıya doğru hərəkət edən turistlər ölkəmizin dövlət sərhədinə yaxınlaşdığı üçün müvafiq icazəni də aldıqdan sonra üst zirvəyə çatıb, qarşıda çoxdan bəri görmək istədiyi təbiət gözəli Göygöllə üz-üzü qalırlar. Qarşıdakı iki zirvə arasında buzlaqlardan qidalanan dağ çayının o biri tərəfində Göygöllə yanaşı iknci bir kiçik göl də turistlərin marağını çəkir. Deyilənə görə Göygölə çatmaq

üçün aşılan ən son zirvənin qarşısındkı zirvənin o biri tərəfində, yəni tarixi torpaqlarımız olan Qərbi Zəngəzurda Göygöldən dəfələrlə böyük olan Qazangöl də vardır. Buraya səfər hələlik mümkün olmasa da, şübhəsiz, gələcəkdə qalib ölkənin vətəndaşları kimi azərbaycanlılar bu təbiət gözəli ilə də tanış ola biləcəklər. 3 min metrdən artıq yüksəklikdə belə bir böyük gölün olması da bir möcüzədir.

Göygöldə dəfələrlə olmuş və buraya həm yerli, həm də əcnəbi turistlərlə turlar təşkil etmiş turizmçi dostlarımızın təəssüratlarına görə, buraya may ayından avqustun ortalarına qədər səfər etmək sərfəldir. Əgər turistlər çılpaq vulkanik qara qayaların fonunda gölün ətrafındakı qar üzərində lazımi təhlükəsizlik tədbirlərini  gözləmək şərti ilə gəzişib, qarın ağzındakı çiçəkləri canlı görmək istəsələr o zaman  iyun ayı daha uğurlu vaxt ola bilər. Bu mövsümdə Göygölə gəlmiş turistlər Gilançayın sol qolu olan Sakkarsu çayının dəli axan sularına dəqiqələrcə tamaşa edə, burada qar ağzında yenicə boy atmış qıpqırmızı dağ yarpızlarından toplaya bilərlər. Aktiv istirahət həvəskarlı burada rahat gəzmələri üçün özləri ilə turist stiklərindən istifadə edə, dağ yürüşləri zamanı avtomobillərin sərt keçidlərindən zövq ala, ətrafdakı biomüxtəlifliyi də  bu hekayənin bir parçası  kimi filmə ala bilərlər.  Yolun uzunluğunun nəzərə alaraq axşamüsütü saat 4 olmadan şəhərə qayıtmağın vaxtıdır. Sərt yamac yollarını üzüaşağı enmək buraya qalxmaqdan daha çətindir.

Naxçıvan-Ordubad-Göygöl turizm marşrutu Naxçıvanın perspektivi böyük olan turizm istiqamətlərindəndir. Bu marşrutun daha dərindən öyrənilməsi, onun cazibə elementlərinin tanışlıq və rekreasiya qiymətləndirilməsinin aparılması bu istiqamətdə daha çox aratşdırmaların aparılmasını tələb edir. Naxçıvana turist marağının getdikcə artması, regionumuzun ümumi inkişafı və turizmin inkişafından gözlənilən nəticələrin aktuallığı bunu bir daha zəruri edir.

# IV FƏSİL. NAXÇIVAN – ZƏNGƏZUR – ŞUŞA TURİZM MARŞRUTU

## *1. Naxçıvan – Qərbi Zəngəzur – Şuşa turizm marşrutu*

Ölkəmizdə turizmin inkişaf üçün potensial cazibə gücünə malik olan istiqamətlərdən biri Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutudur.

Həm beynəlxalq, həm də Azərbaycan daxili turizm səfərləri üzrə səyahət güzərgahlarında mühüm keçid məntəqəsi olan Zəngəzurdan bu məqsədlə istifadə uzun müddət istifadəsiz qalmış bu marşrutun imkanlarının reallaşdırılması ilə yanaşı, həm də 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin qazandıgı parlaq Qələbədən sonra bölgədən uzunmuddətli sabitliyin yaradılması yolunda da maraqlı ideyadır. Turizmin bütün dünyadakı post-konfliktlər dövründə ən yaxşı sabitləşdirici, sosial-iqtisadi, humanitar inkişaf vasitəsi olması bu baxımdan, Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun, ümumiyyətlə, Zəngəzur dəhlizinin gələcək perspektivlərini bir daha ortaya qoyur.

İşğalçı Ermənistan tərəfindən otuz ilə yaxın müddətdə işğal altında saxlanılmış Azərbaycanın Qarabağ bölgəsinin yenidən inkişaf etdirilməsi, bu torpaqlardan köçkün düşmüş dinc əhalinin öz doğma yerlərinə qaytarılması, ümumlikdə Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olunması baxımından Zəngəzurun tanışlıq, rekreasya və tranzit imkanlarının turizm dövriyyəsinə cəlb olunması bu bölgədə həlli vacib olan ən əhəmiyyətli məsələlərdən biridir. Bu mənada, 10 noyabr 2020-ci il tarixdə Azərbaycan, Rusiya və Ermənistanın birgə imzaladığı üçtərəfli razılaşmanın şərtlərinə əsasən bölgədə kommunikasiyaların yenidən açılması bu turizm marşrutunu da xəyallardan gerçəyə çevirəcəkdir. Tank üstündə olmasa da bu dəhliz vasitəsilə 100 il əvvəl olduğu kimi

azərbaycanlılar buradan keçərək İslam Mədəniyyətinin Paytaxtı Naxçvandan Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşayadək bütün Zəngəzura, ordan da Qərbi Azərbaycana çıxış yolu əldə edəcəklər.

Zəngəzur özünün yerləşmə mövqeyi, qeyri-adi təbiəti və tarixi-mədəni zənginlikləri ilə hər kəs üçün cazibədardır. Cənubi Qafqaza ilk dəfə səyahət edən çox sayda əcnəbi üç parçaya bölünmüş böyük Azərbaycan arasındakı bu dilimin xəritədə nədən başqa rəngdə olmasını çox çətin başa düşür. Eləcə də Naxçıvana ilk dəfə səyahət edən turistlər də nəyə görə bu ərazinin Azərbaycanın əsas hissəsindən nədən aralı düşdüyünü anlamaqda çətinlik çəkirlər. Doğurdan da son min il ərzində baş vermiş tarixi prosesləri bir tərəfə qoyub, hətta mövcud xəritəyə belə diqqətlə baxdıqda Dərbənddən Zəncana, Xəzərdən Kərkükə qədər üç tərəfdən Türk-Oğuz yaşayış məskənləri ilə əhatə olunmuş bir ərazinin nəyə görə ermənilərə aid olduğu hər kəsdə haqlı suallar yaradır. Hər halda tarixi ədalət olsaydı bu belə olmamalıydı!

Tarixi Azərbaycan torpağı Zəngəzurun turizm marağı baxımından öyrənilməsi nostaljiyə qayıdış və gələcək iqtisadi-humanitar inkişaf perspektivləri baxımından çox əhəmiyyətlidir. Keçmişə qayıdış ona görə vacibdir ki, yeni dövrdə Zəngəzura səyahət edə biləcək hər bir şəxs, xüsusən, gələcək nəsillər bu torpağın əsl sahibləri haqqında təsəvvürlər əldə edə biləcək, indiki Ermənistanın bir dövlət kimi formalaşdırılması zamanı baş vermiş bütün hadisələrin gerçək üzü ilə tanış olacaqlar. İndiki dövrdə emənilər hər nə qədər buradakı yerləri erməniləşirilmiş adları ilə dünyaya tanıtmağa çalışsalar da Zəngəzurun təbii gözllikləri, eləcə də emənilərin buraya göçürülməsindən min il əvvəllər mövcud olmuş tarixi abidələrin yerlərinə, türkmənşəli yaşayış məntəqələrinə qayıda bilmək, bu baxımdan, hər bir azərbaycanlının arzusudur. Qərbi Azərbaycanda indiki erməni əhalsinin dörddə üçünün təxminən 200 il əvvəl, yəni 1828-ci il Türkmənçay müqaviləsindən sonra

buraya köçürülməsi ilə yarandığını və onların heç zaman burada aborigen insanlar olmadığını biliriksə, o zaman Zəngəzurun və digər mahalların da türkmənşəli yaşayış məntəqələri, qədim mədəniyyət nümunələri də bizim diqqətmizi cəlb edir. Belə yaşayış məntəqələri isə çox da uzaq olmayan keçmişdə yüzlərlə və daha çox olub. Belə ki, 1932-ci ildə, yəni Sovet hakimiyyətinin kifayət qədər gücləndiyi bir dövrdə Tiflisdə dərc olunmuş "Sovet Ermənistanın əhalisi" adlı nəşrdə ermənilərin özləri tərəfindən bu ölkdəki 2310 kənddən 2000-nin adının türk mənşəli olduğu göstərilir. Bu ölkədəki 36 rayondan 33-də azərbaycanlıların yaşaması da tarixi sənədlərdə çox ciddi şəkildə əks olunmaqdadır. Zəngəzura gəldikdə isə XX əsrin əvvəllərində bu mahaldaki 7 rayonda 240 azərbaycanlı kəndi olub ki, bu say da ermənilər yaşayan məntəqələrin sayından 3 dəfə artıq idi.

Zəngəzurun tarixi çox keşməkeşli olub. Hələ VII əsrdə ərəblərin istilasına məruz qalmış Zəngəzur daha sonra xronoloji olaraq Şəddadi, Səlcuqlu, Monqol, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı dövlətlərinin tabeliyində olub. Nadir şahın ölümündən sonra Azərbaycanda xanlıqların yaranması ilə Zəngəzur mahalı əsasən Qarabağ xanlığının tərkibində olub. XIX əsrin əvvəlində Cənubi Qafqaza rusların gəlməsi ilə başlayan qara günlər Zəngəzurdan da yan keçməmişdir. Əvvəllər Qarabağ əyalətinin tərkibində Həkəri və Bərgüşad çayları hövzəsindən tutmuş Zəngəzur dağ silsləsinədək böyük bir mahalı tutan bu torpaqlar 1841-ci ildə Zəngəzur və Mehridən ibarət olmaqla iki yerə bölünmüşdür. Daha sonrakı dövrlərdə Zəngəzurun taleyi daha da mürəkkəb olsa da bu ərazinin Qafqaz Albaniyası dövründə olduğu kimi yenə də Azərbaycanın tərkib hissəsi olduğu tarixi sənədlərdə qəti şəkildə öz əksini tapıb. Buna görə də xalqımızın Zəngəzura olan marağı hər bir azərbaycanlının min illər ərzində formalaşmış su yaddaşından süzülüb gələn Vətən sevgisinin

məhsulu kimi dəyərləndirilməli və bütün dünya da bunu belə qəbul etməlidir.

Yüzillər əvvəlki kimi indi də Zəngəzurda zəngin tanışlıq və təbii-rekreasya ehtiyatları vardır. Təəssüf ki, buradakı təbii və tarixi-mədəni turizm ehtiyatları hazırda Ermənistan tərəfində istismar olunub, bu ölkə iqtisadiyyatına külli miqdarda gəlir qazandırır. Ona görə də bunların Azərbaycana məxsus ehtiyatlar kimi tanınması və tanıdılması baxımından, gələcəkdə Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun mühüm cazibə elementləri kimi öyrənilməsinin əhəmiyyəti böyükdür. Ermənilər 30 ilə yaxın bir dövrdə işğal etdikləri Qarabağ torpağından qovulduqdan sonra onların Azərbaycanın nə qədər sərvətlərini talan etdiyini görən dünya bundan sonra Zəngəzurda və eləcə də indiki Ermənistanda nə qədər sayda tarixi Azərbaycan kənd və şəhərlərini erməniləşdirdiyini, alban kilsələrini qriqoriyanlaşdırıb erməni abidəsi kimi istismar olunduğunu, azərbaycanlıların təkcə XX əsrdə dörd dəfə deportasiya məruz qoyulduğunu, məskənlərini necə yox edildiyini səyahətlər yolu ilə öz gözləri ilə görəcək. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Azərbaycan Orlusunun Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi: Ermənistan bunu istəsə də, istəməsə də!

Naxçıvandan Zəngəzur dəhlizi ilə bu uzun və maraqlı yola çıxanlar ilk olaraq Zəngəzurun Mehri rayonu ilə tanışlıq imkanı əldə edirlər. Azərbaycanlılar üçün bu bir növ daxili turizm marşrutu olsa da gələcəkdə Zəngəzur dəhlizindən istifadə edəcək olan əcnəbilər üçün bu yol çox maraqlı beynəlxalq turizm marşrutu kimi yaddaşlarda qalacaq. Adının heç cür sona qədər erməniləşdirilə bilinmədiyi Mehri cənubda Araz çayı vasitəsilə İranla, qərbdə Ordubad, şərqdə Zəngilan və şimalda Qafan rayonları ilə həmsərəhddir. Ərazisi təxminən 660 kvadrat kilometr olub, yüksək dağlıq lanşafta malikdir. Sovet dövründə rayon ərazisindən, Araz çayı boyunca Azərbaycanın mülkiyyətində olmuş dəmir yolu keçirdi. 1988-ci

ildən ermənilərin başlatdığı münaqişədən sonra bu dəmir yolu da istifadəsiz qalmış, yol infrastrukturu dağıdılmış, hətta polad relslər belə metal parçası kimi qonşu ölkəyə satılmışdır. Mehri rayonu ərazsində sonradan adları eybəcər hala salınmış çox sayda azərbaycanli kəndləri vardır. Hazırda beş min nəfərdən də az əhalisi olan Mehri şəhəri ilə yanaşı rayondakı irili-xırdalı cəmi 13 kənddən adları Aynazur, Əlidərə, Əmrah daşı, Bənövşəbuşt, Qul, Maralzəmi, Mülkü, Nüvədi kimi qədim türklərə aid yurd yerlərini misal göstrmək olar ki, müasir Ermənistandakı gərgin demoqrafik vəziyyət ucbatından onların da əksəriyyəti tamamilə boşdur.

Mehri özünün yüksək dağ aşırımı ilə seçilir. Şimaldan 2500 metrdən yüksək olan dağ aşırımı və cənubdakı Mehri qalası diqqətləri cəlb edir. Zəngəzura köçürülmüş erməniər bir qayda olaraq alban kilsələrinin özləşdirilməsi ilə məşğul olduğundan Mehri qalası qalıqlarının erməniləşdirilməsinə imkan tapmamışlır. Əvəzində, Mehriyə gəlmiş turistlərin yol qeydlərindən və fotoşəkillərdən buradakı tipik erməni həyat tərzi elementləri diqqəti cəlb edir. Belə ki, Qarabağdan fərqli olaraq yaxın keçmişdə bu torpaqlarda döyüşlər olmasa da dağıdılmış infrastruktur, primitiv sosial-mədəni şərait və Anadolu türklərinin ifadəsi ilə desək "Hacı Murad dönəmi"ndən qalmış nəqliyyat vəsitələri və yaşayış binaları Mehridə çarpıcı olaraq nəzərə çarpır. Tarixi-nostalgiya baxımından Zəngəzura səyahət edən turistlər üçün Mehridə ən cazibədar yaşayış məntəqələrindən biri şübhəsiz, Nüvədi kəndidir. Belə ki, 1920-ci ildə Moskvanın təzyiqi ilə Zəngəzurun Ermənistana verilməsindən sonra Nüvədi kəndi əvvəlcə Zəngilanda qalmışdır. Lakin, 1969-cu ildə rəsmi olaraq Mehri rayonuna hədiyyə olunmuş Nüvədi kəndi Sovet hakimiyyəti dövründə də bu respublikada azərbaycanlılara qarşı həyata keçirilmiş mənəvi terror və diskriminasiyaya qarşı inadla müqavimət göstərmiş, burada gülcü təsərrüfat qurmuş və öz vəsaitləri hesabına sosial-mədəni həyat şəraiti-məktəb, klub,

kitabxana, həkim ambulatoriyası yaratmış, 30-dan artıq alim yetişdirmişlər. 1988-ci ilin sonuna yaxın artıq Ermənistandan 250 min nəfər soydaşımızın deportasiyası tamamlansa da Nüvədi azərbaycanlıların son qala statusunu qoruyub saxlayraq yalnız 1991-ci ilin avqustundua rus əsgərlərinin də dəstəyinə arxalanan ermənilər tərəfindən işğal olundu və kəndin 2 minə yaxın sakini qaçqın düşdü. Buna görə də Naxçıvan-Zəngəzur-Şuşa marşurutunda hər bir azərbaycanlının Nüvədi dastanı ilə yerində tanış olması, bu kənddə qalmış həyat izlərini öz gözləri ilə görmək istəyi olacaqdır. Turizm marağı baxımından Zəngəzurun hər yerində olduğu kimi Mehrinin Nüvədi kəndində də qədim türk tayfalarının izlərinə rast gəlmək olar. Nüvədi yaxınlığındakı Qarqadaş dağındakı Göytürk qayaüstü rəsmlərini xatırladan peiroqliflər qədimdə burada yaşamış olan Qar-qar tayfalarından xəbər verir.

Qafan Zəngəzurun böyük rayonlarından biri olub, cənubda Qubadlı və Zəngilan, şərqdə Sisyan və Qorus, cənub-qərbdə Mehri rayonları ilə həmsərhəddir. Ərazisi Mehri rayonundan təxminən 2 dəfə çox olub 1345 kvadrat kilometrdir. Əsasən dağlıq əraziyə malik olub, ən yüksək zirvələri Qapıcıq və Xusdub dağlarıdır. Dəmir yolu xətti vardır. Qafan Bakı və İrəvan şəhərlərindən təxminən eyni məsafədədir.

Qafana tarixi nəzərdən baxdıqda, erməni sovet ensiklopediyasında da yazıldığı kimi bütün Zəngəzurda olduğu kimi bu qədər böyük ərazinin V əsrdən 1920-ci ilə qədər heç bir erməni dövlətinin tərkibində olmadığını görürük. Zəngəzurla ilk dəfə tanış olanlar üçün təkcə Qafan rayonunda 200-dən artıq kənd, çay, göl, dağ zirvəsi adlarının türk mənşəli olduğunu bilmək çox maraqlı faktlardır. Nə qədər erməniləşdirilməyə çalışsalar da müasir Ermənistan xəritəsində hələ də belə adları görmək mümkünüür. Kitabi Dədə-Qorqud dastanında da xatırlanan belə yurd yerlərmiz Zəngəzur mahalında da rast gəlinməkdədəir. Qafanda 1988-ci ilədək 40-a

yaxın kənddə sırf azərbaycanlılar yaşamışdır. Lakin 1918-ci ildə bu kəndlərdə, xüsusən, 5 mindən çox əhalisi olmuş Qatar, 2 mindən çox əhalisi olmuş Oxçu kəndlərində baş vermiş qırğınlar nəticəsində azərbaycanlılara qarşı kütləvi cinayətlər törədilib.

Qafana getmək üçün səyyahlar Mehri-Qacaran yolunu seçə bilərdər. İran sərhəddindən 50 kilometr məsafədə, Oxçu çayı yatağında yerləşən və keçmiş adı Oxçu olmuş bu şəhər özünün mis-molibden mədənləri ilə tanınır. Buradan təxminən 30 kilometr məsafədəki Qafan şəhərinə 40 dəqiqəyə çatmaq olar.

Qafan Zəngəzurun böyük şəhərlərindən biridir. Ermənistanda törədilmiş ən son etnik təmizləmədən sonra 1991-ci ildə şəhərin adı da mənəvi terrora məruz qalaraq rəsmi qərarla "Kapan" adlandırılmışdır. Habuki, "Qaf" dağı haqqında Azərbaycandakı mövcud əfsanəyə görə Qapıcığa ən yaxın böyük şəhərin adının onunla bağlı olması da ən məntiqli səslənir. Oxçuçayın orta axarındakı Qafan Cənub-Şərqdən Bərgüşad, cənubdan Mehri dağ silsiləsi, qərbdən Xustub zirvəsi ilə əhatə olunmuşdur. Qafanın təkrarsız təbiəti və florası çox qədimlərdən səyyahları özünə cəlb etmişdir. Qafan Zəngəzurda meşələrlə zəngin olan bir rayondur. Burada Oxçuçay hövzəsinin yuxarı hissəsində "Turşsu" deyilən məşhur mineral bulaqlar vardır. Qazangöl və Yaşılgöl gölləri də Qafanda yerləşir.

Qafanın zəngin tarixi keçmişi vardır. Hələ eramızdan yüzillər əvvəl insan məskənləri kimi adı çəkilən Qafan Qafqaz Albaniyasının bir hissəsi kimi burada baş verən hadisələrin mərkəzində olub. Yaşanılan tarix, istər qədim Alban dövlətləri, istər ondan sonrakı dövrdə burada mövcud olmuş müxtəlif dövlətlərin təsiri nəticəsində yaradılmış mədəniyyət nümunələri burada heç bir zaman erməni kökənli insanların izlərinə dair ipucları vermir. Bölgənin təbii, tarixi-mədəni zənginliyi qədim türk dillərində də ifadə olunduğu kimi sırf

milli morfo-etnik mənşəyimizi əks etdirir. Bu baxımdan, təkcə Mehri və Qafan nahiyələri arasındakı Mehri və Xusdub dağlarının arasındakı yerləri xatırlamaq kifayətdir - “Ördəkli yurdu”, “Darbərə yaylağı”, “Qaraçılar yurdu”, “Qoşa nov yaylağı”, “Xankəndi yaylağı” “Bəsitçay” və sair kimi yerlər, yaxud, Qazançı, Ağkənd, Mahmudlu, Daşbaşı, Kürkənd, Çiriş, Şəhərçik və sair kimi çox sayda türk toponimli yaşayış məntəqələri buranın əzəli sakinlərinin kimliyindən xəbər verir. Təkcə Şəhərcik kəndinin tarixçəsinə baxsaq, bu gün ermənilər Qafanda Njde və Andronik kimi cəlladalara abidə qoyub, bununla dünyaya meydan oxuduqları bir vaxtda, bir zamanlar, yəni 1918-ci ildə Zəngəzurda tüğyan edən erməni terroruna qarşı kənd sakinlərinin əfsanəyə dönmüş müdafiəsini yada salmaq kifayətdir. Hafizələrdə yaşayan tarixə əsasən, o dövrdə kəndi qoruyan 140 nəfər könüllü il yarım ərzində son nəfəsə qədər döyüşüb, Andronikin qoşunlarına ağır zərbələr vurublar. Tarixi mənbələrə görə könüllülərin komanidirlərindən olmuş Səhlalı Orucəli oğlu ağır yaralı halda ermənilərə əsir düşməmək üçün öz anasından onu evində yandırmağı istəyib. Erməni toplarının atəşi altında qalan kəndin son sakinləri Zəngəzur sisiləsinin çətin keçilən aşırımlarından keçərək Ordubad kəndlərinə sığınblar. Sovet hakimiyyətinin qurulmasından sonra öz doğma kəndlərinə qayıda bilən 600-ə yaxın şəhərcikli burada təsərrüfat və sosial həyat qursalar da daim mənəvi terrora məruz qalıblar. Belə ki, sovet dövründə Ermənistanın hər yerində olduğu kimi təhsil sahəsində azərbaycanlılara qarşı göstərilən diskriminasya burada özünü göstərib. 1960-cı illərdə belə Şəhərcikdə dərslər məscid binasında, sonra isə kolxozun öz hesabına tikilmiş dördotaqlı binada gündə iki və üçnövbəli olmaqla keçilib.

Təbii ehtiyatlar baxımından Qafan təkcə Zəngəzurun deyil, bütün Ermənistanın ən zəngin yerlərindəndir. Əlvan metal filizləri ilə zəngin olan Zəngəzurun bu bölgəsi XIX əsrdə Qərbi Azərbaycanın bütün gəlirinin yarıdan çoxunu təşkil edib.

Şübhəsiz, bu sahədə qazancları Qarabağın işğalı dövründə Kəlbəcərin və Zəngilanın da mis və qızıl sərvətlərinin qarət edilməsi üçün onların iştahını artırıb, Azərbaycana milyardlarla



dollar ekoloji və maddi zərər vurublar. Qafandakı mineral ehtiyatları mənimsəməklə yanaşı ermənilər sənaye tullantılar ilə Araz çayı hövzəsini də çirkləndiriblər. Turizm ehtiyatlarına gəldikdə isə Qafan bölgəsində Oxçuçay dərəsinin bənzərsiz landaşftı, bolsulu çaylar, Göygöl gölü, Oxtar çayı, fauna və flora, həmçinin Qafan qalası, Qazan xanın məskən saldığı yerlə bağlı olan Qazan düşən adlı yer, adı Babək hərəkəatı ilə bağlı olan Darvaz qalası, Govurqala, xalq qəhrəmanı Babəkin müəllimi Cavidanın adı ilə bağlı olan Pircavidan məqbərəsi, Kığı çayının sahilində yerləşən Hacat kəndindəki abidələr Qafanın görməli yerlərindəndir.

Çar Rusiysı dövründə Zəngəzurun mərkəzi olmuş Gorus unikal təbii gözəlliklərə malikdir. 20 min nəfərdən artıq əhalsi olan Gorus şəhəri ətraf landşaftına görə çox cazibədardır. Bu şəhər Zəngəzurun və eləcə də Qarabağa gedən yolun kəsişmə nöqtəsində olub, mühüm tranzit mövqeyindədir.

Gorusa Qafandan və Sisian-Laçın dəhlizindən keçməklə çatmaq olar. Zəngəzurun ən gözəl və ən böyük su hövzəsi sayılan Qara gölün böyük bir hissəsi Gorus rayonunun ərazisindədir. Gorus təkcə Zəngəzurun deyil, bütün Qərbi Azərbaycanın ən yağıntılı bölgələrindəndir. Yayın ortasında burada havanın orta temperaturu 20 dərəcəyə yaxın olur ki, bu da şəhərli turistlər üçün çox cazibədardır. Təbiət baxımından



Gorus şəhəri ətrafındakı Daş meşə olduqca turistik cəzibə gücünə malikdir. Vulkanik proseslər nəticəsində formalaşmış qara və qəhvəyi rəngli daş sütunlar fotoqraf həvəkarları üçün sevimli yerdir. Hər il Ermənistan bu resursların istifadəsindən də külli miqdarda valyuta qazanır. Gorusun digər görməli yerlərindən biri olan və XIII əsr tarixçisi Stepanos Orbelinin əsərlərində adı çəkilən və qədim Azərbaycan dilində "varlı" mənasını verən Xınzirək kəndi özünün daş mağaraları ilə çox cazibədardır. Bu böyük kəndin adını ermənilər özlərinə xas olan tərsliklə dəyişdirərək çətin tələffüz edilən "Xndzoresk" qoymuşlar. Bununla bir şey dəişməsə də dəyişilən bu yaşayış yerinin əhalsinin ötən əsrin əvvələrinə görə kəskin azalmasıdır. Belə ki, erməni mənbələrinə əsasən XX əsrin əvvələrində burada 8 mindən çox əhali olsa da 50-ci illərdə bu rəqəm 3 minə, hazırda isə 2 minə qədər azalıb ki, burada da

azərbaycanlıların deportasiyasının izləri açıq görünməkdədəir. Xınzirək kəndindəki daş mağaralar həm tarixi əhəmiyyəti, həm də təbii gözəllikləri ilə turistlərin diqqətini cəlb etsə də, təəssüf ki, müasir dövrdə ermənilər bu mağaraların üçdə ikisindən təsərrüfat və ferma məqsədilə istifadə edir, mal-qara saxlayırlar ki, bu faktlara da tursitlərin qeydlərində və fotolarda rast gəlinir.

Zəngəzurun digər bölgələri kimi Gorus da zəngin tarixi keçmişə malikdir. Gorus toponimi türk mənşəli Qorus tayfasının adı ilə bağlıdır. Rayonda çox sayda türk mənşəli toponimlərə rast gəlinir. Belə ki, 1918-ci ilə qədər Gorus ərazisində 45 azərbaycanlı kəndi olmuşdur. 1988-ci ildə isə bu rayonda cəmisi 5 azərbaycanlı kəndi qalmışdır ki, onların da əhalisi həmin ilin sonunda deportasiya edilmişdilər. Onlardan hazırkı dövrdə adı tez-tez hallanan Şurnux kəndi Gorus rayonunun ən böyük azərbaycanlı kəndi idi. Gorus şəhərindən 17 km cənubda, Qafan-Gorus magistral yolunun kənarındakı bu kənddə ən qədim zamanlardan 1989-cu ilədək qədər yalnız azərbaycanlılar yaşamışdır. Hələ 1979-cu ilin əhai siyahıya alınmasına görə Gorusun bu ən böyük kəndində 120 təsərrüfat və 600-ə yaxın sakin olub. 1988-ci ilin sonunda burada yaşayan azərbaycanlıların köçürülməsindən sonra 80 erməni ailəsinin buraya köçürülməsi haqda hətta İrəvanda çıxan Kommunist qəzetinin yaydığı xəbər də vardır.

Gorusun turzm cazibə elemetntərndən ən mühümü şübhəsiz, burada bazalt qayalıq üzərində yikilmiş Tatev alban kilsəsidir. Gorusa 30 kilometr məsafədə, tarixi IX əsrdən məlum olan məlum olan bu unikal memarlıq abidəsi orta əsrlərdə Zəngəzuru özünə tabe etdirmiş müxtəlif dövlətlər tərəfindən ələ keçirilib. Zəngəzura ermənilərin köçürülməsindən sonra burada saxta erməni mədəniyyətinin təbliğinə çalışılmış, hətta 1921-ci ildə burada Sovet hakimiyyətini tanımayan oyuncaq Dağlıq Ermənistan Respublikası da elan olunmuşdur. İndinin özündə də ermənilər

Tatev kilsəsini bütün dünyaya özlərininkiymiş kimi tanıtmağa çalışaraq, burada geniş turizm infrastrukturu da yaratmağa çalışmışlar. Ancaq halbuki, belə alban məbədləri təkcə



Zəngəzurda deyil, bütün Qarabağda, o cümlədən Azərbaycanın digər yerlərində də vardır. Bərdə, Şəki, Qəbələ və diğər rayonlarla yanaşı Kəlbəcər rayonundakı XIII əsr Xudavəng memarlıq kompleksi, Laçın rayonunun Kosalar kəndindəki IX əsr Ağoğlan məbədi, Xocavənd rayonu Sos kəndindəki IV əsr Amaras monastırı, rayonun Tuğ kəndindəki X əsr Qırmızı məbəd alban memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələridirlər.

Ümumi ərazsi 4505 kvadrat kilometr olan Zəngəzurun üçdə bir hissəsindən çoxu Qarakilsə (Sisyan) rayonunun payına düşür. Rayon eyni zamanda Qərbi Azərbaycanın da ən böyük rayonudur. Cənub-şərqdən Gorus, cənubdan Qafan rayonu, şimal-qərbdən Dərələyəzin ən yüksək zirvəsi olan Kükü dağı ilə həmsərhəd olub, dörd tərəfdən Zəngəzur və Bərgüşad silsilələri ilə əhatə olunub. Zəngəzurun ən bol sulu çayı olan Bazarçay bu rayonun ərazisindən keçirir. Bazarçay axarı boyunca dar dərələrdən keçərək müxtəlif yerlərdə gözəl

şəlalələr əmələ gətirir. Gənubi Qafqazdakı ən gözəl şəlalələrindən biri, 18 metr hündürlükdən tökülən Bazarçayın üzərində Şəki şəlaləsi də Sisyandadaır.

Əslində, “Sisian” adı ilkin yazılı mənbələrin əksəriyyətində ”Sisakan” kimi qeyd olunur. Bu ad ərəb, fars mənbələrində Sisəcan, Sisiyan, Sisakan şəklində çəkilmişdir. Sisyanda rast gəlinən eradan əvvəl II-III minilliyə gedib çıxan qayaüstü rəsmlərin Krım və Qazaxıstan kurqanlarında tapılan rəsmlərə, Qobustan və Gəmiqaya abidələrinə oxşaması bu ərazilərin aborigen əhalisinin məhz türkdilli tayfalar, o



cümlədən, saklar olduğunu göstərir. Saklar isə ən böyük türk tayfalarından olub, eradan öncə IV-III minilliklərdən başlayaraq Çinin şimalından, Tibetdən Qazaxıstana, Krıma, Qara dəniz sahillərinə, eradan öncə I minillikdə isə Qafqaza qədər yayılmışlar. Başqa sözlə, tarixi mənbələrə əsasən, X əsrə qədər Zəngəzurda bir nəfər də erməni olmamışdır.

Sisyan erkən orta əsrlərdən başlayaraq müxtəlif müharibələrin mərkəzində olmuşdur. Ərəblərə qarşı Babəkin son döyüşlərinin aparıldığı Urud qalası və Babəkin tutularaq xilafətə təhvil verildiyi Şəki qalası da Sisyan rayonunun ərazisindədir. Qala Bazarçayın sahilində, Darvaztəpə dağının zirvəsində yerləşir. Şəki qalası Azərbaycanda eramızdan əvvəl VII-V əsrlərdə məskunlaşan Saka adlı türk tayfasının adını qoruyub saxlayıb. Şəki qalası həm də Qızıl Arslanla Nizami Gəncəvinin görüş yeridir.

1828-30-cu illərdə buraya da xeyli sayda erməni ailələri köçürülüb, Qarakilsənin müxtəlif kəndlərinə yerləşdirilib. Ancaq bununla yanaşı rayondakı 58 yaşaış məntəqəsinin 53-də azərbaycanlılar yaşamışdır. 1918-ci ildə Andronikin terror dəstəsi burada yaşayan 12 min azərbaycanlıdan 5 minə yaxınını qətlə yetirmiş, sonrakı dövrlərdə də soydaşlarımız burada təzyiqlərə məruz qalmışdır. Nəticədə 1988-ci ilə qədər Sisyanın yalnız 11 yaşayış məntəqəsində azərbaycanlılar yaşayırdı. Qızılcıq, Sofulu, Murğuz, Şıxlar, Ağüdü, Bağüdü, Urud, Ərəfsə, Comərdli, Dəstəgird, Şəki burada min illər boyu yaşamış azərbaycanlıların son yurd yerləri olub. 1988-ci ilin sonlarında bu kəndlərin sakinləri də zorla köçürülüblər. Halbuki, bu kəndlərin əhalisi bir zamanlar Sisyanda mədəni həyat sürüb, təsərrüfatla məşğul olublar. Belə ki, təkcə 2 min nəfəri yaşadığı Ağüdü kəndində 1988-ci ilə qədər 300 yerlik müasir mədəniyyət evi, 700 şagirdin təhsil aldığı məktəb olub.
Comərdli kəndi Sisyanın azərbaycanlılar yaşamış dağ kəndlərindən biridir. Kənddən keçən Xırda çayı Sisyanın Ərəfsə kəndindən keçən Dəli çaya qovuşur və Bazar çaya tökülür. “Comərdli” kəlməsi kəndin əsasını qoymuş Comərd adlı kişinin adı ilə bağlıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ata yurdu olan Comərdli kəndində rəsmi statistikaya görə 1988-ci qədər 800-dən çox sakin yaşamışdır. 1918-ci ilin yayında Andronikin daşnak qoşunu Comərdli kəndinə də hücum etmiş, lakin sakinlərin sərt müqaviməti ilə

rastlaşmışdır. Sovet dövründə Comərdlidə yaşayan azərbaycanlılar buradaki Şırran bulaq, Əli bulağı, Sarı bulaq, Xırda çay, Təknə göl, Laləli bulağı, Sandıq daş, Qoyun dağılan, Çala yurd, Dəvə boynu, Ərzurum, Gamış uçan, Vənli dərə, Sallıq, Qaravış daşı, Əhməd yoxuşu, Səlim gədiyi kimi türk mənşəli adları qoruyub saxlamışlar. 1988-ci ilin dekabr ayında çox sayda tanınmış elm və içtimai xadimlərin vətəni olmuş Comərdli kəndini də ermənilər işğal və talan etdilər .

Şəki kəndi Zənşəzurun ən qədim və ən böyük azərbaycanlı kəndlərindən biridir. Kənd özünün bulaqları ilə çox tanınır. Kəndin iki min ildən çox yaşı olduğu güman edilir.



Kənddə Sovet hökuməti qurulana qədər böyük ruhani məktəbi olub. 1988-ci ildə bu kəndin 1700 nəfərə yaxın sakini də təzyiqlərə məruz qoyub, həmin ilin noyabrin 24-dən 25-nə keçən şecə Şəki camaatı bir gecədə öz doğma yurdlarından çıxarılıblar. Eyni faciəvi hadisələr rayonun Urud, Dəstəgird və digər kəndlərində də baş verib.

Turizm baxımından Sisyanda mövcud olan ən mühüm tanışlıq obyekti buradakı Qoşundaş abidəsidir. Neolit dövrünə aid olduğu ehtimal edilən abidə yerə bitili və dik dayanmış 200-dən artıq nəhəng daşlardan ibarətdir. Dairəvi formada düzülmüş daşların hündürlüyü təxminən 1,5-2,2 m, eni 60-80 sm-dir. Daşlarının bəzilərinin ağırlığı 10 tona qədər olan bu unikal abidəyə ermənilər sonralar iyrənc ad yapışdıraraq onu turistlərə tanıdır, külli miqdarda qazanc əldə edirlər. Ümumilkdə, Sisyanda qayaüstü rəsmlər və daş qoç abidələr də geniş yayılıb, rayonun kəndlərində sıx rast gəlinməkdədir.

Yüz dəfə eşitməkdənsə, bir dəfə gedib görmək yaxşıdır. Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu özünün bənzərsiz cazibədarlığı ilə hər bir səyahətsevərin diqqətində olacaq. Bu marşrut üzrə azərbaycanlı turistlər üçün maraqlı olan turizm növlərindən biri, şübhəsiz, etnik turizm olacaq. Kifayət qədər uzun müddətdə öz ata-baba yurdlarından uzaq düşmüş insanların öz yaxınlarını və ya onların məzarlarını ziyarət etmək üçün çıxdıqları səyahət növü olan etnik turizm bu mənada Zəngəzur və eləcə də bütün Qərbi Azərbaycan torpaqlarını bir daha görmək istəyən azərbaycanlı turistləri özünə cəlb edəcək. Etnik baxımdan təəssüf ki, azərbaycanlıların burada yaşayan yaxınları daha qalmasa da, əvəzində hər kənddə, hər şəhərdə onlara doğma olan insanların məzarları vardır.

Ona görə də biz bu torpaqlara yenidən qayıdacağıq!

## *2. Naxçıvan – Şərqi Zəngəzur – Şuşa turizm marşrutu*

Ölkəmizdə elə turizm marşrutları vardır ki, bu istiqamətdə səyahət edən turistlər üçün dünyanın başqa yerlərində eyni anda çox çətin rast gələ biləcəkləri heyrət, təəccüb hissləri ilə yanaşı, eyni zamanda qorxu, təəssüf və pis əməllərə qarşı nifrət hissləri yaradan təəssüratlar da formalaşır.

Azərbaycanın incisi, Qarabağın ürəyi sayılan Şuşa şəhəri istiqamətində mövcud olan təbiət gözəllikləri ilə yanaşı, bədnam ermənilərin bu torpaqları işğal altında saxladıqları 30 ilə yaxın bir müddətdə törətdikləri bütün qeyri-insani hərəkətlərin nəticəsini görən hər bir səyahətçi məhz bu hisslərlə evinə qayıdır. Xüsusən Naxçıvandan başlayaraq Zəngəzurdan keçməklə və Arazboyunca Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının işğal altında qalaraq erməni vəhşiliyinə düçar olmuş ərazilərini görən insanlar daha sonra Əhmədbəyli yaşayış məntəqəsindən başlayaraq Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarından keçən Zəfər Yolu boyunca Şuşa şəhərinə qədər, təxminən, 100 kilometrlik güzərgahın az qala hər metrində bu cür sarsıntılı hisslər yaşayırlar. Əslən Qarabağdan olan, uşaq və gənclik illəri burada keçmiş insanların 30 ildən sonra doğma torpaqları görmək üçün səbirsizliklə yola çıxdığı Şuşa marşrutu nə qədər həyəcanlıdırsa da, ömründə bu torpaqları heç görməmiş, keçmişdə burada mövcud olmuş inkişaf, zəngin təbii və tarixi-mədəni gözəlliklər haqqında yalnız tarix kitablarından oxumuş insanlar üçün də erməni vandalizminin izlərini görmək bir o qədər də sarsıdıcıdır. Bu vəhşiliyin izləri zombi filmlərindəki qorxu səhnələri qədər ürəyi zəif insanlar üçün, sözün əsl mənasında, tükürpədicidir.

Amma bununla yanaşı, gözəl Vətənimizin bu dilbər guşəsinə səyahət etmək hər bir insanın, xüsusən ürəyi Azərbaycan, Can Azərbaycan eşqi ilə yanan hər bir vətənpərvər türk övladının qəlbində ən yaddaqalan hisslər yaradır. Zəfər Yoluna çatmamış, yəni düşmən işğalından azad

olunmuş ilk yaşayış məntəqələrindən olan Alıxanlı kəndindəki hər yerdə rast gəlinən yüksək sosial-iqtisadi inkişaf, gülərüz insanların həyat tərzi, abadlaşan kənd və şəhərlər, əslində, Qarabağın keçmişi barədə də insanda kifayət qədər təsəvvür yaradır. Ancaq cəmi iki-üç kilometr keçəndən sonra yəni 2020-ci ilin 27 sentyabrınadək mövcud olmuş qoşunların təmas xətti və şanlı Azərbaycan Ordusunun bir həmləsi ilə yarılmış dırnaqarası Ohanyan səddi arxada qalandan sonra sanki dəhşətli vulkan küllərinin altında qalmış Pompeyi, yaxud atom bombasının partlayışından sonrakı Xirosimanı xatırladan bir mənzərə göz önünə açılır. Bir zamanlar, yəni 1990-cı illərə qədər abad, əkilib-becərilən olmuş torpaqlardakı geniş üzüm bağlarının izlərini xatırladan beton dirəklər "meşəsi"ni gördükdə erməni quldurluğu haqqında təsəvvürlər real olaraq göz önünə çıxır. Füzuli şəhərinə çatana qədərki yolda və şəhərin özündə olan belə dağıntılarda diqqəti cəlb edən məqamlardan biri bütün qəsb olunmuş evlərin ya tamamən sökülməsi, ya da divarların künclərinin "erməni səliqəsi" ilə yox edilməsidir. Bu mənada, fikrimizcə, özlərini dünyanın ən məzlum toplumu kimi qələmə verib, şivən qoparan hay sürüsünün dağıtdıqları Azərbaycan kəndlərindəki evlərin künc daşlarına qədər tamah salması faktlarının turistlərə çatdırılması məsələləri gələcəkdə turizm araşdırmaçılarının əsas tədqiqat predmetlərindən biri olacaqdır.

Naxçıvandan gələn turistlərin Zəfər Yolu ilə Şuşaya çatması, təxminən, 12-13 saata başa gəlir. Naxçıvandan Bakıya uçuş və Bakı-Şuşa avtobusları ilə 400 kilometrlik yolu gediş-dönüşü nəzərə aldıqda bu müddət çox da uzun görünməməlidir. Ancaq gələcəkdə Zəngəzur dəhlizi açıldıqdan sonra bu müddət, təxminən, 6-7 saata qədər azala bilər. Belə ki, turistlər üçün Qərbi Zəngəzurdan keçdikdən sonra Ağbənd-Mincivan-Zəngilan Beynəlxalq Hava Limanı-Füzuli marşrutu üzrə Şuşaya çatmaq daha qısa müddətə başa gələcəkdir. Qeyd edək ki, bu marşruta alternativ olaraq gələcəkdə Zəngilan-Qubadlı-

Laçın-Turşsu-Şuşa marşrutu da istifadə oluna bilər. İstənilən halda bu dəhliz boyunca Naxçıvandan başlayaraq keçən yoldakı zəruri dayanacaqları da nəzərə alsaq, bu müddət nisbi olaraq dəyişilə bilər. Bütün yol boyunca aparılan təqdimatlarda isə 44 günlük Vətən müharibəsində Şanlı Azərbaycan Ordusunun qəhrəmanlıq dastanını özündə yaşadan hər bir yüksəkliyin, daşın, ağacın hekayəsi ilə tanış olmaq mümkündür. Ayrıca olaraq, Zəfər Yolunda iz qoymuş qəhrəman əsgərlərimiz qədər, Böyük Qələbədən sonra bir ildən də az olan qısa bir müddətdə bu yolu inşa etmiş ölkəmizin iqtisadi gücü haqqında da gözəl təsəvvür yaranır. Əgər marşrut boyunca səyahət yoldaşlarınızdan işğaldan qabaq bu bölgədə yaşamış insanlar da vardırsa, bu, turistlər üçün "dünən və bu gün" körpüsündə daha dərin təsəvvür əldə etmək və fərqli təhlillər, müqayisələr aparmaq baxımından əla fürsət olacaqdır. Ona görə də Şuşa turunda iştirak edən hər bir turistin turun bələdçisi və sürücüsünün fikirləri qədər qiymətli düşüncələrinin olduğunu qeyd etmək yerinə düşər.

Marşrut boyunca turistlər bələdçinin Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisində mövcud olan tarixi məkanlar, qədim Azıx mağarası, həmçinin yeni inşa olunmuş Füzuli Beynəlxalq Hava Limanı, buradan keçən yüksəkgərginlikli enerji infrastrukturu, tunellər, viaduklar və müxtəlif təyinatlı digər yeni tikililər barədə məlumatlarını maraqla dinləyirlər. Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi və Daşaltı kəndindən keçərək Şuşaya yaxınlaşdıqca hər kəsin təsəvvüründə 44 gün ərzində belə dağlıq relyef şərtlərində düşməni əzə-əzə keçməyin nə qədər çətin, amma o qədər də fərəhverici olması barədə hisslər yaranır. Dünyanı heyrətə salıb qəhrəmanlıq göstərən Şuşa fatehlərinin açdığı Zəfər Yolu ilə irəlilədikcə turistlər keçilməz kimi görünən yüksəkliklərin və sərt yamacların Vətən sevgisi qarşısında necə zəif qaldığına bir daha şahid olurlar. Şuşaya yaxınlaşdıqca sol tərəfdə Şuşa və Turşsu arasında yerləşən

Böyük Kirs zirvəsi Qarabağın ən önəmli strateji nöqtələrindən biri kimi uzaqdan diqqəti cəlb edir. Deyilənə görə, Xan qızı Natəvan bu dağdan Şuşa şəhərinə saxsı borularla su çəkdiribmiş. Artıq Daşaltının görünməsi ilə turistlər bir anda Şuşa cazibəsinin sehri altına düşürlər.

Daşaltı Şuşaya çatmamış bu marşrutun ən cazibədar elementlərindən biridir. Şuşanın cənubunda, Cıdır düzündən



aşağıda, Daşaltı çayının sahilində yerləşən eyniadlı kənd sirlərlə doludur. Daşaltı Şuşanın təbii qalasının — nəhəng qayalığın altında yerləşdiyindən belə adlanır. Deyilənə görə, Cıdır düzündən Daşaltı çayının sahilinə qırx pilləkən enir. Orada böyük Daşaltı mağarasının bir hissəsi olan "Xəzinə-qala" da var. Yaxın keçmişdə isə Daşaltı kəndi hələ Birinci Qarabağ müharibəsi dövründə burada aparılmış qanlı hərbi əməliyyatlarla yadda qalmışdır. 44 günlük şanlı Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması ilə Daşaltı şəhidlərimizin də qisasının alınması Şuşa yolunda irəliləyən turistləri həyəcanlandıran ən qabarıq hisslərdəndir. Buna görə də Şuşaya çatmamış Daşaltı kəndinin qeyri-adi mənzərəsi, burada yaşamış olan insanların tarixi və mədəniyyəti ilə bərabər, torpaqlarının azadlığı üçün ölümə

meydan oxuyan şanlı Azərbaycan əsgərinin qəhrəmanlıq hekayəsi maraqla dinlənilir. Turistləri daşıyan nəqliyyat vasitəsi Daşaltı dolayları ilə qalxdıqca bu məlumatların çatdırılması üçün əla fürsətlər yaranır.

Şuşa şəhəri marşrutun son nöqtəsi, ən cazibədar turizm destinasiyasıdır. Şuşa Vətənin alınmaz qalası, Qarabağın incisi, bütün dünya azərbaycanlılarının otuzillik həsrətinin sona çatdığı yer deməkdir. Odur ki, Şuşaya, xarıbülbülün məskəninə ilk ayaq basdıqda insanın ürəyində Cıdır düzünün sərt yamaclarından quşbaxışı görünən dərin Daşaltı çayından başlayaraq qarşıdakı Kəlbəcər dağlarına və Xankəndini qucaqlayan zirvələrədək hər yerdə süzən azad qartalların məskənində yaşamaq hissləri baş qaldırır. Şuşanı fəth edib, Qarabağın sahibi olmaq kimi belə ülvi hissləri insanda yaşadan əziz şəhidlərimizin ruhları qarşısında bir daha baş əymək, onlara sonsuz minnətdarlığımızı bildirmək üçün bu zirvələrə qalxmaq hər bir azərbaycanlının çatmaq istədiyi bir arzudur. Bu mənada, Mədəniyyət Paytaxtımız Şuşa ilə tanışlıq hər bir insanın yaddaşında uzun illərboyu unuda bilməyəcəyi dərin təəssüratlar yaradır.

Cıdır düzündə doyunca gəzib-dolaşan turistlər buradan ətrafa açılan təbii gözəllikləri fotoyaddaşlara köçürdükdən



sonra onları qarşıda Şuşanın tarixi-mədəni zənginlikləri ilə maraqlı tanışlıqlar gözləyir. Bu mənada, Şuşaya gəlmiş turistlər çox şanslıdırlar. Bir-birindən çox da uzaqda olmayan bu zənginliklər təbiət, tarix və mədəniyyət harmoniyasında insanların mənəvi aləminin və ümumi dünyagörüşünün daha da dərinləşdirilməsində çox faydalıdır.

Şuşa dünyanın unikal şəhərlərindən biridir. Belə ki, dəniz səviyyəsindən, təxminən, 1400 metr yüksəklikdə yerləşən Şuşada 17 məhəllə, 17 hamam, 17 bulaq, 17 məscid vardır. Şuşa tarixi mərkəz kimi Qarabağ xanlığının həyatında mühüm rola malik olub. Hələ o vaxtlar Şuşanın gümüşdən açarları və öz pul vahidi olmuş, burada gümüş pullar zərb edilmişdi. Şuşaya gəlmiş turistlər bilməlidirlər ki, istər Qarabağ xanlığı dövründə, istərsə də sonrakı dövrlərdə Şuşa qalası istər rus, istərsə də erməni işğalçılarına qarşı inadla müqavimət göstərib və bu gün xalqımızın maddi və mədəni sərvətlərinin mühafizə olunduğu etibarlı yaddaşa çevrilib. Bu yaddaş Qarabağ torpağının yetirmələri olan onlarla tanınmış şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri, generallar, memar və mühəndislərin həyat və fəaliyyəti, onların xidmətləri ilə sənədləşdirilib, tarix səhifələrinə köçürülüb. Odur ki, Şuşaya səfər etmiş turistlər burada Şuşa mağarası, Cıdır düzü, Topxana, Qala divarları və Qala qapısı, zindanlar, karvansaralar, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Hacıqululların, Zöhrabbəyovların, Mehmandarovların, Xanbikə xanımın, Əsəd bəyin malikanələrini, İsa bulağını, Xan qızının evi və bulağını ziyarət edərək öz təəssüratlarını dərinləşdirə bilərlər. Şuşada olarkən turistlər Vaqifin məqbərəsini ziyarət edə, 1992-ci ildə şəhərin işğalı zamanı vandalizmə məruz qalmış Azərbaycan mədəniyyətinin tanınmış simaları Xan qızı Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin büstlərinə yaxından baxa bilərlər. Hazırda turistlər Şuşada olarkən qala divarlarının fonunda fotoşəkil çəkdirib, şəhərin panoramı ilə tanış olmaqla asudə vaxtlarını daha mənalı keçirə bilirlər.

Ayrıca olaraq azad Şuşaya səyahətdən qayıdarkən turistlər hədiyyə olaraq Xan qızı Natəvanın bulağından bir içim su və




Daşaltıdan biri neçə qaya parçası da götürməklə təəssüratlarını doğmaları ilə bölüşə bilərlər. Beləcə, Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu üzrə səyahət edən turistlər günün sonunda doğma Qarabağ torpağında yeni bir gündə insanları salamlamaq üçün qüruba yollanan Günəşlə vidalaşıb, tur qrup üzvlərindən də təzə dostlar qazanırlar. Qarşıda isə bu insanları Böyük Qayıdış gözləyir.

Ulu öndər Heydər Əliyev **"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz"**, — demişdir. Bu gün isə bütün Azərbaycanın dilində bir şüar vardır: "Şuşa bizimdir, Qarabağ Azərbaycandır!" Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Böyük Qələbə münasibətilə verdiyi **"Əziz Şuşa biz, qayıtmışıq!"** müjdəsindən sonra yaranmış yeni reallıq isə addım-addım bizi tarixi torpaqlarımız Zəngəzura da qayıdacağımız günə yaxınlaşdırır.

Həmin gün Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu hər kəsin ən rahat güzərgahı olacaq.

## İstifadə olunmuş ədəbiyyat

1. Babayev S.Y. "Əfsanələr diyarı". Bakı: Elm, 2001, 288 s.
2. Cabbarov Ə.X. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. ADPU-nəşriyyatı. 267 səh.
3. Cabbarov Ə.X. Kənd turizmi: inkişaf istiqamətləri və perspektivləri // "İqtisadiyyat və Audit", aylıq elmi-praktik jurnal, № 11(65), Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, s. 14-17
4. Cabbarov Ə.X. Milli-mədəni turizm ehtiyatları və onlardan istifadə. "Azərbaycan turizm yenilikləri" qəz., Bakı, 2006, №4.
5. Cabbarov Ə.X. Naxçıvan Muxtar Respublikasında turizm-ekskursiya fəaliyyətinin təşkili məsələləri. Naxçıvan Dövlət Universiteti Elmi əsərlər. Tarix elmləri, ictimai elmlər, iqtisadiyyat və hüquq seriyası, Naxçıvan: "Qeyrət" nəşriyyatı, №2
6. Cabbarov Ə.X. Mədəni-tanışlıq turizmi və Naxçıvan Muxtar Respublikasında onun inkişafı istiqamətləri. Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, humanitar elmlər seriyası, №5, Bakı: ADPU, 2005, s. 254-261.
7. Cabbarov Ə.X. Naxçıvan-İğdır: Arazboyu turizm destinasiyası üzrə planlaşdırma məsələləri. Naxçıvan" Universiteti. "Elmi əsərlər". Beynəlxalq münasibətlər, iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika, psixologiya, riyaziyyat. 2015, № 1 (1). Naxçıvan, NU-"NUH", 2015
8. Naxçıvan Ensiklopediyası. AMEA-nın Naxçıvan bölməsinin nəşri. Naxçıvan: 2005, I cild. 356 s.
9. Naxçıvan Ensiklopediyası. AMEA-nın Naxçıvan bölməsinin nəşri. Naxçıvan: 2005, II cild, 376 s.
10. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 522 s.

11. Cabbarov Ə.X. Naxçıvan-Əlincə turizm marşrutu üzrə destinasiya menecmenti: resurslar və perspektiv planlaşdirma. Azərbaycan Turizm və Menecment Universitetinin 10-illiyinə həsr olunmuş "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda II Beynəlxalq Elmi-Praktiki Konfransın materialları 18-19 dekabr 2015-ci il. Bakı-2015.
12. Cabbarov Ə.X. Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu: mövcud vəziyyət və perspektiv planlaşdırma. Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. İl5, say 2, 2016
13. Cabbarov Ə.X. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi üzrə rekreasyia qiymətləndirməsi. Naxçıvan" Universiteti "Elmi əsərlər". 2018. № 4 (11) s. 18-25
14. Cabbarov Ə.X. "Naxçıvan-Nehrəm" turizm marşrutu üzrə test turunun SWOT təhlili. Naxçıvan" Universiteti "Elmi əsərlər". 2017. № 2 (5) s. 32-41
15. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişafı yolları. Bakı: Mürtəcim, 2004, 212 s.
16. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı: Mütərcim, 2004, 312 s.
17. Səfərli H.F. Duaların Allaha çatdığı yer-Əshabi-Kəhf. Bakı: Elm, 2002. 48 s.
18. Джаббаров А.Х., Рзаев М. Гурбанлы Г. Дары природы: лечебный туризм в Азербайджане. Опыт и перспективы. Национальный туристский журнал "Туристские Фирмы". Выпуск 45(13), СПб.: Невский Фонд, 2008, с.139-145
19. Джаббаров А.Х., Рзаев М. "Туризм и современность. – Нахчыванская Автономная Республика, Азербайджан. Новосибирск-2011.

20. Jabbarov A. Zulfugarov Z. Social Tourism in Duzdag, Nakhchivan Autonomous Republic within the Republic of Azerbaijan: Resources, Planning and Development. American Journal of Tourism Management 2015, 4(1): DOI: 10.5923/j.tourism.20150401.01-6
21. Jabbarov A. Zulfugarov Z. The castle of Alinja: Machu Picchu of Azerbaijan. Roof tourism in Nakhchivan. International Journal of Tourism & Hotel Business Management (IJTHBM) (ISSN: 2641-6948) SciTech Central Inc., USA. 153-162 Vol. 1 (3) 2019
22. Историческая география Западного Азербайджана. Изд-во Азербайджан. Баку. 1998. 560 стр

# Mündəricat


***Ön söz*** 3

**I Fəsil. Turizm marşrutu və onun mahiyyəti**

*1.Turizm marşrutu anlayışı* 7

*2.Turizm marşrutlarına qarşı qoyulan müasir tələblər* 11

*3.Turizm marşrutlarının yaradılmasına təsir edən amillər* 16

*4.Naxçıvan Muxtar Respublikasının turizm marşrutları və yaranması amilləri* 21

**II Fəsil. Naxçıvan Muxtar Respublikasının əsas turizm marşrutları**

*1. Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu* 28

*2. Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu* 35

*3. Naxçıvan-Əlincə turizm marşrutu* 40

*4. Naxçıvan-Şahbuz-Ağbulaq turizm marşrutu* 54

5. Naxçıvan-Qarabağlar turizm marşrutu *59*

*6. Naxçıvan-Ordubad turizm marşrutu* 63

*7. Naxçıvan-Duzdağ ekskursiya marşrutu* 69

*8. Naxçıvan şəhəri üzrə ekskursiyalar* 75

**III Fəsil. Naxçıvan Muxtar Respublikasının perspektiv turizm marşrutlari**

*1.Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu* 83

*2. Naxçıvan-Sədərək turizm marşrutu* 90

*3.Naxçıvan-Badamlı turizm marşrutu* 94

*4.Naxçıvan-Haçadağ turizm marşrutu* 98

*5. Naxçıvan - Çənnəb turizm marşrutu* 102

*6. Naxçıvan-Gəmiqaya turizm marşrutu* 106

*7. Naxçıvan-Nehrəm turizm marşrutu* 112

*8. Naxçıvan-Dırnıs turizm marşrutu* 116

*9. Naxçıvan - Keçili turizm marşrutu* 121

*10. Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu* 124

*11. Naxçıvan-Ordubad-Göygöl turizm marşrutu* 128

**IV FƏSİL. Naxçıvan – Zəngəzur – Şuşa turizm marşrutu**

*1.Naxçıvan – Qərbi Zəngəzur – Şuşa turizm marşrutu* 132

*2.Naxçıvan – Şərqi Zəngəzur – Şuşa turizm marşrutu* 148

*İstifadə olunmuş ədəbiyyat* 155

**Əli Cabbarov**

# Naxçıvan Muxtar Respublikasının turizm marşrutları

Çapa imzalanmış 13.12.2022.
Formatı 64X90 1/16 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 10 ç.v.
Sifariş № 1123 Tiraj 80 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14